

# 5

# ƏDƏBİYYAT

## DƏRSLİK

 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Soltan Əliyev, Bilal Həsənov, Əminə Səfərova, Əsgər Quliyev

# ƏDƏBİYYAT

# 5

Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
DƏRSLİK

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# Ədəbiyyat

## Başlıqlar

Dərsliklə necə işləməli? . . . . . . . . . . . . . . 6
Bədii ədəbiyyat söz sənətidir . . . . . . . . . . . . 9

**ŞİFAHİ XALQ ƏDƏBİYYATI İNCİLƏRİ**
Ana maral (əfsanə) . . . . . . . . . . . . . . 12
Xalq öz vətənini necə tapdı (Şimali Amerika əfsanəsi) . . . 18
Yetim İbrahimin nağılı . . . . . . . . . . . . . 23
Üç qardaş (özbək nağılı). . . . . . . . . . . . . 33

**YURD SEVGİSİ, ANA MƏHƏBBƏTİ**
Əhməd Cavad. Azərbaycan! Azərbaycan! . . . . . . . 44
Əli Tudə. Yaşayanlar görəcəkdir . . . . . . . . . . 49
Hüseyn Arif. Analar . . . . . . . . . . . . . . 53

**MƏNƏVİ DƏYƏRLƏR, HƏMİŞƏYAŞAR HİKMƏTLƏR**
Ənvər Əlibəyli. İlan və Qurbağa . . . . . . . . . . 60
Cek London. Kiş haqqında hekayət . . . . . . . . . 64

**MÜHARİBƏ VƏ İNSAN HAQQI**
Xəlil Rza Ulutürk. Oğul həsrəti . . . . . . . . . . 78
Maqsud İbrahimbəyov. Püstə ağacı . . . . . . . . . 82
Elçin Hüseynbəyli. Firuzə qaşlı xəncər . . . . . . . . 89

**UŞAQ DÜNYASI, UŞAQ TALEYİ**
Əhməd Cəmil. Can nənə, bir nağıl de . . . . . . . . . . 102
Mark Tven. Fərasətli oğlan . . . . . . . . . . . . . . 106

**ƏMƏYƏ MƏHƏBBƏT, ZƏHMƏTƏ ÇAĞIRIŞ**
Nizami Gəncəvi. Kərpickəsən kişinin dastanı . . . . . . . . 116
Süleyman Rəhimov. Qara torpaq və sarı qızıl . . . . . . . 120

**TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI**
Abdulla Şaiq. Köç . . . . . . . . . . . . . . . . . . 130
Səməd Vurğun. Çinarın şikayəti . . . . . . . . . . . . . 141
Fikrət Qoca. Şuşa . . . . . . . . . . . . . . . . . . 145

---

Layihələr . . . . . . . . . . . . . . . . . . . . 149
İfadəli oxuda istifadə edilən şərti işarələr . . . . . . . . 199
Lüğət . . . . . . . . . . . . . . . . . . . . . 200
Dərslikdəki bəzi terminlərin izahı . . . . . . . . . . . . 206
Oxumağı məsləhət görürük . . . . . . . . . . . . . . 207

# DƏRSLİKLƏ NECƏ İŞLƏMƏLİ?

**İZAHLARLA TANIŞ OLUN.** Bu, yerinə yetirəcəyiniz tapşırıqlar, öyrənəcəyiniz mətnlər barədə sizdə aydın təsəvvür yaradacaqdır.

**Yada salın –** mövzu ilə bağlı bildiklərinizi xatırlatmağa, maraq və istəklərinizi ifadə etməyə istiqamətləndirəcəkdir.

**Düşünün –** ilkin fərziyyələr söyləməyə, araşdırmalar aparmağa yönəldəcəkdir.

**Oxuda aydınlaşdırın –** tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

**Məzmun üzrə iş –** məzmunu necə mənimsədiyinizi aşkara çıxarmaq və dərinləşdirmək üçün nəzərdə tutulan suallardır.

**Təhlil üzrə iş –** əsərin ədəbiyyatımızda yeri, əhəmiyyəti, onunla bağlı tarixi faktlar və s. əks olunur. Bu açıqlamalar əsərin bədii xüsusiyyətlərini anlamağa, öyrəndiklərinizi sonrakı mərhələlərdə tətbiq etməyə istiqamətləndirəcəkdir.

**Araşdırın. Fikirləşin. Cavab verin –** əsərin mövzusuna, ideyasına, qəhrəmanlarına münasibət bildirməyiniz üçün nəzərdə tutulan sual və tapşırıqlardır.

**Tətbiq. Müzakirə. Yaradıcı iş –** fərdi, eləcə də qrup şəklində tədqiqat aparmağınıza, yaradıcı işlərə qoşulmaqla bilik və bacarıqlarınızı tətbiq etməyə istiqamət verəcəkdir.



**Bölməni yekunlaşdırarkən –** hər bölmənin sonunda təklif edilmiş suallar, tapşırıqlar qazandığınız bilik və bacarıqları özünüzün dəyərləndirməyiniz üçün nəzərdə tutulub.







**Qiymətləndirmə materialları –** bölmənin sonundakı oxu materialları kiçik summativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur.

**Layihələr –** I və II yarımil ərzində fərdi, yaxud qruplarla yerinə yetirilməsi nəzərdə tutulur. Layihə mövzuları müstəqil seçilir. Layihələri işləyərkən dərslikdə verilmiş müvafiq materiallardan, yaxud digər mənbələrdən faydalana bilərsiniz. Bu layihələr bilik və bacarıqlarınızın tətbiqinə, yaradıcı təfəkkürünüzün inkişafına xidmət edir.

**• Unutmayın!**

**Dərslikdəki cədvəllərdə qeydlər etməyin.**

Həmin cədvəlləri iş vərəqlərində çəkərək cavabları orada yazın.

**Dərs ilinin sonunda nail olacağınız nəticələr**

– *bədii əsərləri məzmununa uyğun ifadəli oxumaq, hissələrə ayırmaq, plan tərtib etmək;*

– *bədii əsərlərin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl etmək;*

– *şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirmək, bədii təsvir vasitələrini müəyyənləşdirmək;*

– *bədii əsərlərin mövzusunu, ideyasını aydınlaşdırmaq, baş qəhrəmanları səciyyələndirmək;*

– *öyrənilən yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirləri şərh etmək, müzakirələrdə dinlənilənlərə münasibət bildirmək;*

– *müxtəlif səciyyəli yazılarda mövzuya münasibəti ardıcıl şərh etmək.*

*Sizə uğurlar arzulayırıq!*

## Bədii ədəbİyyat söz sənətidir

Əziz şagirdlər!

Beşinci sinifdə öyrənəcəyiniz yeni fənlərdən biri də ədəbiyyatdır. Amma ədəbiyyat sizin üçün tamamilə yeni fənn deyil. Siz əvvəlki siniflərdə müxtəlif bədii nümunələrlə tanış olmusunuz. İndi isə ədəbiyyatı daha dərindən öyrənəcək, ayrı-ayrı sənətkarların yaradıcılığı ilə tanış olacaq, müxtəlif janrlarda (əfsanə, nağıl, hekayə və s.) əsərlər oxuyacaq və onları müzakirə edəcəksiniz.

"Ədəbiyyat" geniş anlayışdır. "Ədəbiyyat" ərəb sözüdür – **ədəb, mərifət, əxlaq, incəlik, elm, bilik** mənalarında işlənir. Bədii ədəbiyyatda yazıçının hiss və həyəcanları, həyatın bədii mənzərəsi sözlə təsvir olunur.

Ədəbiyyat incəsənətin bir növüdür. İncəsənətin növləri çoxdur: musiqi, rəssamlıq, kino, heykəltəraşlıq və s. Yazıçı da bəstəkar, rəssam, heykəltəraş kimi həyatı obrazlı şəkildə əks etdirir. Lakin onlar bunun üçün müxtəlif vasitələrdən istifadə edirlər; məsələn, musiqiçi əsərini səslərin ahəngi, rəssam boyalar, heykəltəraş daş, gil və s. vasitəsilə yaradır. Yazıçı isə bədii əsəri yaradarkən sözlərdən istifadə edir.

Ədəbiyyat şifahi və yazılı olmaqla iki yerə ayrılır. Şifahi xalq ədəbiyyatına folklor da deyilir. **Folklor** (ingiliscə "*folk*" – xalq, "*lore*" – müdriklik) şifahi xalq yaradıcılığı deməkdir. Folklor nümunəsi olan bayatı, atalar sözləri, əfsanə və nağıllarda xalqın adət-ənənələri, dünya və insan haqqında təsəvvürləri öz əksini tapıb. Şifahi ədəbiyyat nümunələrinin özünəməxsus xüsusiyyətləri, dili olur. Məsələn, nağıllarda hadisələr sürətlə baş verir, əhvalatlar şirin, axıcı dillə təsvir edilir.

Yazılı ədəbiyyat nümunələri (təmsil, hekayə və s.) isə ayrı-ayrı şairlər, yazıçılar tərəfindən yaradılır. Siz Nizami Gəncəvi, Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Səməd Vurğun və digər sənətkarların əsərlərini oxumusunuz. Onların əsərləri yazılı ədəbiyyat nümunələri sayılır. Bu əsərlərdə daha çox həyat hadisələrindən, insan taleyindən söz açılır.

Siz ədəbiyyat dərslərində **bədii əsərlərlə** daha ətraflı tanış olacaqsınız.

Bədii ədəbiyyatda keçmişdə və indi baş verənlər, gələcəkdə ola biləcək hadisələr, insanın mənəvi dünyası, təbiət, heyvanlar aləmi, qeyri-adi, fantastik sərgüzəştlər və s. əks olunur. Ədəbiyyatın başlıca mövzusu insan, onun həyatı, düşüncələri ilə bağlı olur. Yazıçı nədən danışırsa-danışsın, nəyi təsvir edirsə-etsin, ona insanın münasibətini ifadə edir: "Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, təpələrə, çöllərə xalı kimi döşənmiş yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü".

Bu təsvirdə doğma təbiətin gözəlliyindən heyrətə gəlmiş yazıçının hissləri, düşüncələri əks olunub.

Yazıçı söz seçiminə, onun yerində işlədilməsinə böyük həssaslıqla yanaşır. Yazıçının ixtiyarında zəngin xəzinə olan dil və söz var. Kamil bədii əsərdə artıq olan, yerinə düşməyən sözə rast gəlmək mümkün deyil. Mütaliə edərkən oxucu hər sözün, cümlənin mənasını başa düşməyə çalışmalı, oxuduqlarını dərk etmək üçün düşünməlidir.

Çox vaxt əsəri ilk dəfə oxuyanda təsvir edilən bəzi mətləbləri başa düşmək və "gizli" fikirləri anlamaq çətin olur. Buna görə də bədii əsəri **düşünərək, anlayaraq** oxumaq vacibdir. Bu halda əsər oxucunun qəlbinə güclü təsir edir və o, ətrafında baş verənlərə daha ayıq gözlə baxır.

Ədəbiyyat dərslərində öyrənəcəyiniz əsərlər Vətənimiz, onun gözəl təbiəti, insan taleyi, həyatda baş verən hadisələr, valideynləriniz, onların sizin üçün çəkdikləri zəhmət barədə daha ciddi düşünməyə yönəldəcək.

Beləliklə, bədii ədəbiyyatın – söz sənətinin gözəlliyini duyacaq, ondan zövq alacaq, zərif hiss, geniş düşüncə sahibi olacaqsınız. Mütaliə mədəniyyətiniz yüksələcək, oxuduğunuz əsərlər barədə müstəqil fikir yürüdəcəksiniz, nitqiniz zənginləşəcəkdir.

### Fikirləşin. Cavab verin

1. Bədii əsərlərdə nədən danışılır?
2. Yazıçı sözdən necə istifadə edir?
3. Əsəri diqqətlə, düşünərək oxumaq nə üçün vacibdir?
4. Bədii ədəbiyyat digər sənət sahələrindən (rəssamlıq, heykəltəraşlıq, teatr və s.) hansı cəhətlərinə görə fərqlənir?
5. Şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətləri hansılardır?

### Tətbiq. Müzakirə. Yaradıcı iş

"Bədii ədəbiyyatla incəsənətin digər növlərinin (rəssamlıq, musiqi, teatr, kino) əlaqəsi" mövzusunda müzakirə aparın.

### Evdə iş

Kitabxanadan və ya internetdəki mənbələrdən istifadə etməklə tanınmış yazıçı və şairlərin bədii ədəbiyyatla bağlı fikirlərinə aid nümunələr toplayın.

# ŞİFAHİ XALQ ƏDƏBİYYATI İNCİLƏRİ

1

Bədii ədəbiyyat iki yerə ayrılır: **şifahi, yazılı.**

Şifahi ədəbiyyatın tarixi daha qədimdir. O, yazı yaranmamışdan əvvəl meydana gəlmişdir. Şifahi ədəbiyyat nümunələrini kimin yaratdığı da məlum deyil. Əlbəttə, bu nümunələri vaxtilə ayrı-ayrı şəxslər yaradıb, lakin zaman keçdikcə onların adı unudulub. Dildən-dilə, ağızdan-ağıza keçərək yaşayıb, zaman ötdükcə onlar həm də dəyişib, daha da zənginləşib.

Bu bölmədə *əfsanə və nağıllarla* tanış olacaqsınız.



## ANA MARAL
(Əfsanə)

**Yada salın**

– Öyrəndiyiniz hansı əfsanələri xatırlayırsınız?
– Əfsanələrin nağıllarla oxşar və fərqli cəhətləri hansılardır?

**Düşünün**

– İnsanın təbiətə, təbiətdəki canlılara qəddar münasibəti nə ilə nəticələnər?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

Kənddə məşhur ovçu kimi tanınan Nurəli kişi meşədən çox pərişan qayıtdı. Arvadı Fatimə, oğlu Bəhruz onu qarşılamağa çıxdılar. Kişi fikir dəryasına qərq olmuşdu. Fatimə bir addım irəli atıb ərinin çiynindən lüləsi aşağı sallanan tüfəngi götürmək istədi. Nurəli kişi ona mane oldu. Ağır addımlarla evin arxasına keçdi. Tüfəngi çiynindən aşırdı. Arvadının və oğlunun gözləri qabağında neçə il yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşa çaxdı.

– Daha günaha batmaq istəmirəm!.. Oğlum, Bəhruz, bundan sonra sənin qazancını yeməli olacağıq. Bir də əlimə tüfəng almaram. Meşədən elə utanıram, elə xəcalət çəkirəm ki, bir də ora dönməyə üzüm gəlməz. Sən isə, ay bala, çörəyi tüfəngdən yox, torpaqdan çıxartmalısan.

Bəhruz atasının dərdinə şərik olmaq istədi:

– Atacan, sənin qərarın səbəbsiz deyil, sən hər saat fikrindən dönən adam deyilsən.

Ata dərindən nəfəs alıb başına gələn əhvalatı danışmağa başladı:

– Altmış ildir, ovçuluq eləyirəm. Altmış ildir, marala, ceyrana, turaca, kəkliyə – meşənin sərvətinə, dövlətinə güllə atıram. Hamı bilir ki, kefimdən yox, sizi yaşatmaq üçün güllə atıram. Altmış ildə bir dəfə də olsun, meşə mənim xətrimə dəyməyib, məni əliboş qaytarmayıb. Bu gün isə...



Fatimə hövsələsini basa bilmədi:
– A kişi, tez ol, mətləb üstə gəl!
– Arvad, bu gün bir ana maralı xallı bəbir qova-qova mənə tuş etdi. Bəbirə güllə atdım, aralandı. Onun ovuna özüm yiyələndim. Maral qaçdı, mən qovdum, mən atdım, o sindi, nişangahdan yayındı. Yalnız bir səmtə can atırdı. Hiss edirdim ki, körpə balaları var, özünü onlara çatdırmaq istəyir. İkimiz də üzülüb əldən düşmüşdük. Nə o qaçıb canını qurtara bilirdi, nə də mən əl çəkirdim...
Axırda yazığı qovub çıxılmaz bir qayalığa saldım. Lap yaxına gəlib xeyli tamaşa etdim. Gördüm yox, maral heç özündə deyil, tez-tez həmin səmtə boylanır. Tüfəngi gözümün tuşuna qaldırdım, niyyətimi başa düşən maral yanıqlı bir mələrti ilə mənə yalvardı. Tüfəng gözlərimdən enmədi. Birdən möcüzə baş verdi. Maralın soyuq daşlara fışqıran isti südü gözlərimi tutdu. Peşmançılıq var gücüylə əllərimi vurdu. Tüfəngi çiynimə keçirib marala yol göstərdim. Yazıq heyvan məni anladı. Qabağıma düşdü, yola düzəldik. Amma gözlərindəki təlaş çəkilib getmirdi. Bilirdim ki, xallı bəbirin zəhmi onu titrədir. Ana maralı bu məskəndə tək qoymaq olmazdı. Birdən şaqqıltı qopdu. Qayanın arasında pusquda duran xallı bəbir ox kimi süzüb maralı süpürlədi. Tüfəngin nə vaxt açılmasından xəbərim olmadı. Onu gördüm ki, xallı bəbir qorxunc bir nərilti ilə yerdə, maralın ayaqları altında qıvrılır. Maralı düz balalarının yanına qədər ötürdüm. Geri döndüm. Bundan sonra acından ölsəm də, ovçuluq eləmərəm, nahaq qan tökmərəm.
Fatimə ərinə təsəlli verdi:
– Ay kişi, sən ki ən böyük xeyirxahlıq eləmisən, day niyə qəm dəryasına batırsan?
– Bəs indiyə kimi?..
Aradan bir az keçəndən sonra Nurəli kişi fikirdən xəstəliyə düşdü. Nə qədər dava-dərman elədilər, nə qədər çiçəklərdən məlhəm düzəltdilər, xeyri olmadı, kişi şəfa tapmadı. Bir gün Bəhruz loğman kimi bir el həkiminin sorağını aldı. Çətinliklə olsa da, həkimi tapıb atasının üstünə gətirdi. Həkim qoca ovçuya baxan kimi dərdinə aşina oldu:
– Ay bala, heç bilmirəm, necə deyim, xəstənin davası əlacsız yerdədir. O, bir kasa maral qatığı içsə, anadangəlmə olar.
– Həkim, maralın südünü tapmaq müşkül məsələdir, o ki qatığı ola...
Həkim hamını ümidsiz vəziyyətdə qoyub getdi.
Xəstə lap ağırlaşmışdı, dinib-danışmırdı. Ana-bala onun yastığının qırağından çəkilmirdilər. Gecə vaxtı xəstə dil açdı:
– Arvad, qab götür eşiyə çıx, maral mənə süd gətirib.
Fatimə elə bildi, ərinin son nəfəsidir, sayıqlayır. Ancaq özünü sındırmadı, sərnici götürüb bayıra çıxdı. Təəccübdən yerində

dondu. İribuynuzlu, qumral ana maral astanada dayanmışdı. Onun yelinindən süd axırdı. Fatimə tez sərnici bulaq kimi qaynayan südün altına tutdu. Sərnic ağappaq köpüklü südlə doldu. Arvad baxıb-baxıb ah çəkdi:

– Həkim qatıq demişdi, ay maral, sən süd verirsən...

Fatimə südlə dolu sərnici götürüb içəri keçmək istəyəndə maral ona mane oldu. İsti südün içinə hər gözündən bir damla yaş saldı. Süd o saat qatığa çevrildi. Fatimə maralın üzünü, gözünü tumarlayıb yola saldı.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Aşağıdakı suallara cavab hazırlayın.
   a) Nurəli kişi marala niyə güllə atmadı?
   b) Ovçu maralı necə xilas etdi?
   c) Nurəli kişinin xəstəlikdən sağalmasına səbəb nə oldu?
   d) Əsərdə əfsanəyə aid olan xüsusiyyətləri müəyyənləşdirin.
3. Parta yoldaşınızla birlikdə əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
4. Kiçik qruplarda birləşib, hazırladıqlarınız da daxil olmaqla, bütün sualların cavablarını dəqiqləşdirin.
5. Çıxardığınız nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
6. Əfsanədən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin.

**Nümunə**

· **Geniş nağıletmə**

Kənddə məşhur ovçu kimi tanınan, hamının hörmət etdiyi Nurəli kişi bir gün meşədən çox pərişan qayıtdı. Həmişə olduğu kimi, bu dəfə də arvadı Fatimə, oğlu Bəhruz onu qarşılamağa çıxdı. Kişi fikir dəryasına qərq olmuşdu, heç kimin üzünə baxmaq istəmirdi. Fatimə irəli gəlib ərinin çiynindən lüləsi aşağı sallanan tüfəngi götürmək istədi. Amma Nurəli kişi ona mane oldu. Hiss olunurdu ki, o nə isə mühüm qərar qəbul etmək istəyir. Nurəli kişi tələsmədən evin arxasına keçdi. Tüfəngi çiynindən aşırdı, diqqətlə ona baxdı. Əlini yavaş-yavaş lüləsində, qundağında gəzdirdi. Sonra arvadının və oğlunun gözləri qabağında uzun illər yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşlara çaxdı.

## Evdə iş

Mövzulardan birini seçib yerinə yetirin.

a) Əfsanə ilə səsləşən atalar sözləri müəyyənləşdirin.
b) Əfsanədən seçdiyiniz bir hissəni geniş nağıletməyə hazırlaşın.

## II dərs Təhlil üzrə iş

· **Əsərlə bağlı açıqlamalar.**

*Siz **əfsanələrlə** tanışsınız. Bilirsiniz ki, möcüzəli hadisələrin əks olunduğu əfsanələr şifahi xalq ədəbiyyatına aiddir. Yaranma tarixi çox qədim olan əfsanələr müxtəlif mövzularda olur; heyvanlar və quşlar haqqında, yer adları və tarixi hadisələr barədə, eləcə də digər mövzularda çoxlu əfsanələrimiz var.* "Ana maral" əfsanəsinin maraqla oxunmasının bir mühüm səbəbi onun bədii gözəlliyidir. Bu gözəlliyi yaradan vasitələr isə çoxdur, rəngarəngdir. Onlardan biri **bədii sözdür**. Hər gün eşitdiyimiz adi sözlər bədii əsərdə fərqli mənalarda işlədilməklə bizdə güclü hisslərin, duyğuların yaranmasına səbəb olur, bu sözlərin köməyi ilə təsirli, yaddaqalan səhnələr yaradılır.

Əfsanədə oxuyuruq: "Tüfəngi gözümün tuşuna qaldırdım, niyyətimi başa düşən maral yanıqlı bir mələrti ilə mənə yalvardı". Maralın mələrtisinin "yanıqlı" olması, onda yalvarışın duyulması bizi həyəcanlandırır, gözümüzün qarşısında canlanan mənzərəni unuda bilmirik... Əsərin üzərində müşahidələrinizi davam etdirin, onda bədii gözəlliyi yaradan vasitələri müəyyənləşdirməyə çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Nurəli kişi necə insandır, onun xarakterindəki başlıca cəhətlər, sizcə, hansılardır?
2. Əsərin maraqla oxunmasına səbəb, sizcə, nədir?
3. Aşağıdakı iki fikirdən hansını əfsanənin əsas ideyası hesab etmək olar?
   a) Əfsanədə ananın balasına böyük məhəbbəti ifadə olunmuşdur.
   b) Əfsanədə "yaxşılıq heç vaxt itmir" fikri ifadə edilmişdir.

## Tətbiq. Müzakirə. Yaradıcı iş

"Ana maral" əfsanəsində gerçək hadisələrlə səsləşmələr varmı? Varsa, buna səbəb nədir?" mövzusunu müzakirə edin.

## Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.

a) Əfsanədə mənə daha çox təsir edən epizod hansıdır?
b) Əfsanəyə çəkilmiş illüstrasiyaya münasibətim.

**III dərs** **Əsərin ifadəli oxusu**

**İfadəli oxuya hazırlaşın.**

1. Aşağıdakı mətni oxuyun və müzakirə edin.
   İfadəli oxunun ən mühüm şərti – əsərdəki sevinci, kədəri, həyəcanı... səslənən sözlə dinləyiciyə çatdırmaqdır. Yəni həyatda gördüklərinizi dostlarınıza, yoldaşlarınıza necə səmimi, inandırıcı danışırsınızsa, əsərdəki əhvalat və hadisələri də o qaydada ifadə etməlisiniz. Amma bu, asan deyil. Buna o vaxt nail ola bilərsiniz ki, əsərdəki əhvalat və hadisələr sizə təsir etsin, yəni sizi kədərləndirsin, sevindirsin, həyəcanlandırsın. Axı siz həyatda müşahidə etdiyiniz kədərli, yaxud fərəhli hadisə barədə danışanda qəmli olduğunuz və ya sevincli anlar yaşadığınız səsinizdən aydınca duyulur. Bax əsərdəki hadisələr də sizə o cür təsir etməli, keçirdiyiniz hisslər səsinizdə duyulmalıdır. Bunun üçün əsərdə təsvir olunanlar xəyalınızda canlanmalıdır, siz özünüzü həmin aləmdə hiss etməlisiniz. Deməli, əsəri dönə-dönə oxumalısınız, ondakı təsvirlərlə həyatda gördüklərinizin arasında oxşarlıqlar tapmalısınız.

2. İfadəli oxuda istifadə olunan şərti işarələri dərsliyin 199-cu səhifəsindən öyrənin.
3. Əfsanədən seçdiyiniz parçanı bir daha diqqətlə oxuyun. Fasilələrin, məntiqi vurğulu sözlərin yerini, səsinizin yüksəldiyi, aşağı düşdüyü məqamları müəyyənləşdirib şərti işarələrlə göstərin.

**Nümunə**

"[Kəntdə] məşhur ovçu kimi tanınan Nurəli kişi | meşədən çox pərişan qayıtdı. || Arvadı Fatimə, | oğlu Bəhruz | onu qarşılamağa çıxdılar. || Kişi | fikir dəryasına qərq olmuşdu".

4. İfaları dinləyib müzakirə edin.

**Evdə iş**

Kitabxana və ya internetdəki mənbələrdən bir əfsanə seçib oxuyun. Ondakı başlıca fikri müəyyənləşdirməyə çalışın.

# XALQ ÖZ VƏTƏNİNİ NECƏ TAPDI

(Şimali Amerika əfsanəsi)

**Yada salın**

– Əfsanələr hansı mövzularda olur?

**Düşünün**

– Əfsanələrdə insanla bağlı hansı fikirlərə daha geniş yer verilir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

Deyilənə görə, hopi hinduları Amerikanın ən qədim tayfalarındandır. Onlar başqa insanlardan çox-çox əvvəl dünyaya gəliblər.

Qədim zamanlarda Kainatın atası Tayova Birinci Dünyanı yaradır və insanları ora köçürür. Onlar rahat, azad yaşasalar da, aralarında çəkişmələr, davalar başlayır. Birinci Dünyadakı bu vəziyyətdən narazı qalan Tayova onu odda məhv edir. O, sonra İkinci Dünyanı, Üçüncü Dünyanı yaradır, yenə də insanların ədavət içində yaşadığını görür və bu dünyaları da məhv edir. Sonra isə hopilərin indi də yaşadıqları sonuncu – Dördüncü Dünyanı yaradır.

Dördüncü Dünyanı yaradanda Tayova üzünü adamlara tutub deyir:

– Bu dünya nə əvvəlki dünyalar kimi gözəldir, nə də yaşamaq üçün əlverişlidir: uca dağları, düzənlikləri, bürküsü, şaxtası var. Qara günü, ağ günü, yoxsulluğu, bolluğu var. Siz istədiyinizi seçə bilərsiniz. Qoy hər tayfa işıqlı dünyanın dörd tərəfinə dörd dəfə səfərə çıxsın, sonra isə dörd yolayrıcında görüşsün. Onda həmin səfərin mənası sizə aydın olar.

Tayova sözünü deyib insanları tərk etdikdən sonra onlar uzaq səfərə çıxdılar: cənuba, şimala, şərqə və qərbə üz tutdular. Səyyahlar dəfələrlə dözüm göstərərək ağır sınaqlardan keçdilər.



Cənuba gedənlərin səfəri ağır oldu. Onlar himayədarları Porsuğun şərəfinə özlərini Porsuq tayfası adlandırırdılar. Porsuq onlara xəstəlikləri sağaltmağın yolunu öyrətmiş, müalicəvi otları tanıtmışdı. O öz müdrikliyini nəslin ağsaqqalı Salaviyə vermişdi.

Porsuq nəsli sürətlə çoxaldı. İnsanlar iri yaşayış mağarası olan bir sıldırımlı dərəni yaşayış yeri seçdi, yurd saldı, qarğıdalı saxlamağa anbar tikdi, mərasimlər keçirməyə məbəd ucaltdı. Lakin insanlar arasında ədavət qalmaqda idi. Bundan sonra həmin yerə daha yağış, qar yağmadı, qəhətə çəkildi, qarğıdalı küləşi qupquru qurudu, heyvanlar yoxa çıxdı. Aclıq başladı. Qoca Salavi camaatı toplayıb dedi:

– Sizin ədavətiniz bizə bədbəxtlik gətirdi. Biz gərək buradan gedək. Ayrı-ayrı yollarla müxtəlif tərəflərə gedin. Mən çox zəifləmişəm, sizə başçılıq edə bilmərəm. Sözümə qulaq asın. Düz dörd ildən sonra qayıdın, qayıdandan sonra mənim izimi çaylarda, evlərdə, məbəddə axtarın. Əgər sizin ədavətinizdə mənim də günahım varsa, nə məni, nə mənim cənazəmi, nə də bir izimi tapacaqsınız. Qəlbim təmiz olubsa, siz işarə görəcəksiniz, həmin işarə sizin sonrakı həyatınıza kömək edəcəkdir.

İnsanlar evlərini tərk edib müxtəlif tərəflərə yola düşdülər, dörd ildən sonra geri qayıtdılar. Gördülər ki, kəndin girəcəyindəki qurumuş çaya su gəlib, sahildə dörd yaşı tamam olmuş küknar ağacı bitib. Küknar Salavinin adamlar üçün qoyduğu işarə idi, axı onun ürəyi təmiz, ruhu isə əzəmətli idi. O, ölüm ayağında çaya girmiş, sonra küknara çevrilib sahildə bitmişdi. O vaxtdan Porsuq tayfasında ədavətə son qoyuldu: adamlar başa düşdülər ki, bir-birinə dayaq olmasalar, yaşaya bilməyəcəklər.

Adamlar dünyanı beləcə gəzib-dolaşırlar. Bu uzun səfərlərdə bəzi tayfalar Tayovanın tapşırığını qulaqardına vurmuşdu, dörd səfəri axıra çatdırmamışdı, buna görə də əvvəlki güclərini, dəyanətlərini itirmişdi. Amma inadla irəli gedənlər, nəhayət, bu səfərlərin böyük əhəmiyyətini başa düşdülər: məqsəd insanları rəzil əməllərdən təmizləmək idi.

Adamlar başa düşdülər ki, insan nə istidən, nə şaxtadan, nə uca dağlardan, nə düzənlikdən qorxmalıdır, çünki ona bəxş olunmuş güc böyükdür, tükənməzdir.

Hopilərə baş çəkənlər heyrətə düşür: niyə bu xalq yaşamağa belə buz kimi soyuq, susuz yeri seçib? Çünki bura onları Tayovanın özü gətirib. Hopilər əmindirlər ki, yaşadıqları torpağa tam haqları çatır. Heç kəs bu torpağı onlardan ala bilməz.

**I dərs** | **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Birinci, İkinci və Üçüncü Dünyanın məhvinə səbəb nə oldu?
   b) Tayova insanlara nə məsləhət gördü?
   c) Cənuba gedən insanların başına hansı hadisələr gəldi?
   d) Dünyanı dolaşan insanlar axırda hansı həqiqəti başa düşdülər?
3. Əfsanənin məzmununa aid sizi düşündürən iki sual və onlara cavab hazırlayın.
4. Kiçik qruplarda birləşərək bütün sualların cavablarını dəqiqləşdirin, gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
5. Əfsanədən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**Evdə iş**

Əfsanədən seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında geniş nağıl etməyi öyrənin.

**II dərs** | **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Şifahi ədəbiyyatın digər nümunələrində olduğu kimi, bu əfsanədə də xalqın həyat, insan, vətən haqqındakı düşüncələri əksini tapıb. İnsanı bütün varlıqlardan fərqləndirən mühüm cəhətlər onun gücü, mərdliyi, ağlıdır. Əfsanədə vətənə bağlılıq, güc, mərdlik, dözümlülük, həyata xalq baxışını ifadə edən digər mətləblər də var. Əsərlə bağlı araşdırma apararkən bunları aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Əfsanədə oxuduğunuz "İnadla irəli gedənlər, nəhayət, bu səfərlərin mənasını başa düşdülər: məqsəd insanları rəzil əməllərdən təmizləmək idi" cümləsində, sizcə, nəyə işarə olunub? Fikrinizi əsaslandırın.
2. Cənuba gedən insanların əvvəlcə uğursuzluğa düçar olmasının əsl səbəbi, sizcə, nədir?
3. Yaşadığı torpağa sahib olması üçün xalqdan nə tələb olunur?
4. Əfsanənin mövzusunu və ondakı başlıca fikri necə izah edərsiniz?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

1. Sözlərin məcazi mənada işləndiyini bilirsiniz. Məsələn: yüngül çanta – yüngül xasiyyət, şirin meyvə – şirin söz.

Dilimizdə işlənən belə məcazi mənalı sözlərə – məcazlara aid nümunələr söyləyin, cümlədə işlədin və mənalarını müzakirə edin.

2. Bədii təsvir vasitələrinin – məcazın növlərindən biri *epitetdir*. Epitet yunanca "əlavə" deməkdir. Bədii əsərdə sözün mənasını qüvvətləndirmək, fikri qabarıq ifadə etmək üçün ona məcazi sözlər (əsasən, sifətlər) artırılır. Məsələn, Hüseyn Arifin aşağıdakı misrasında "şirin" sözü "arzu" sözünə əlavə olunaraq epitet yaratmışdır:

Dağların sinəsində
Şirin arzular yatar.

Bu nümunədə "şirin" sözü həqiqi yox, məcazi mənada işlənmiş, fikri bədii cəhətdən qüvvətləndirmişdir.

3. Oxuduğunuz əfsanədə fərqləndirilmiş hissələrdə işlənmiş epitetlərin fikrin təsir gücünü necə artırdığını müzakirə edin.

4. Mətndə məqsədəuyğun saydığınız bir neçə sözə epitet artırın, baş verən dəyişikliyi izah etməyə çalışın.

## Evdə iş

Mövzulardan birini seçib işləyin.

a) Əfsanənin sizdə yaratdığı təəssüratı əks etdirən şifahi təqdimat hazırlayın. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

b) "Güc", "mərdlik", "dəyanət" kəlmələrinə mənaca yaxın olan sözlər müəyyənləşdirin. Həmin sözləri əfsanədən seçdiyiniz cümlələrdə işlədin.

# YETİM İBRAHİMİN NAĞILI

*(ixtisarla)*

**Yada salın**

– Oxuduğunuz, dinlədiyiniz nağıllarda diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Nağıl qəhrəmanlarının çətin sınaqlardan üzüağ çıxmasına səbəb nə ola bilər?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

**••• 1 •••**

- Bu parçada nağıla məxsus hansı cəhətlər var?

Biri var idi, biri yox idi, yoxsul bir ovçu var idi. Ancaq bu ovçu başqa ovçulara bənzəmirdi. Ömrü boyu nə bir heyvan öldürmüşdü, nə bir quş yaralamışdı. Bəli, bu ovçunun qan tökməkdən xoşu gəlməzdi.

Onun min bir hava çalan gözəl tütəyi, bir də at tükündən toxunmuş möhkəm bir cələsi var idi. Gündə meşəyə gedər, cələni qurardı, özü də bir tərəfdə oturub tütəyi çalardı. Ovçu gözlərdi, elə ki quşların birisi cələyə girdi, ipi çəkərdi, quşu tutub evinə gətirərdi. Beləliklə, onun evi həmişə cürbəcür quşlarla dolu olardı. Həm onları yemlər, bəslər, oxudub qulaq asar, həm də hərdən bir-ikisini satıb çörəkpulunu çıxarardı. Ovçunun İbrahim adlı balaca bir oğlu var idi. Günlərin bir günündə, İbrahim boya-başa çatmamış atası xəstələnib öldü. Dul arvadla balaca İbrahim gündəlik çörəkpuluna da möhtac qaldılar.

- İbrahimin atası başqa ovçulardan nə ilə fərqlənirdi?
- İbrahim haqqında sizdə hansı təsəvvür yarandı?

İbrahim balaca olsa da, səbirli, dözümlü, iradəli uşaq idi. Nə qədər çətinlik çəkdilərsə də, İbrahim atasından yadigar qalmış tütəyi və cələni satmadı.



Ay keçdi, il dolandı, İbrahim böyüyüb cavan bir oğlan oldu. Çox yoxsul və atasız olduğundan ona yetim İbrahim deyirdilər.

Elə ki İbrahimin on beş yaşı tamam oldu, anasına dedi:

– Ana, mən daha uşaq deyiləm. Gətir atamdan qalan tütəyi, bir də cələni mənə ver, sabahdan ova gedəcəyəm.

Anası gətirib tütəyi də, cələni də ona verdi.

İbrahim tezdən durub meşəyə getdi. Axşam qaranlıq düşəndə əliboş, yorğun halda evlərinə qayıtdı.

Günlər keçdi, həftələr dolandı. İbrahim tütəyi çalmağı, cələni qurub pusquda durmağı öyrəndi. Birinci gün İbrahimin cələsinə çox gözəl bir quş düşdü. Quşun hər tükü bir rəngə çalırdı. İbrahim sevinə-sevinə quşu evə gətirib qəfəsə saldı. Gecəni yatdılar. Səhər durub gördülər ki, quş rəngbərəng bir yumurta yumurtlayıb. İbrahim yumurtanı götürüb şəhərə çıxdı.

- Bir ovçu kimi İbrahim atasına bənzəyirdimi?

Bu şəhərdə çox acgöz və hiyləgər bir tacir var idi. Yumurtanı İbrahimin əlində görcək çağırdı ki:

– Ay yetim! O yumurtanı neçəyə deyirsən? Sat, alım.

İbrahim tacirin necə pis adam olduğunu bilirdi. Odur ki qəsdən yumurtanı çox baha dedi. Tacir heç bir söz danışmayıb pulu verdi, yumurtanı aldı. Sabahısı yuxudan durub gördülər ki, quş bir yumurta da yumurtlayıb. İbrahim bu yumurtanı da aparıb tacirə satdı. Bundan sonra quş hər gün bir yumurta yumurtlayırdı. İbrahim də aparıb tacirə satırdı, dolanırdılar.

İbrahim çox ağıllı oğlan idi. O bilirdi ki, tacir bu yumurtadan xeyir götürməsə, belə baha qiymətə almaz. Buna görə də o, taciri güdməyə başladı. Gördü ki, hiyləgər tacir yumurtanı aparıb birə-on baha qiymətə padşaha satır. Bu gündən İbrahim yumurtaları daha tacirə satmayıb birbaşa padşahın yanına aparmağa başladı.

- Bu hərəkətinə görə İbrahimə haqq qazandırmaq olarmı?

Beləliklə, müftə gəlir tacirin əlindən çıxdı. O, İbrahimdən intiqam almaq üçün padşahın yanına gəlib dedi:

– Padşah sağ olsun, sən niyə hər gün bu qədər pul verib bu yumurtaları alırsan? Yetim İbrahimin evində gözəl bir quş var, bu yumurtaları verən həmin quşdur. Quşu İbrahimin əlindən al, quş da sənin olsun, yumurtaları da.

Söz padşahın ağlına batdı. İbrahimi çağırıb əmr elədi ki, evindəki quşu gətirib mənə verməlisən.

İbrahim o saat başa düşdü ki, bu hiylə tacirdən keçib. O heç bir söz deməyib evə getdi, quşu gətirib padşaha verdi. İbrahim yenə də gündəlik çörəkpuluna möhtac qaldı, tütəyini və cələsini götürüb meşələrə, dağlara getdi. O, gündə ya bir kəklik, ya bir bildirçin, ya bir bülbül tutar, gətirib satar, dolanardı.

İbrahim bütün şəhərdə şöhrət qazanmışdı. Tacir nə qədər çalışırdı ki, yenə də İbrahimi ələ alsın, mümkün olmurdu. İbrahimin tacirdən zəhləsi gedirdi.

Günlərin birində tacir özünü padşahın yanına salıb dedi:

– Padşah sağ olsun! Bu quş təkdir, ürəyi sıxılır. Sən İbrahimi göndər, bunun yoldaşını da gətirsin.

Padşah İbrahimi çağırıb ona qırx gün möhlət verib dedi:

– Qırx günə kimi bu quşun yoldaşını tutub gətirməsən, boynunu vurduracağam.

• Padşah haqqında sizdə hansı təsəvvür yarandı?

İbrahim evə döndü. Cələni və tütəyi götürüb meşəyə getdi. Axırı ki, min bir əzab-əziyyətlə quşun yoldaşını tutub gətirdi, padşaha verdi. Bu qədər zəhmətə, belə böyük xidmətə görə padşah ona nə bir mükafat verdi, nə də "sağ ol" dedi. İbrahim tacirin çox pis adam olduğunu əvvəldən bilirdi. İndi gördü ki, padşah ondan da pisdir.

Bir gün tacir özünü yenə padşahın yanına salıb dedi:

– Padşah sağ olsun, dünyagörmüş qoca kişilərdən soruşub öyrənmişəm ki, ağ divin bağında səməngül adlı bir gül var. Bu quşlar gərək ildə bir dəfə həmin gülü qoxlayalar. Əgər qoxlamasalar, ölərlər.

Padşah İbrahimi çağırdı ki, gərək gedib ağ divin bağından səməngülü gətirəsən. Yoxsa mənim quşlarım ölər.

• İbrahimin bu qərara gəlməsinə səbəb, sizcə, nədir?

İbrahim baxdı ki, bu padşah, doğrudan da, lap axmaqdır. Axmaqdan da hər şey gözləmək olar. Odur ki daha bir söz deməyib evlərinə gəldi. Çox fikirləşdi, düşündü, axırda bu qərara gəldi ki, gedib dünyagörmüş qocalarla məsləhətləşsin.

Bu şəhərdə qoca bir kişi var idi. İbrahim onun yanına gəlib başına gələni əvvəldən axıra kimi danışdı. Qoca çox diqqətlə qulaq asıb dedi:

– Oğlum, bunlar hamısı o tacirin işləridir. Sən yumurtaları ona satmadığın üçün əlindən böyük bir qazancı çıxıb. O, indi səndən bu heyfi almaq istəyir. Eşitdiyimə görə, belə bir gül var, oğlum, özü də sən tutduğun həmin quşlar ancaq o gül olan yerdə yaşayır. Deyirlər ki, elə ağ div də o gülü öz bağında saxlayır ki, həmin quşlar həmişə onun bağında olsunlar…

…Qoca bağın hansı tərəfdə olduğunu dedi, necə getmək lazım olduğunu öyrətdi. Üstəlik, bunu da dedi ki, sən gərək elə edəsən, div səni görməsin.

İbrahim qocanın bütün dediklərini yadında saxlayıb evlərinə gəldi. Hazırlıq görüb yola düşdü. Gecəni gündüzə qatdı, gündüzü gecəyə, az getdi, çox getdi, dərə, təpə, düz getdi, axırda gəlib ağ divin bağına çatdı. Bağın hasarı o qədər uca idi ki, aşmaq mümkün deyildi. İbrahim başladı qapını axtarmağa.

- Nağıllar üçün yeni nə müşahidə etdiniz?

O, bağın qapısını min əziyyətlə tapdı, ancaq bu qapını nəinki İbrahim, heç böyük pəhləvanlar da aça bilməzdi. Qapının yanında oturdu. Çox yorğun olduğundan yuxu onu tutdu. Xeyli yatdı. Birdən gurultu səsinə yuxudan ayıldı. Tez durub yanındakı kolun dalında gizləndi.

Div İbrahimi görmədi, qapını açıb içəri girdi. İbrahim də onun dalınca özünü bağa saldı, yaxındakı ağacın dalında gizləndi. O, bütün gecəni bağda qaldı. Səhər div yenə də çıxıb ova getdi. İbrahim bağı gəzməyə başladı. Gəzə-gəzə gəlib çıxdı divin evinə. Burada qırx otaq var idi. Hamısı bir-birindən gözəl. Amma otaqlarda heç kəs yox idi. Qırxıncı otaqda İbrahimin qulağına bir səs gəldi.

- Oxuduğunuz parça İbrahim haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi?

Bu səs zarıltıya bənzəyirdi. O, xalçanı qaldırıb bir pilləkən gördü, pilləkənlə aşağı düşdü, dar, yarımqaranlıq bir otağa çıxdı. Baxdı ki, burada bir qızı saçlarından asıblar.

•••2•••

Qız İbrahimi görən kimi dedi:

– Ey oğlan, kimsən, necə olub ki, divdən qorxmayıb buraya gəlibsən? Tez çıx get. Bu saat div gələr, səni parça-parça edər.

– Qorxma, div getdi. De görüm, sən kimsən?

– Adım Xurşuddur. Neçə ildir ki, bu div məni burada dustaq edib, – deyə qız cavab verdi.

İbrahim tez qızı xilas edib yerə qoydu. Qız bir qədər dincəlib özünə gələndən sonra soruşdu:

– De görüm, kimsən? Buraya necə gəlibsən, nə məqsədlə gəlibsən?

İbrahim başına gələnlərin hamısını qıza danışdı. Qız gülüb dedi:

– Yaxşı, axtardığın gülü tapdınmı?

– Mən indi gül haqqında fikirləşmirəm. Mən indi o barədə fikirləşirəm ki, nə təhər eləyim, səni bu divin zülmündən qurtarım.

– İbrahim, indi ki sən belə yaxşı adamsan, məni divin zülmündən qurtarmaq istəyirsən, onda eşit, bil. Bu bağda səməngülü əmələ gətirən mənəm. Məni buradan qurtara bilsən, səməngülü də divin əlindən alıb aparmış olacaqsan. Onda quşlar mənim dalımca gələcək.

– Ancaq mən bilmirəm ki, səni bu bağdan necə çıxarım.

– Divin tövləsində yaxşı atlar var. Div gələnə qədər biz onlardan ikisini minib qaçmalıyıq.

Onlar daha vaxt itirməyib tövləyə gəldilər. Divin atlarından ikisini yəhərlədilər. Xurşud qapını açdı, bağdan çıxıb yola düşdülər. Bunlar getməkdə olsunlar, sənə xəbər verim divdən.

Axşamüstü div ovdan qayıtdı. Baxdı ki, bağın qapısı açıqdır. Şübhələndi. Tez zirzəmiyə yüyürdü. Baxdı ki, qız yoxdur. Tövləyə girdi, gördü atlardan ikisi yoxdur. Bildi ki, bağa adam girib, qızı qaçırdıb. Tez atlardan birini minib onların dalınca düşdü. Ancaq İbrahimgil atların ən yaxşılarını seçib minmişdilər. Özləri də nəfəs dərməyib sürürdülər...

Az getdilər, çox getdilər, gəlib İbrahimgilin evlərinə çatdılar. İbrahimin anası oğlunun sağ-salamat gəlməsinə çox sevindi. Xurşudun da gözlərindən öpüb qızlığa götürdü. Sonra anası İbrahimə dedi:

– Bala, çox yaxşı eləmisən ki, Xurşudu divin əlindən qurtarıb gətirmisən. Bunu da bil ki, padşah taciri özünə vəzir eləyib. O da hər gün səni soruşur.

Onlar elə bu söhbətdə idilər ki, təzə vəzirin adamları gəldilər. Onların böyüyü dedi:

– Bu gün padşahın sənə verdiyi möhlət tamam olur. Səməngülü gətiribsən, ya yox?

İbrahim ölüm də olsa, yalan deməzdi. Elə istəyirdi ki, ağzını açıb desin ki, “xeyr, gətirməmişəm”, Xurşud dedi:

– Bəli, gətirib. Bir azdan sonra aparıb verəcək padşaha.

Adamlar çıxıb getdilər. İbrahim Xurşuda dedi:

– Mən səməngülü gətirməmişəm, sən niyə yalan dedin?

Xurşud dedi:

– Sən səməngülü gətiribsən.

Sonra bir nimçə götürüb çənəsinin altına tutdu. Burnuna bir çırtma vurdu. Burnundan nimçəyə bir damla qan düşdü. Qan damları hərləndi, fırlandı, şişdi, böyüdü, hərəsi bir dəstə səməngülə çevrildi. Xurşud dedi:

– Səməngül divin bağında bitmirdi. O mənim burnumun qanından əmələ gəlirdi. Ona görə də div məni orada dustaq saxlayırdı. Al, apar padşaha, yaxandan əl çəksin.

İbrahim gülün dəstəsini yaxşı bir xonçaya qoyub padşaha apardı. Padşah yaman sevindi. Vəzirin isə elə bil başına daş düşdü. Dedi:

– Padşah sağ olsun, biz İbrahimə demişdik ki, gülü kolu ilə gətirsin. O isə gedib bircə dəstə gətirib. Gərək bu dəstə solana qədər gedib kolun özünü gətirə.

Vəzirin sözü padşahın ağlına batdı. Dedi:

– İbrahim, vəzir doğru deyir. Gərək gedib ağ divin bağından səməngül kolunu çıxarıb gətirəsən.

İbrahim dedi:

– Padşah sağ olsun, ora ağ divin bağı deyil. Ora da bizim şəhər kimi bir şəhərdir. Elə adı da bizim şəhərin adı kimidir. Bizim bu şəhərdə nə qədər ölüb getmiş adamlar varsa, hamısı oradadır. Padşahları da sizin rəhmətlik atanızdır. Sizin adınızı eşitcək ağladı. Dedi: “Bəs niyə oğlum məni görməyə gəlmədi?” Sonra mən gülü

istəyəndə dedi: “Yox, kolu birdən versəm, onda oğlum arxayınlaşar, daha məni görməyə gəlməz. Özü gəlsin, kolu verim”. Vəzirin də atası orada idi. Onlar mənə təzə bir yol göstərdilər. Bu yol ilə üç saata oraya gedib-gəlmək olar.

Vəzir o saat başa düşdü ki, İbrahim onları aldadır. Amma padşah o qədər axmaq idi ki, o dəqiqə inandı. Başladı ağlamağa:

– Tez olun, məni geyindirin, gedirəm atamı görməyə.

Vəzir dedi:

– Padşah sağ olsun, bir dayanın, İbrahim bizi başa salsın görək, o hansı yoldur ki, üç saata gedib-gəlmək olur.

İbrahim onları götürüb şəhərin kənarındakı çayın yanına gətirdi. Bu çayın çox dərin bir yeri var idi. Oranı göstərib dedi:

– Yol bax burada – suyun dibindədir. Elə ki cumdun suya, gərək düz dibinə qədər gedəsən. Orada yüzü sayana qədər hərəkətsiz dayanmalısan. Elə ki yüz tamam oldu, bir qapı açılacaq. İçəriyə girib bir az gedəndən sonra həmin şəhərə çatacaqsınız.

Padşah çox düşünmədən vəzirin əlindən tutub suya atıldı.

Camaat çox gözlədi, nə vəzir çıxdı, nə padşah. Bir neçə gündən sonra onların ölüsünü tapdılar. İbrahim axmaq padşahın və hiyləgər vəzirin əlindən camaatın canını qurtardı...

**I dərs** **Məzmun üzrə iş**

1. Əsərin birinci parçasını oxusundan (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
2. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirin.
3. Çıxardığınız nəticələri təqdimat əsasında müzakirə edin.
4. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) İbrahim obrazında diqqətimi cəlb edən başlıca cəhətlər nə oldu?
   b) Nağılda daha maraqlı hesab etdiyim hadisə hansıdır?

**Evdə iş**

1. Nağılın ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs** **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçanı bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə mətnin məzmununa aid suallar və onlara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşərək sualları və cavabları müzakirə edin.

4. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
5. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında yığcam nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**Nümunə**

- **Yığcam nağıletmə.**
  Biri var idi, biri yox idi. Bir yoxsul ovçu var idi. Ovçunun İbrahim adlı balaca bir oğlu var idi. İbrahim boya-başa çatmamış günlərin bir günündə atası xəstələnib öldü. Elə ki İbrahimin on beş yaşı tamam oldu, atasından qalan tütəyi, bir də cələni anasından istədi ki, ova getsin.

**Evdə iş**

Nağıldan seçdiyiniz bir parçanı iki formada – yığcam və geniş nağıl etməyi öyrənin.

**III dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**
  *Əvvəlki siniflərdən* ***nağıllarla*** *tanışsınız. Şifahi xalq ədəbiyyatına aid olan nağıllarda xalqın arzusu, istəyi ifadə olunur. Nağılların çoxunda azad, firavan yaşamağı arzulayan xalq şər qüvvələrə, pisliklərə nifrət edir, özünə arxa, dayaq saydığı sevimli qəhrəmanını yaradır. Bu qəhrəman şər qüvvələrə, pisliklərə qarşı çıxır, mübarizə aparır. Müdrik qocalardan məsləhət, xalqdan güc, qüdrət alan bu qəhrəman zalımlara qalib gəlir, zülmə son qoyur.*
  *Nağıllardakı əhvalat və hadisələr şirin, aydın, axıcı bir dillə çatdırılır. Məsələn, "biri varmış, biri yoxmuş", "gecəni gündüzə qatdı, gündüzü gecəyə", "az getdi, çox getdi, dərə, təpə, düz getdi" və s.*
  *Nağıllar məzmunca müxtəlif olur, bəziləri heyvanlar haqqındadır. Bir qismində sehrli qüvvələr (sehrli xalça, sehrli üzük və s.) iştirak edir. Başqa bir qismində isə insanların gündəlik işindən, əməyindən, məişət qayğılarından danışılır.*
  Nağılın üzərində müşahidələrinizi davam etdirin, bu deyilənlərin orada necə əks olunduğunu, onu maraqlı edən cəhətləri aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Sizcə, İbrahimin xarakterindəki başlıca cəhətlər hansılardır? Niyə belə düşünürsünüz?

2. İbrahimin çətinliklərə, şər qüvvələrə üstün gəlməsinin səbəbi, sizcə, nədir?
3. Nağıldakı padşah, tacir (vəzir) surətlərinə necə münasibət bəsləyirsiniz? Onları birləşdirən cəhətlər varmı?
4. Nağılda ifadə olunmuş əsas fikir, sizcə, nədir?

## İfadəli oxuya hazırlaşın

Öyrəndiyiniz nağılda fərqləndirilmiş parçanı bir daha oxuyun. Burada İbrahimin böyük təhlükə ilə üzləşdiyi təsvir olunur. Onun başının üstünü ölüm təhlükəsi alır, bu sizi həyəcanlandırır. Parçanı oxuyarkən bu həyəcan səsinizdə elə aydın duyulmalıdır ki, sizi dinləyənlərə də təsir etsin.

Həmin parçanın ifadəli oxusuna hazırlaşın, hisslərinizi necə çatdıracağınızı özünüz üçün aydınlaşdırın. Şərti işarələrdən istifadə edin.

## Evdə iş

Mövzulardan birini seçib işləyin.

a) "İbrahim nəyin sayəsində şər qüvvələrə qalib gəldi?" mövzusunda yığcam inşa yazın.
b) "İbrahimə və ona qarşı duran şər qüvvələrə münasibətim" mövzusunda yığcam esse yazın.

# ÜÇ QARDAŞ
(özbək nağılı)

**Yada salın**

– Nağıllarda şər qüvvələri kimlər təmsil edir?

**Düşünün**

– Nağıl qəhrəmanlarını yenilməz edən cəhətlər hansılardır?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

Biri var idi, biri yox idi, bir kişi və onun üç oğlu var idi. İpək kimi xasiyyətləri olan qardaşlar çox mehriban dolanırdılar.

- Qardaşlar haqqında sizdə hansı təsəvvür yarandı?
- Atanın nəsihəti sizi düşündürdümü? Hansı nəticəyə gəldiniz?
- Qardaşların öz yurdlarını tərk etmələrinə səbəb, sizcə, nə idi?

Ata tez-tez oğlanlarına deyirdi:

– Övladlarım, bizim nə sürümüz, nə qızılımız, nə də başqa bir var-dövlətimiz var. Çalışın, hər şeyi dərindən öyrənib biləsiniz. Bu elə sizin üçün var-dövlət deməkdir. Belə olsa, heç bir çətinlik sizi qorxutmaz.

Ay keçdi, il dolandı, ata dünyasını dəyişdi. Qardaşlar yığılıb məsləhətləşdilər, axırda bu qərara gəldilər:

– Bizim burada bir işimiz yoxdur! Yaxşısı budur, gedib dünyanı gəzib dolanaq. Yad ellərdə çoban, nökər olarıq – acından ölmərik. Qardaşlar yol üçün çörək götürüb səfərə çıxdılar. Onlar bomboş dərələrdən, uca dağlardan aşıb gedirdilər. Bəzən dəli külək göz açmağa imkan vermir, sərt şaxta nəfəslərini kəsirdi. Götürdükləri çörəyin hamısını yedilər, yorulub lap əldən düşdülər. Daş kimi ağırlaşmış ayaqlarını zorla çəkirdilər. Ancaq yol hələ də uzanıb gedirdi, axırı görünmürdü... Qabaqlarına bir şəhər çıxdı.

- Bu təsvir qardaşlar haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi?



Qardaşlar sevindilər, addımlarını sürətləndirərək dedilər:

– Artıq pis günlər keçib-getdi, yaxşı günlər qabaqdadır.

Birdən qabaqda gedən böyük qardaş dayandı, yerə baxıb dedi:

– Bir az əvvəl buradan böyük bir dəvə keçib.

Onlar bir az yol getmişdilər ki, ortancıl qardaş dedi:

– Bu dəvənin bir gözü kormuş.

Az sonra kiçik qardaş dedi:

– Bu dəvənin üstündə qucağında körpə uşağı olan bir qadın varmış.

Qardaşlar yollarına davam etdilər. Belində qılınc olan bir nəfər atlı onların qabağına çıxdı. Bu adam qardaşların üçünə də diqqətlə baxdı. Böyük qardaş ona dedi:

– Ey yolçu, deyəsən, nə isə axtarırsan?

– Bəli.

– İtən dəvədirmi? – deyə böyük qardaş soruşdu.

– Dəvədir.

Ortancıl qardaş soruşdu:

– Dəvənin sol gözü kor idimi?

– Bəli.

– Dəvənin üstündə qucağında balaca uşaq olan qadın oturmuşdumu? – deyə kiçik qardaş soruşdu.

- Qardaşlarla belə rəftar etdiyinə görə atlıya haqq qazandırmaq olarmı?

Atlı qardaşlardan şübhələnərək dedi:

– Aha, demək, mənim dəvəm sizdədir! Deyin görüm, dəvəmi harada gizlətdiniz? Arvad-uşağımın başına nə iş gəlib?

– Biz sənin dəvənin üzünü də görməmişik, – deyə qardaşlar ona cavab verdilər.

– Əgər görməmisinizsə, bütün bu nişanələr sizə haradan məlumdur?

– Biz bunları ağlımıza vurub nəticə çıxarmışıq. Tez bu tərəfə get, axtarıb dəvəni taparsan, – deyə qardaşlar ona cavab verdilər.

Atlı soyuq səslə dedi:

– Xeyr, mən o tərəfə gedən deyiləm! Dəvənin yerini deyin!

- Sizcə, qardaşlar günahsız olduqlarını sübut edə biləcəklərmi?

Qardaşlar yenə də dedilər ki, onlar dəvənin üzünü görməyiblər. Ancaq atlı onlara qulaq asmaq da istəmədi. O, qılıncını çəkib qardaşlara əmr etdi ki, düşsünlər onun qabağına. O, qardaşları saraya, padşahın yanına gətirdi və əhvalatı ona danışdı.

Padşah atlıya diqqətlə qulaq asıb dedi:

– Əgər onlar özləri sənə dəvənin bütün əlamətlərini sayıblarsa, onda, yəqin, dəvəni gizlədiblər. Oğruları gətirin buraya!

• Padşah belə bir qənaətə gəlməyə bilərdimi?

Dəvə sahibi çıxıb üç qardaşı içəri gətirdi.

– Ey oğrular, – deyə padşah qəzəblə qışqırdı, – siz bu kişinin dəvəsinin başına nə iş gətirmisiniz?

– Biz bu kişinin dəvəsinin üzünü də görməmişik, – deyə qardaşlar cavab verdilər.

Padşah dedi:

– Siz özünüz dəvənin bütün əlamətlərini saymısınız. Siz necə cürət edib boynunuza almırsınız?

– Padşah sağ olsun! – deyə qardaşlar cavab verdilər, – burada heç bir təəccüblü şey yoxdur! Biz uşaqlıqdan hər şeyi dərindən öyrənməyə alışmışıq, fikirləşib çox şeyi ayırd edə bilirik, ağlımızı işlədib işin nə yerdə olduğunu başa düşürük. Buna görə də biz dəvənin üzünü görməyə-görməyə onun bütün əlamətlərini bildik.

Padşah güldü:

– Heç vaxt görmədiyiniz bir şeyi fikirləşməklə necə tapa bilərsiniz? Yaxşı, biz indicə sizi yoxlayarıq, görək düz deyirsiniz, ya yox!

Padşah vəzirini çağırıb qulağına nə isə dedi.

• Nökərlərin hərəkətini qardaşların diqqətlə izləmələrinə səbəb, sizcə, nədir?

Vəzir o saat saraydan çıxdı. Çox keçmədi ki, böyük bir sandıq gətirən iki nökərlə qayıdıb gəldi. Qardaşlar uzaqdan nökərlərin sandığı haradan gətirdiklərinə, necə gətirdiklərinə diqqətlə baxırdılar.

Padşah dedi:

– Hə, tapın görək bu sandığın içində nə var?

Böyük qardaş dedi:

– Bu sandığın içində balaca, girdə bir şey var.

– O, nardır, – deyə ortancıl qardaş əlavə etdi.

– Özü də hələ yaxşı yetişməyib, – deyə kiçik qardaş dilləndi.

Padşah əmr etdi:

– Sandığı buraya gətirin!

Sandığı gətirdilər. Padşah sandığı açıb içinə baxdı.



Sandıqda, doğrudan da, bir kal nar var idi. Padşah narı götürüb oradakılara göstərdi və üzünü dəvəsini itirən kişiyə tutub dedi:

- "Qardaşlar yalnız diqqətli olmalarının sayəsində uğur qazanırlar" fikrini doğru saymaq olarmı?

– Yox, bu adamlar oğru deyillər! Onlar, doğrudan da, yaxşı bilicidirlər. Get, öz dəvəni başqa yerdə axtar!

Padşah cürbəcür yeməli şeylər gətirdib qardaşları qonaq elədi və sonra dedi:

– Sizin heç bir təqsiriniz yoxdur, hara istəsəniz, gedə bilərsiniz. Ancaq əvvəlcə deyin görüm, bu adamın dəvəsini itirməsini nədən bildiniz?

Böyük qardaş dedi:

– Yolun üstündə böyük izdən bildim ki, qabağımızca bir dəvə keçib, bu adamın da dəvəni axtardığını ona görə başa düşdüm ki, gözü dörd idi, o tərəf-bu tərəfə baxırdı.

Padşah ortancıl qardaşdan soruşdu:

– Sən nədən bildin ki, dəvənin sol gözü kordur?

– Mən ona görə bu qərara gəldim ki, yolun sağ tərəfindəki ot yeyilmiş, sol tərəfindəki ota dəyilməmişdi.

Padşah soruşdu:

– Yaxşı, bu dəvənin üstündə, qucağında körpəsi olan qadının oturduğunu deyən hansınız idi?

Kiçik qardaş dedi:

– Onu mən demişəm. Mən gördüm ki, dəvə bir yerdə qumun üstünə çökmüş, dincəlmək üçün oturan adamın izi yerdə qalmışdı. Bu adamın oturuşuna görə mən bildim ki, bu, qadındır, oradakı kiçik izə görə də bildim ki, onun yanında uşaq varmış.

Padşah dedi:

– Bütün bunlar doğrudur! Bəs siz necə bildiniz ki, sandığın içində bircə dənə kal nar var?

– Sandığı iki nökər gətirirdi, – deyə böyük qardaş cavab verdi, – ancaq lap yüngül olduğu bilinirdi. Nökərlər sandığı yerə qoyanda mən eşitdim ki, sandığın bu başından o başına nə isə bir şey diyirləndi.

– Mən də fikirləşdim ki, bağdan gətirilən sandığın içində yumru bir şey varsa, bu ancaq nar ola bilər, – deyə ortancıl qardaş əlavə etdi.

– Doğrudur, – padşah dedi. Sonra üzünü kiçik qardaşa tutub soruşdu:

– Yaxşı, bəs sən haradan bildin ki, bu nar kaldır?

• Qardaşlar yalnız gördüklərinə, müşahidə etdiklərinəmi əsasən doğru qərar qəbul edirlər?

– İndi ilin elə bir fəslidir ki, nar hələ yetişməyib, yamyaşıldır.

Padşah bu üç qardaşın biliciliyinə və dərin ağlına heyran qalıb dedi:

– Sizin varınız-dövlətiniz yoxdursa da, ağıldan-kamaldan varlısınız!

Padşah qardaşlara şirin sözlər deməklə kifayətlənmədi, onlara qiymətli hədiyyələr də verdi.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşib, fikir mübadiləsi aparın, çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**II dərs** **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Nağılda maraqlı xalq hikməti ifadə olunub: *Ata nəsihəti faydasız olmaz...* Üç qardaşın həyatda uğur qazanmasının mühüm səbəbi ata nəsihətini dinləmələri, ona əməl etmələri olur. Onları var-dövlət yox, bilik və bacarıq maraqlandırır.

Gördüklərinə diqqət edən, heç nəyin yanından laqeyd keçməyən, daim öyrənməyə çalışan qardaşlar ağıllı, bilici, həssas gənclərə çevrilirlər. Nağılın üzərində müşahidələrinizi davam etdirin, qardaşların xarakteri üçün mühüm olanları aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Övladlarına verdiyi məsləhət ata haqqında hansı təsəvvür yaradır?
2. Qardaşların hərəkətlərində hansı cəhətlər xoşunuza gəldi?
3. Bu nağıla siz necə ad verərdiniz? Nə üçün?
4. Nağıldakı başlıca fikir, sizcə, nədən ibarətdir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

Bədii əsərdə çox vaxt əşya, hadisə müəyyən əlamətinə görə daha qüvvətli əşya və ya hadisəyə bənzədilir. Sənətkar bu yolla təsvir etdiyi əşyanın, hadisənin müəyyən bir cəhətini daha qabarıq şəkildə nəzərə çatdırır.

Nizami Gəncəvi "Oğlum Məhəmmədə nəsihət" şeirində oğlunu çəməndə açılan gülə, uca sərv ağacına bənzətmişdir:

Yeddi yaşın oldu o zaman ki sən,
Açıldın gül kimi, güləndə çəmən.
İndi ki çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.

Bu, *bənzətmə (təşbeh)* adlanır və bədii təsvir vasitəsi hesab olunur. Təşbeh ərəbcə "oxşatmaq", "bənzətmək" mənasındadır.

*Təşbeh bənzəyişi ya sadə şəkildə göstərir,* ya da *kimi, sanki, təki* və s. sözlərin iştirakı ilə qurulur. Məsələn, "körpəm baldır", "o, pəhləvana bənzəyirdi", "bal kimi şirin söz", "buz kimi soyuq su" və s.

Oxuduğunuz nağılın fərqləndirilmiş hissələrindəki məcazların fikrin təsir gücünü necə artırdığını müzakirə edin.

## Evdə iş

Mövzulardan birini seçib işləyin.

a) "Nağılda təsvir olunan hadisə məndə hansı düşüncələr yaratdı?" mövzusunda yığcam esse yazın.
b) Nağıldakı başlıca fikirlə səsləşən bir neçə atalar sözü seçin. Fikrinizi əsaslandırın.

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün suallara cavab hazırlayın.**

1. Bölmədə ən çox xoşladığınız əsər hansı oldu? Səbəbini aydınlaşdırın.
2. Şifahi danışıqda xalq ədəbiyyatının hansı nümunələrini daha tez-tez eşidirsiniz?
3. Şifahi xalq ədəbiyyatının hansı nümunələrini yarada bilərsiniz?
4. Əfsanələrdə gerçək hadisələrə yer verilməsinə səbəb nədir?

Qiymətləndirmə materialı

# PƏRİ BULAĞI

*(əfsanə)*

Qarabağ elatında maldarlıqla məşğul olan, köçəri həyat keçirən bir kişi və onun Pəri adlı gözəl-göyçək bir qızı varmış. Bu qızın gözəlliyinə, ağlına hamı heyran imiş. Ata-anası onunla fəxr edər, ondan heç nəyi əsirgəməzmiş.

Ağır gün ağır xəstəlik gətirir. Çox cavanların arzusu gözündə qalır, vaxtsız-vədəsiz həyata göz yumur. Pəridən də bu bəla yan keçmir. O, günü-gündən özünü pis hiss edir, ağır xəstəliyə tutulur. Dərd içində olan ata-anası Pərini çox təbibə, çox loğmana göstərir, lakin heç kim gənc qızın dərdinə əlac tapa bilmir. Qız günü-gündən saralıb-solur.

Bir müddət sonra havalar düzəlir, elat yaylağa köçməyə başlayır. Pərinin atası da xəstə qızının arabasını köçdən ayırmır. Onlar yaylağa gəlir, alaçıq qurub yaşamağa başlayırlar. Lakin buranın təbiəti nə qədər gözəl olsa da, yaylaqda da Pərinin vəziyyəti dəyişmir. O özünü əvvəlki kimi zəif hiss edir, sağalmağa ümidi azalır.

Dumanlı-çiskinli günlərin birində Pəri elatdan aralanır. Xeyli müddət yol gedir. Gözəl mənzərəli yerlərdən keçir, yorulur. Yorğunluğu çıxandan sonra yenidən yoluna davam edir. Çox gəzib dolandıqdan sonra Pəri gözəl bir yerə gəlib çıxır. Burada hər şey ona xoş gəlir, turaclar, kəkliklər ondan qaçmır. Pəri hiss edir ki, aclıq onu əldən salır. Məcbur olub yabanı bitkilərdən yeməyə başlayır. Baldırğan, şehlik otu, quzuqulağı və yemlik yedikcə iştahı artır. Hətta su da içmək istəyir. Nə qədər boylanırsa, su tapmır. Bir az aşağı endikdə göz yaşı kimi dumduru, buztək soyuq suyu olan bir bulağın axdığını görür. Ətrafında bitmiş gözəl çiçəklər, baldırğanlar, qantəpərlər, şehlik otları, yemliklər bu bulağa gözəllik verirdi. O, bülbülün nəğməsinə heyranlıqla qulaq asır.

Pəri bulağa yaxınlaşıb şəffaf sudan doyunca içir. Birdən-birə özündə yüngüllük hiss edir. O, bir müddət həmin sudan içir və ətrafındakı bitkilərdən yeyir. Artıq Pəri tam sağalır. Əvvəlki xəstəlikdən əsər-əlamət qalmır. Bir gün Pəri bulağın yanındakı çəmənlikdə yuxuya gedir. Bu zaman nurani bir qocanın yolu burdan düşür. O, uzaqdan bulağın başında bir qaraltı görür. Əvvəl

gözlərinə inanmır. Yaxınlaşanda görür ki, bir qız bulağın üstə yatıb. Qoca qızı yuxudan oyadır və nə üçün burada tək-tənha yatdığını soruşur. Pəri başına gələni nurani qocaya danışır.

Qoca:

– Qızım, xəstəlik, ölüm-itim çoxalıb. Qəm-kədər meydanda at oynadır. Yuxuda görmüşəm ki, bu torpağın gülü-çiçəyi, dərman otları, sərin bulağının suyu xəstələrə həyat verir. Xeyli vaxtdır ki, çöllərə, meşələrə düşüb həmin yeri axtarıram. Səni həyata qaytaranları, sənə şəfa verənləri mənə göstər.

Bu sözləri eşidən Pəri yediyi dərman bitkilərinin adını söyləyir, içdiyi suyu ona göstərir. Bundan çox sevinən qoca Pəridən soruşur:

– Qızım, de görüm, kimlərdənsən?

Pəri ata-anasının adını qocaya söyləyir. Qoca deyir:

– Qızım, mən səni düz evinizə apararam.

Onlar Pərinin yaşadığı yerə üz tuturlar... Pərini axtaran ata-anası uzaqdan iki qaraltının onlara tərəf gəldiyini görür. Gələnlər yaxınlaşanda onlar gözlərinə inanmırlar. Gələn Pəri idi. Qucaqlaşıb öpüşürlər. Sevinclərindən yerə-göyə sığmayan valideynlər nurani qocaya dönə-dönə minnətdarlıq bildirirlər. Qızları ilə birlikdə sevinc içində obalarına qayıdırlar.

Pərinin sağalıb gəldiyini eşidən elat camaatı onlara gözaydınlığı verir. Bulaq suyunun və şəfalı otların ağır xəstəlikləri sağaltması xəbəri tezliklə bütün el-obaya yayılır. Hər tərəfdən ağır xəstəliyə tutulmuş insanlar Pərinin yanına gəlib həmin yerin harada olduğunu öyrənirlər.

Bulağın suyunu içən, şəfalı otlardan yeyən xəstələr tezliklə sağalır. El-oba qəmdən, kədərdən qurtulur. Elə o vaxtdan qədirbilən insanlar həmin bulağı "Pəri bulağı" adlandırırlar.

# YURD SEVGİSİ, ANA MƏHƏBBƏTİ

2

Vətən və ana! Onların adı həmişə qoşa çəkilir. Hər ikisi sənət aləminin baş mövzularındandır. Barələrində mahnılar qoşulur, filmlər çəkilir. Rəssamlıq əsərlərində, teatr sənətində, bədii ədəbiyyatda parlaq obrazları yaradılır.

*Bu bölmədə həmin mövzuda yazılmış bir neçə bədii əsərlə tanış olacaqsınız. Onları birləşdirən cəhətləri, aralarındakı fərqi aydınlaşdırmağa çalışın.*





**ƏHMƏD CAVAD**
**(1892 – 1937)**

· Yüksək mədəniyyətli ziyalı olan Əhməd Cavad xalqımızın azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır. Doğma yurdumuzun səadəti və xoşbəxtliyi onu həmişə düşündürmüş, bu mövzuda bir-birindən gözəl əsərlər yaratmışdır.

*Bəkir Nəbiyev*

**Yada salın**

– Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə, başlıca olaraq, hansı məsələlərdən danışılır?

**Düşünün**

– Doğma yurda həsr olunmuş əsərlər üçün oxşar olan cəhətlər nə ola bilər?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## AZƏRBAYCAN! AZƏRBAYCAN!
*(ixtisarla)*

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!

Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların,
Geniş-geniş oymaqların,
Azərbaycan! Azərbaycan!

Ormanında maral gəzər,
Çöllərində ceyran süzər,

Göllərində qazlar üzər,
Azərbaycan! Azərbaycan!

Qayaların əlvan mərmər,
Belində var qızıl kəmər,
Bir yanında bəhri-Xəzər
Azərbaycan! Azərbaycan!

Sinən odu şölə salır,
Dünya səndən işıq alır,
Verməyəndə zülmət qalır,
Azərbaycan! Azərbaycan!

İpək, pambıq, yunun çoxdur,
Arpa, buğda, düyün çoxdur,
Hər şeyin var, nəyin yoxdur?!
Azərbaycan! Azərbaycan!

Yer üzündə yoxdur tayın,
Gur-gur axar neçə çayın,
Bol veribdir fələk payın,
Azərbaycan! Azərbaycan!

Laçının var, tərlanın var,
Çoxlu şirin dastanın var,
Qorxun yoxdur, düşmanın var,
Azərbaycan! Azərbaycan!



*Böyükağa Mirzəzadə*. "Lənkəran mənzərəsi" (fraqment)

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Dörd qrupa bölünün, hər qrup iki bənd üzərində işləməklə, fikirlərinizi ikihissəli gündəlikdə yazın. Bunun üçün aşağıdakı cədvəldən istifadə edin.

| Əsərdə diqqətimizi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) "Şeirdə vətənimiz haqqında yeni nə öyrəndim?" Öyrəndiyiniz yeni sözlərdən istifadə edin.
   b) "Şeirdə ən çox xoşladığım bəndlər hansılardır?" Seçiminizi əsaslandırın.

**Evdə iş**

Əsərdə işlənmiş bədii təsvir vasitələrinin növünü dəqiqləşdirin.

**II dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Bu şeir ədəbiyyatımızda "Azərbaycan" adlı onlarca əsərin yazılmasına səbəb olmuşdur. Onun maraqlı məzmunu, ölməz ideyası şairləri həmişə cəlb etmiş, bu mövzuda əsər yazmağa ruhlandırmışdır.

"Azərbaycan! Azərbaycan!" şeirini oxuduqca oradakı ahəngi, axıcılığı duydunuz. Şair bu ahəngi yaratmaq üçün bir-biri ilə səsləşən (tələffüz edərkən bir-birinə oxşayan) sözlərdən istifadə etmişdir. Bu sözlər *qafiyə* adlanır. Şeirin ikinci bəndində işlənmiş *bulaqların, yaylaqların, oymaqların* həmqafiyə sözlərdir.

Ahəng yaradan vasitələr çoxdur. Bunlardan biri *misradır.* Şeirdə hər sətir misra adlanır. Misraların birləşməsindən şeirin bitkin parçası – *bənd* yaranır. Misralar məzmunca bir-biri ilə əlaqəli olduğu kimi, bəndlər də məzmunca bağlı olur.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Şeirin, demək olar, bütün bəndlərində Azərbaycan təbiətinin gözəllikləri xatırladılır. Bunun səbəbini necə izah edərsiniz?
2. Ölkəmizin zəngin təbii sərvəti, nemətləri şeirdə bircə-bircə sadalanır. Şair bunu nə məqsədlə edir, onun niyyəti nədir?
3. "Qorxun yoxdur, düşmanın var" misrasına diqqət yetirin. Şairi haqlı saymaq olarmı?
4. Bədii təsvir vasitələrinin əsərə gətirdiyi gözəlliyi aydınlaşdırın.
5. Əsərdəki başlıca fikir – ideya nədir?

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

1. Digər fənlərdən, eləcə də müxtəlif mənbələrdən topladığınız məlumat əsasında ölkəmizin nadir təbii sərvətlərinin adını və yerləşdikləri bölgələri müəyyənləşdirin.
2. Azərbaycana həsr olunmuş məşhur mahnılardan birinin bəstəçisinin və ən yaxşı ifaçısının adını müəyyənləşdirin. Həmin nümunəni seçməyinizin səbəbini aydınlaşdırın.

**Evdə iş**

"Vətən insan üçün niyə əzizdir?" mövzusunda yığcam esse yazın.

**III dərs** **Əsərin ifadəli oxusu**

1. Aşağıdakı mətni oxuyun və müzakirə edin.

   Əsər məzmunundan asılı olaraq, bəzən uca, yaxud aşağı səslə, sürətlə və ya aramla oxunur. Eləcə də səs fərqli çalar – sevinc, fərəh, yaxud kədər, qəzəb və s. qazanır. Oxuda fasilələr edilir; şeirdə misra daxilində, misraların sonunda fasilələrin edilməsi vacibdir. Mənanın

açılmasında əhəmiyyətli olan sözlər səslə (fərqli tələffüz edilməklə) diqqətə çatdırılır.

Bütün bunlar əsərdəki fikrin və ovqatın dinləyicilərə çatdırılmasında mühüm rol oynayır.

İfadəli oxuya hazırlaşarkən mətnin üzərində şərti işarələrin qoyulması ifaçının işini xeyli asanlaşdırır.

Aşağıdakı nümunə bu deyilənlər barədə aydın təsəvvür qazanmağınıza kömək edəcəkdir.

Durna gözlü | bulaqların, | Aramla
Cənnət kimi | yaylaqların, | Hərarətlə
Geniş-geniş | oymaqların, | Fərəhlə
Azərbaycan! | Azərbaycan! | Təntənəli

2. Şeirin ilk üç bəndini iş vərəqinə köçürün, şərti işarələrdən istifadə etməklə ifadəli oxuya hazırlaşın.
3. İfaları dinləyib müzakirə edin. Öz ifanızı bədii oxu ustasının ifası ilə müqayisə edin.

## Evdə iş

Şeirin bütövlükdə ifadəli oxusuna hazırlaşın.



**ƏLİ TUDƏ**
**(1924 – 1996)**

· Əli Tudə bir insan kimi, bir şair kimi pak və təmiz yaşamış, gözəl hisslərlə, gözəl duyğularla ömür sürmüşdür. Həqiqi şair, həqiqi istedad sahibi olduğundan əsərləri sevilir və oxunur. İki sözündən biri "Vətən" olan şairin mövzu dairəsi çox genişdir.

*Qəzənfər Kazımov*

**Yada salın**

– Cənubi Azərbaycana həsr olunmuş hansı əsərlərlə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Cənubi Azərbaycana həsr olunmuş əsərlərdə, sizcə, hansı məsələlərə önəm verilir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## YAŞAYANLAR GÖRƏCƏKDİR

Qarabağın yaylağını
Meşə örtmüş duman kimi.
Mən gəzirəm qucağını
Bir vəfalı mehman kimi.

Parçalanmış ana torpaq
Bu Qarabağ, o Qaradağ.
Lal sərhəddə Araz ancaq
Haray çəkir insan kimi.

Vətən qızı gözüyaşlı,
Dağlar uca, yollar daşlı.

Yenə dərdim həddən aşdı,
Dalğalandı ümman kimi.

Bir yaranmış Azərbaycan!
Ayırsa da onu zaman,
Görəcəkdir hər yaşayan
Bu ölkəni bir can kimi!

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Qarabağın xatırlandığı benddəki fikri necə izah edərsiniz?
   b) "Lal sərhəddə Araz ancaq Haray çəkir insan kimi" misralarındakı fikri necə aydınlaşdırarsınız?
   c) "Parçalanmış ana torpaq" misrası sizə tariximizdəki hansı faciəli hadisələri xatırlatdı?
   d) "Vətən qızı gözü yaşlı" misrası ilə başlanan benddəki fikri necə başa düşürsünüz?
   e) "Görəcəkdir hər yaşayan Bu ölkəni bir can kimi" misralarının mənasını necə anlayırsınız?
   f) Şeirin son iki bəndinin məzmunu arasında fərq vardırmı?
3. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirib, ümumiləşdirmə aparın.
4. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Evdə iş**

Mövzulardan birini seçib işləyin.
   a) Şeirin hər bir bəndində ifadə olunmuş fikri ardıcıl olaraq qısaca yazın. Bu fikirləri əlaqələndirib şifahi təqdimata hazırlaşın.
   b) "Şeir məndə hansı təəssürat yaratdı?" mövzusunda şifahi təqdimata hazırlaşın.

**II dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Şair parçalanmış Vətənin taleyindən kədərlə, nisgillə söz açır, "Yenə dərdim həddən aşdı, Dalğalandı ümman kimi" deyir. Vətən həsrəti, ayrılıq odu şairi kədərləndirir. Lakin əsərdə xalqımızın xoşbəxt gələcəyinə, Vətənimizin bütövlüyünə dərin inam vardır. Şair inanır ki, həmvətənlərimiz o xoşbəxt günü – Vətənimizin bütövlüyünü görəcəklər.

Öyrəndiyiniz şeir *heca* vəznindədir. Bu bizim doğma şeir ölçümüzdür. Bu vəzndə yazılmış şeirin bütün misralarında hecaların sayı bərabər olur. Nümunədən göründüyü kimi, heca vəznində yazılmış bu şeirin bütün misraları 8 hecalı, bölümlər isə 4 hecalıdır.

Bir yaranmış (4) Azərbaycan! (4)
Ayırsa da (4) onu zaman, (4)
Görəcəkdir (4) hər yaşayan (4)
Bu ölkəni (4) bir can kimi! (4)

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Şair öz Vətənini necə görmək istəyir? Fikrinizi əsaslandırın.
2. Sizcə, şeirdə hansı ovqat daha güclüdür: kədər, yoxsa Vətənin bütövlüyünə inam? Fikrinizi əsaslandırın.
3. Bu əsər ikiyə bölünmüş Vətən haqqında biliklərinizə nə əlavə etdi?
4. Əsərin bədii təsir gücünün artmasında təsvir vasitələrinin rolunu aydınlaşdırın.
5. Əsərdəki başlıca fikir – ideya nədir?

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

Əsərin sizdə doğurduğu düşüncələri ifadə edən yığcam inşa yazın. İnşada əsərdəki ayrılıq həsrətini, kədər, təəssüf və inam hissini əks etdirən söz və ifadələrdən istifadə edin.

**Evdə iş**

Vətənimizə həsr olunmuş bir şeir seçin, məzmunu ilə tanış olun. "Yaşayanlar görəcəkdir" şeiri ilə oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa çalışın.

**III dərs** **Əsərin ifadəli oxusu**

1. Aşağıdakı mətni oxuyun və müzakirə edin.

Şeiri oxuyarkən dinləyicilərə nələri çatdıracağınızı özünüz üçün aydınlaşdırın. Bu sizin əsas vəzifəniz olacaqdır. Sonra mühüm (məntiqi vurğulu) sözləri, tonun yüksəlib-alçaldığı məqamları, səsinizin aldığı çalarları, fasilələrin yerini (misra daxilində və misra sonunda) müəyyənləşdirib, mətnin üzərində – iş vərəqində, yaxud dəftərinizdə şərti işarələrlə göstərin.

2. İfaları dinləyib müzakirə edin.

**Evdə iş**

Şeiri ifadəli oxunun tələblərinə uyğun olaraq ifa etməyi öyrənin.



**HÜSEYN ARİF**
**(1924 – 1996)**

· Şeir bir anlığa gəlir, onu dərhal yazmasan, uçub gedir. Hüseyn Arifin ömrü bütövlükdə şeiriyyət idi, yazmadığı gün olmurdu. O, sözün həqiqi mənasında şair idi.

*Vidadi Babanlı*

**Yada salın**

– Ana mövzusunda oxuduğunuz hansı əsərləri xatırlayırsınız?

**Düşünün**

– Anaya həsr olunmuş əsərlərdə, sizcə, hansı məsələlərə daha çox önəm verilməlidir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## ANALAR

Elə ki balalar gəlir dünyaya,
O gündən hey ölçüb-biçir analar.
Mahnı da oxuyur, şeir də deyir
Bəstəkar analar, şair analar.

Dözür hər əzaba o bilə-bilə,
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə
Şərbət əvəzinə içir analar.

Unudub illərin yorğunluğunu,
Həyatda dincliyi, evdə yuxunu,
Sevincin azını, qəmin çoxunu,
Yükün ağırını seçir analar.

Alnında zamanın açdığı qırış,
Başına qar tökür, qar ələyir qış.
Odun istisindən aralanmamış,
Suyun soyuğundan keçir analar.

Özüm də bilmirəm, Hüseyn, niyə,
Başımın tüstüsü çəkilir göyə?
Torpaqmı anasız qalmasın deyə
Torpağın qoynuna köçür analar?

...

**I dərs** **Məzmun üzrə iş**

1. Aşağıdakı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
   a) "O gündən hey ölçüb-biçir analar" misrasında anaya xas olan hansı xüsusiyyətdən söz açılır?
   b) "Vaxt olur, qaldırıb ağını belə Şərbət əvəzinə içir analar" misralarında ifadə olunmuş fikri necə başa düşürsünüz?
   c) "Alnında zamanın açdığı qırış, Başına qar tökür, qar ələyir qış" misralarında hansı fikir ifadə olunmuşdur?
   d) Ana zəhmətinin ağırlığı, sizcə, hansı misralarda daha qabarıq əks olunub?
2. Şeir haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.

| Şeirdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək hazırladığınız bütün cavabları müzakirə edin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Evdə iş**

Mövzulardan birini seçib işləyin.
   a) Ana haqqında mahnılardan birini dinləyib təəssüratınızı qısaca yazın, sinifdə müzakirəyə hazırlaşın.
   b) Şeirin iki bəndini nəsrə çevirib məzmununu geniş nağıl etməyə hazırlaşın. Həmin bəndləri seçməyinizin səbəbini izah edin.



*Tahir Salahov.* "Abşeron qadınları"

**II dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Şeirdə ananın parlaq, unudulmaz obrazı yaradılmışdır. Çəkdiyi əziyyəti, dərdi dilə gətirməyən, hər cür zəhmətə dözən, saçları vaxtsız ağaran ana obrazı oxucunun gözləri önündən çəkilmir. Anaya böyük hörmət və ehtiram bəsləyən şair oxucunu öz hisslərinə şərik edə bilir. Şair buna necə nail olmuşdur? O hansı bədii vasitələrdən istifadə etmişdir? Şeirin üzərində müşahidələrinizi davam etdirin, suallara nümunələr əsasında cavab verməyə çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Şeir xoşunuza gəldimi? Fikrinizi əsaslandırın.
2. Şair ananın yaddaqalan obrazını yaratmağa necə nail olmuşdur? Fikrinizi nümunələrlə əsaslandırın.
3. "Başımın tüstüsü çəkilir göyə" misrasında ifadə olunmuş kədər, sizcə, nə ilə əlaqədardır?
4. Şeirdəki başlıca fikri izah edin.

## Tətbiq. Müzakirə. Yaradıcı iş

Mövzulardan birini seçib işləyin.

a) "Şeir ana haqqındakı hiss və düşüncələrimə nə əlavə etdi?" mövzusunda inşa yazın.
b) "Şeirdə təsvir edilmiş ana obrazını necə təsəvvür edirəm?" mövzusunda esse yazın.

## Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.

a) Şairin fərqli hisslərini daha qabarıq ifadə edən söz və ifadələr hansılardır?
b) Şeir məndə hansı təəssürat yaratdı?

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün suallara cavab hazırlayın.**

1. Bölmədə ən çox xoşladığınız əsər hansı oldu?
2. Öyrəndiyiniz əsərlər vətən və ana haqqındakı düşüncələrinizdə dəyişiklik yaratdımı?
3. Vətən, eləcə də ana haqqında yazılmış əsərlərin oxşar və fərqli cəhətləri barədə nə deyə bilərsiniz?
4. Oxuduğunuz əsərlərdən bədii təsir vasitələrinə (epitet, təşbeh) nümunələr göstərin. Əsərin bədii təsir gücünün artmasında onların rolunu necə izah edərsiniz?

Qiymətləndirmə materialı

Mikayıl Rzaquluzadə

ANA ÜRƏYİ, DAĞ ÇİÇƏYİ
*(ixtisarla)*

El dədə-baba adətincə bayram edirdi.

Yurdun hər bucağından ox atan, at oynadan igid cavanlar, adlı-sanlı pəhləvanlar, saz çalıb söz qoşan məşhur ozanlar axışıb gəlmişdilər. Allı-güllü geyinib bəzənmiş badamgözlü, şəkərsözlü qızlar və gəlinlər də yığışıb gəlmiş, çəmənlikdə gözəl bir məclis düzəltmişdilər. Ortada gömgöy otlarla atlaz kimi döşənmiş geniş bir meydan vardı.

Şeypurlar, nağaralar çalındı. Pəhləvanlar güləşdilər. Atlılar çapdı, keçdi, ozanlar deyişdilər... Bayramın sonu, ən maraqlı əyləncənin vaxtı yetişdi.

Xanın qaranlıq tövlədə doqquz ay bəslənmiş harın buğasını meydana çıxartdılar. Buğa bir buğa idi ki, buynuzunu daşa vursa, toza dönər, dırnağını qayaya vursa, od qopardı. Üç pəhləvan sağdan, üçü soldan buğanın buynuzundakı zənciri möhkəm tutmuşdular. Həmin buğa birdən nərildəyə-nərildəyə başını silkələdi, zəncirini qırıb meydana cumdu. Hamı dəhşətlə çığırdı və yerində donub-qaldı. Gözü qızmış buğa meydanın qızlar, gəlinlər yerləşən hissəsində ala-bəzək rəngləri görüb düz ora cumurdu.

Hamı, hətta silahlı keşikçilər də çaşıb özlərini itirmişdilər. Birdən on beş-on altı yaşlarında bir oğlan pələng çevikliyi ilə meydana atılıb düz buğanın üstünə cumdu, çatan kimi buynuzlarından yapışdı. Buğa fınxırıb dik ayağa qalxdı. Oğlanın ayaqları yerdən üzüldü və buğanın başı üstündən geri hoppandı. Buğa bir anda hərlənib ona sarı cumdu. Oğlan da onun hücumuna hazır idi.

Buğa yetişən kimi oğlan yenə onun buynuzlarından yapışdı. Buğa nərildəyib başını silkələyəndə oğlanın ayaqları yenə yerdən üzüldü və buğa boynunun qüvvəti ilə onu kənara atdı. Oğlan yenə yıxılmadı. Buğa güc gələndə oğlanın ayaqları topuğuna qədər torpağa batdı. Ancaq o, yerindən tərpənmədi. Oğlan gördü ki, təkcə güclə buğanı yıxa bilməyəcəkdir. Burada tədbir də lazımdır. Öz-özünə dedi: “Damı dirək saxlar, mən niyə buna dirək olum?”

Oğlan birdən yumruğunu buğanın alnından çəkib özü yana sıçradı. Buğa öz gücü ilə ağzı üstə yerə sərildi. Oğlan bir anda onun

başından basdı və xəncərini çəkib boğazını kəsdi. Hər yandan alqış səsləri ucaldı. Meydana allı-güllü ipək yaylıqlar yağdırıldı.

Xanlar xanının buyruğu ilə hamı öz yerinə çəkildi. Oğlanı xanlar xanının hüzuruna çağırdılar. O, baş əyib durdu.

Xanlar xanı bu gözəl və igid oğlanı heyran-heyran süzdükdən sonra soruşdu:

– Sən kimsən, oğlan? Adın nədir?

Oğlan tamam bərkiməmiş cingiltili bir səslə cavab verdi:

– Mənə Dirsə xan oğlu deyərlər, xan sağ olsun, hələ adım yoxdur.

– Sən bu gün hünər göstərdin, ad almağa haqq qazandın, sağ ol, oğlan, var ol...

Belə deyib yanındakılara buyruq verdi:

– Dədə Qorqud gəlsin, bu oğlana ad qoysun!

Ozanlar ozanı Dədə Qorqud gəldi, sədəfli qopuzunu köksünə basıb, igidə belə ad qoydu:

El bəyəndi səni, oğlan, bəy olasan,
Mən demirəm, bu hünərlə tək olasan...
Qızlar qoydu çiçəklərdən başına tac,
Buğa yıxdın, mən adını qoydum – Buğac.

# 3

# MƏNƏVİ DƏYƏRLƏR, HƏMİŞƏYAŞAR HİKMƏTLƏR

Zaman ötür, nəsillər dəyişir. Hər yeni nəsil özündən əvvəlki nəsillərdən miras qalmış mənəvi dəyərləri mənimsəyir və yaşadır. Keçmiş nəsillərin əxlaq, tərbiyə, insan haqqındakı düşüncələri, çıxardıqları hikmətli nəticələr, üstün saydıqları adət-ənənələr bədii əsərlərdə öz əksini tapır.

*Bu bölmədə belə əsərlərdən bir neçəsini öyrənəcəksiniz.*

*Həmin əsərlərdə nələri daha qiymətli saydığınızı və bunun səbəbini aydınlaşdırmağa çalışın.*





ƏNVƏR ƏLİBƏYLİ
(1916 – 1968)

· O, mərd, alicənab, mədəniyyətli insan, gözəl sənətkar idi. Təmiz duyğularla yaşayan Ənvər Əlibəyli təmiz niyyəti, saf qəlbilə insanların böyük rəğbətini qazanmışdı.

*İlyas Əfəndiyev*

**Yada salın**

– Oxuduğunuz hansı təmsilləri xatırlayırsınız?

**Düşünün**

– Təmsillərdə oxucuların diqqəti daha çox nəyə cəlb olunur?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## İLAN və QURBAĞA
*(təmsil)*

Günlərin bir günündə
Bir zalım İlan
Bir Qurbağa tutmuşdu
Göl qırağından.
Qışqırırdı Qurbağa,
Hey dad edirdi.
Dağa-daşa səs salıb,
Fəryad edirdi:
– Zalım İlan canımı
Alacaq indi!
Balalarım, ah, yetim
Qalacaq indi!

Haray, haray, ay haray!
Onun əlindən!
Gözləyin özünüzü
Pis əməlindən.
Gülümsəyərək İlan
Dedi: – Ay axmaq,
Çığırmaqla əlimdən
Olmaz qurtarmaq!
Onsuz da yeyəcəyəm
Səni, ay yazıq,
Nə üçündür bu qədər
Haray, qışqırıq?
Qurbağa da İlana
Dedi: – Ay cəllad,
Xilas olmaq üçün mən
Etmirəm fəryad,
Qoy məhv olsun
Qəlbimin arzusu, kamı.
İstəyim budur: səni
Tanısın hamı.
Bilsinlər ki, alçaqsan,
Zalımsan yaman.
Heç zaman əl çəkmirsən
İlanlığından.
Əlində başqaları
Getməsin bada.
Heç kəs yaxın düşməsin
Sənə dünyada!

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, rollar üzrə oxu və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Ölümlə üzbəüz qalan Qurbağa fəryad edərək nə deyir?
   b) Onun fəryadı İlana necə təsir edir? O, Qurbağaya nə deyir?
   c) Qurbağa fəryad etməsinin səbəbini necə izah edir?

2. Təmsil haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.

| Təmsildə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Şeirin təmsil janrında olduğunu əsaslandırın. Fikrinizi təsdiq edən misallar göstərin.
4. Kiçik qruplarda birləşərək bütün cavablarınızı dəqiqləşdirin.
5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Evdə iş**

Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) "İlan və Qurbağa" təmsili mənə oxuduğum hansı əsəri xatırlatdı?
   b) Təmsilin məndə yaratdığı təəssürat.

**II dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

*Aşağı siniflərdə xeyli **təmsil** oxumusunuz. Bilirsiniz ki, təmsillərin iştirakçıları heyvanlar, quşlar, cansız əşyalar olur. Onlar danışır, mübahisə edir. Deməli, insanlara aid olan xasiyyət və əməllər onların üzərinə köçürülür. Təmsillərdə pis sifətlər: paxıllıq, lovğalıq, hiyləgərlik tənqid edilir. Xeyirxahlıq, əməksevərlik, düzlük və doğruçuluq, sadəlik və təvazökarlıq və s. təriflənir.*

Bu təmsildə başlıca fikir İlan və Qurbağanın dialoqu – bir-biri ilə danışığı vasitəsilə çatdırılır. Əsərdə Qurbağanın ölümqabağı "qışqırması", "dad etməsi", "dağa-daşa səs salan" fəryadı təsirli bir dillə təsvir olunur. Qarşılaşdırmadan məharətlə istifadə edən şair Qurbağanın fəryadını İlanın gülümsəyərək dinləməsini təsvir etməklə onun zalımlığı barədə aydın təsəvvür yaradır. Lakin onları daha yaxşı tanıdan öz sözləridir. Həmin sözlərin necə seçildiyinə, məqamında işlənib-işlənmədiyinə diqqət edin. Bu, təmsildə ifadə olunmuş əsas fikri başa düşməyinizə kömək edəcəkdir.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Qurbağanın ölümqabağı dedikləri və İlanın sualına cavabı onu necə səciyyələndirir?
2. İlanın hərəkətlərinə necə münasibət bəsləyirsiniz? Fikrinizi əsaslandırın.
3. Təmsildən çıxan nəticə nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

Mövzulardan birini seçib işləyin.

a) "İlan və Qurbağa"əsərinin mövzusunda nəsrlə yığcam təmsil yazın. İştirakçıların (məsələn, Canavar və Quzu) və məzmunun fərqli olmasına çalışın.

b) "İlan və Qurbağa" təmsilinin sonluğunu necə görmək istərdim?" mövzusunda yığcam esse yazın.

## Evdə iş

Təmsildən bir parçanın ifadəli oxusunu hazırlayın. Şərti işarələrdən istifadə edin.

## III dərs Əsərin ifadəli oxusu

1. Mətni oxuyun və müzakirə edin.
   Təmsildə ifadə olunmuş əsas fikir artıq sizə məlumdur. Bu o deməkdir ki, sinif yoldaşlarınıza nə çatdıracağınızı – vəzifənizi bilirsiniz. Mətnin məzmununu, ondakı fikirləri təsirli, inandırıcı çatdırmaq üçün baş verənlər aydın təsəvvür edilməli, iştirakçıların – İlan və Qurbağanın vəziyyəti, bir-birinə münasibəti əhatəli başa düşülməlidir. İlanla qurbağanın dialoqunda nifrət, qəzəb, saymazlıq, amansızlıq və s. duyulur. Bu, ifaçının səsində fərqli çalarların yaranmasına səbəb olur. Deməli, hər sözun, misranın üzərində diqqətlə düşünmək, necə ifa ediləcəyini dönə-dönə məşq etmək lazımdır.
2. Sonra əsərdən bir parçanı iş vərəqinə köçürün və mühüm (məntiqi vurğulu) sözləri, səsinizin aldığı çalarları, fasilələrin yerini və s. aydınlaşdırıb mətnin üzərində şərti işarələr qoyun.
3. İfaları dinləyib müzakirə edin.

## Evdə iş

Təmsilin bütövlükdə ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə etməyi unutmayın.



**CEK LONDON**
**(1876 – 1916)**

· O, şimal dünyasının sərt şəraitini gənclik həvəsi və marağı ilə izləmiş, bir-birinə bənzəməyən, gərgin süjeti ilə diqqəti cəlb edən və ovaxtkı Amerika ədəbiyyatı üçün yeni olan əsərlər yazmışdır.

*Cəlil Nağıyev*

**Yada salın**

– Uşaqların həyatından, taleyindən bəhs edən hansı hekayələri oxumusunuz?

**Düşünün**

– "İnsan bütün yaş dövrlərində ləyaqətini qorumağı bacarmalıdır" fikrinə necə münasibət bəsləyirsiniz?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

# KİŞ HAQQINDA HEKAYƏT

*(ixtisarla)*

••• 1 •••

Bir zamanlar Buzlu okeanın sahilində Kiş adlı bir ovçu yaşayırdı. O, qəbilə başçısı idi, uzun illər firavan yaşamışdı, öləndən sonra da adı öz xalqı tərəfindən ehtiramla çəkilirdi. Kiş çox-çox əvvəllər ömür sürdüyündən onun adı yalnız qocaların yadında qalmışdı.

Uzun qış gecələrində adamlar Kiş haqqında hekayəti dinləməyə toplaşırdılar. Danışırdılar ki, Kişin atası cəsur ovçu olmuşdur.

Aclıq zamanı o öz qəbiləsinin həyatını xilas etmək üçün nəhəng ağ ayı ilə təkbətək əlbəyaxa döyüşə girmiş və ölümə tuş gəlmişdi. Qorxunc heyvanın özü də ölmüş, amma ovçunun bütün sümüklərini sındırmışdı. Ayının əti çox idi və qəsəbənin sakinləri aclıq təhlükəsindən xilas oldu. Cəsur ovçunun yeganə oğlu Kiş atasının ölümündən sonra anası ilə bir damın altında tək qalmışdı. Lakin insanların yaddaşı zəif olur, hər şeyi tez unutduqları kimi, onun atasının igidliyini də unutdular. Kiş hələ balaca oğlan idi, hamı onları yaddan çıxaranda ana-bala yoxsullaşıb qəsəbənin ən miskin daxmasında yaşamağa məcbur oldular.

Lakin bir dəfə axşamüstü başçı Kloş-Kvanın geniş daxmasında məşvərət zamanı Kiş damarlarında kimin qanının axdığını göstərdi. O, yaşlı kişilərə xas olan ləyaqətlə ayağa qalxdı, səs-küylü mübahisənin bitməsini, sakitlik çökməsini gözləyərək sözə başladı:

– Mən sizə həqiqəti deyəcəyəm. Mənə və anama verilən ət payı həmişə köhnə, bərk və sür-sümüklü olur.

Ağsaqqal, hörmətli ovçular, dəliqanlı cavanlar heyrət içində donub qaldılar. Bu, inanılmaz bir hadisə idi! Uşağın böyüklər kimi danışması bir yana, hələ üstəlik, yaşlıların üzünə belə kəskin sözlər də deyir!

Kiş isə sakitcə və qətiyyətlə sözünə davam etdi:

– Bunu sizə ona görə deyirəm ki, mənim atam Bok mahir ovçu idi. Hamı bilir ki, Bok ovdan qayıdanda ən bacarıqlı ovçudan çox ət gətirirdi. O, əti öz əlləri ilə bölüşdürür, hətta əldən düşmüş qarılara, ən zəif qocalara belə ədalətli pay çatmasına göz qoyurdu.

– Bir buna baxın! – deyə kişilər qışqırdılar, – oğlanı buradan qovun! Qoy gedib yatsın! O, ağsaqqallarla belə danışmaq üçün hələ böyüməyib!

Lakin Kiş hay-küyün sakitləşməsini səbirlə gözlədi.

– Uq-Qluq, sənin arvadın var, onun yerinə sən danışırsan. Sənin isə, Massuq, anan da var, sən onların da əvəzinə danışırsan. Anamın məndən başqa heç kimi olmadığından onun əvəzinə mən danışıram. Odur ki, sizə deyirəm: Bok hünərli ovçu olduğu üçün həlak oldu. Deməli, qəbilədə ət olanda onun oğlu Kişə və arvadı Aykiqaya kifayət qədər pay çatması ədalətli olardı. Mən – Bokun oğlu Kiş sözümü dedim.

O oturdu və hiddətli səs-küyü diqqətlə dinləməyə başladı.



Daxmadakıların qəzəbi getdikcə artırdı. Onlar çığır-bağır salaraq Kişə deyirdilər ki, gedib yatsın, ona ət verməyəcəkləri, hətta yaxşıca döyəcəkləri ilə hədələyirdilər. Kişin gözlərində sanki ildırım çaxdı, yanaqları qızardı. O, təhqir və hədələri dinləyib yerindən sıçradı:

– Ey yaşlı insanlar, məni dinləyin! – deyə o qışqırdı, – mən sizə daha bir kəlmə də deməyəcəyəm. O vaxta qədər ki, özünüz gəlib məndən xahiş edəcəksiniz: “Kiş, yaxşı olardı ki, sən bizə məsləhətinlə kömək edəsən. Biz bunu xahiş edirik və səni dinləməyə hazırıq!”

Sizə dediyim son sözləri yadınızda saxlayın. Mən atam Bok kimi ovçu olacağam, ova gedib ət gətirəcək, pay böləndə ədalətli olacağam. Çalışacağam ki, nə dul qadınlar, nə də uşaqlar gecələr acından göz yaşı tökməsinlər. Güclü kişilərsə, çox yedikləri üçün səhərədək zarıyıb ufuldamasınlar! Mən – Kiş öz sözümü dedim.

Tənəli baxışların, istehzalı sözlərin onu qapıyadək müşayiət etməsinə baxmayaraq, Kiş dişlərini qıcayıb sağa-sola baxmadan daxmadan çıxdı.

••• 2 •••

Ertəsi gün o, buzun torpaqla qovuşduğu sahilə getdi. Görənlərin dediyinə görə, ova gedərkən o, yay və sümükdən itiuclu çoxlu ox götürmüş, atasının iri nizəsini çiynindən asmışdı. Bu da qəbilədəkilərin gülüşməsinə və məsxərəsinə səbəb olmuşdu. Doğrudan da, inanılmaz hadisə baş vermişdi. Bu vaxtadək balaca, südəmər oğlanların təkbaşına ova getdiyini heç kim görməmişdi. Adamlar başlarını yırğalayaraq deyirdilər ki, bu işin axırı yaxşı qurtarmayacaq! Qadınlar sərt üzündən qəm yağan Aykiqaya mərhəmətlə baxaraq:

– O, tezliklə qayıdacaq! – deyə ananı sakitləşdirməyə çalışırdılar.

Ovçular isə:

– Qoy getsin, bu ona yaxşı dərs olar! – deyirdilər, – onun ovu çox çəkməz, amma bundan sonra sakitləşər və mülayim danışmağı öyrənər.

Lakin bir gün, iki gün, üç gün keçdi, şiddətli çovğun qopdu, Kiş isə görünmürdü. Aykiqa saçlarını yoldu, böyük matəm əlaməti

olaraq üz-gözünə kül sürtdü. Qadınlar kişiləri qınayırdılar ki, öz rəftarları ilə oğlanı ölümün qucağına atmışlar. Kişilərsə dinməzcə qulaq asır, çovğun qurtaran kimi onun cəsədini axtarmağa hazırlaşırdılar. Lakin Kiş sağ-salamat qəsəbəyə qayıtdı. O, əliboş dönməmişdi. Çiynində ət gətirirdi. Onun dedikləri təsirli idi, sözlərində qürur duyulurdu:

– Kişilər, itlərinizi və kirşələrinizi götürün, mənim izimlə gedin. Demək olar ki, bir gün yol getməli olacaqsınız. Orada – buzun üstündə xeyli ət – ana ayı və iki iri ayı balası sizi gözləyir.

Aykiqa sevincdən, az qala, ağlayacaqdı, amma Kiş onun ahnaləsini əsl kişi kimi kəsdi:

– Kifayətdir, ana, – dedi, – gedək yemək hazırla. Sonra isə mən yatacağam, çox yorulmuşam.

O, daxmaya girib doyunca yemək yedi. Bundan sonra düz iyirmi saat yatdı.

Onun sözləri əvvəlcə inamsız qarşılandı, çoxlu şübhə və mübahisələrə səbəb oldu. Ağ ayı ovu təhlükəli işdir, balalı ağ ayı ovuna gedən ovçu isə üç dəfə, ondan da qat-qat çox təhlükəyə məruz qalır. Kişilər heç cür inana bilmirdilər ki, Kiş boyda bir oğlan öz əlləri ilə belə möcüzə yaradıb. Amma qadınlar təkidlə deyirdilər ki, o, doğrudan da, təzə ayı əti gətirib! Nəhayət, onlar hazırlaşıb yola çıxdılar. Yol boyu ovçular öz aralarında acıqla deyinirdilər ki, əgər oğlan hər şeyi dediyi kimi edibsə də, ayının dərisini soymaq ağlına gəlməyib. Şimalda isə heyvanı öldürən kimi dərisini mütləq soymalısan. Bunu eləməsən, cəmdək şaxtada elə donur ki, hətta ən iti bıçağın da dili ona toxunan kimi sınır. Lakin ovçular həmin yerə çatanda gördülər ki, Kiş ayının və balalarının cəmdəklərini ovçu qaydalarına əməl edərək soyub təmizləmiş, hər birini dörd parçaya bölmüşdür.

### 3

Növbəti səfərdə Kiş cavan bir ayı öldürdü. Bir ay sonra isə çox iri erkək və dişi ayı vurdu. O, adətən, ova üç-dörd günlüyə gedirdi, bəzən isə qarlı düzlərdə bir həftə itib-batırdı. Həmişə də ova gedəndə ona qoşulmaq arzusunda olanlara etiraz edir və adamlar buna təəccüblənirdilər. “Bəs bu qədər işin öhdəsindən o necə gəlir?

– deyə bir-birindən soruşurdular, – axı o özüylə it də götürmür, itin gördüyü işi isə ov zamanı heç nə ilə əvəz etmək olmaz”.

– Sən niyə yalnız ayı ovlayırsan? – deyə Kloş-Kvan bir dəfə ondan soruşmağa cəsarət etdi.

Kiş ağıllı cavab verdi:

– Hamı bilir ki, ayının əti daha çox olur.

Hər halda, Kiş böyük uğurla ov etməkdə davam edirdi. Bəxti onun kimi gətirməyən və ya fərasətsiz ovçular dəfələrlə onun ovunu qəsəbəyə daşımışdılar.

Əti böləndə o, həmişə ədalətli olurdu. Atası kimi Kiş də ciddi nəzarət edirdi ki, əldən düşmüş qarılar və qocalar öz ədalətli paylarını alsınlar. Özünə isə yalnız zəruri olan qədər pay saxlayırdı. Bunu görən adamlar ona hörmətlə, bir az da qorxu hissi ilə yanaşmağa başladılar, bir çoxları deyirdi ki, qoca Kloş-Kvandan sonra Kişi başcı seçmək yaxşı olardı.

– Mən özümə yeni daxma tikmək istəyirəm, – deyə Kiş bir gün Kloş-Kvana və ovçulardan kiməsə bildirdi.

– İstəyirəm ki, anam Aykiqanın və mənim rahat yaşaya biləcəyimiz geniş daxmamız olsun.

– Niyə də olmasın, – deyə onlar təmkinlə razılıqlarını bildirdilər.

– Ancaq mənim bununla məşğul olmağa vaxtım yoxdur. Mənimki ovçuluqdur. O da bütün vaxtımı alır. Belə fikirləşirəm ki, qəsəbəmizin kişiləri və qadınları mənim üçün daxma tiksə, ədalətli olar, axı onlar mənim ovdan gətirdiyim ətlə dolanırlar...

Onun üçün geniş daxma tikdilər. Kiş anası ilə ora köçdü və firavan yaşamağa başladı.

••• 4 •••

Bununla belə, Kişin möcüzəli ovunun sirri hələ də hamını heyrətə gətirirdi, adamlar yalnız bu barədə danışırdılar. Axırda Uq-Qluq onu cadugərlikdə günahlandırdı. Bir axşam məşvərət zamanı uzun söz-söhbətdən sonra bu qərara gəlindi ki, belə uğurlu ov etməyinin sirrini öyrənmək üçün Kişin izi ilə güdükçü göndərsinlər. Kiş növbəti dəfə ova yollananda qəsəbənin iki gənc və ən bacarıqlı ovçusu Bim və Boun xəlvətcə onu izləməyə başladı. Onlar

beş gündən sonra geri qayıdanda böyük heyrət içində idilər və hiss olunurdu ki, gördükləri hər şeyi səbirsizliklə danışmağa can atırlar. Elə həmin andaca Kloş-Kvanın evində məşvərət keçirildi və Bim danışmağa başladı:

– Qardaşlar! Biz sizin tapşırdığınız kimi xəlvətcə Kişin izi ilə getdik. Birinci gün günorta o, böyük bir erkək ayıya rast gəldi. Bu, çox böyük ayı idi...

– Ondan böyüyü ola bilməzdi, – Boun onun sözünü kəsib, əhvalatın davamını danışmağa başladı, – amma ayı dalaşmaq istəmirdi. O, geri döndü və buzun üstü ilə sakitcə getdi. Kiş isə qorxu-hürkü bilmədən onun dalınca düşmüşdü. O qışqıraraq ayını söyür, əllərini yelləyir və çığırırdı. Axırda ayı hirsləndi, arxa pəncələri üstə dikəldi və nərildədi. Kiş düz onun üstünə gəlirdi.

– Hə, – Bim davam etdirdi, – Kiş düz ayının üstünə gəlirdi. Birdən ayı Kişin üstünə cumdu və bu zaman Kiş qaçmağa başladı, qaça-qaça da buzun üstünə yumru kürəcik atdı. Ayı dayanıb kürəciyi qoxuladı və uddu. Kiş isə hey qaçır və buzun üstünə kürəciklər atırdı. Ayı onun arxasınca gəlir və kürəcikləri udurdu.

Bu zaman hər tərəfdən inamsızlıq bildirən səslər eşidildi, Uq-Quq isə hamıya bildirdi ki, belə nağıllara inanmaq olmaz.

– Biz bunu öz gözlərimizlə gördük, – Bim söylədi.

– Hə, öz gözlərimizlə, – Boun təsdiqlədi, – bu, həqiqətən də, belə olub, sonra isə ayı dikələrək bərkdən nərildədi və ön pəncələrini yellədərək qarnını döyəcləməyə başladı. Kiş hələ də buzun üstü ilə ondan qaçırdı. Ayı daha ona məhəl qoymurdu, onun bütün fikri-zikri özündə idi, çünki yumru kürəciklər onun içini didib parçalayırdı.

– Hə, kürəciklər onun içini didirdi, – deyə Bim onun sözünə qüvvət verdi, – çünki o, pəncələri ilə özünü döyür, bala ayı kimi buzun üstündə yumbalanır, hoppanırdı. Yalnız onun bağırtısından və nəriltisindən bilmək olardı ki, bu heç də oyun deyil, dəhşətli ağrıdır. Ömrümdə heç zaman belə şey görməmişdim.

– Hə, bizim gözlərimiz hələ heç vaxt buna bənzər bir şey görməmişdi, – deyə Boun davam etdi, – amma necə də nəhəng ayı idi!

– Bu ki cadugərlikdir! – Uq-Quq dilləndi.

– Bilmirəm, – Boun dedi, – mən sizə gördüyümü danışıram. Bir az sonra ayı haldan düşdü. Axı o, çox böyük və ağır idi, var gücü ilə atılıb-düşürdü. O, sahilboyu sürünür, başını yavaş-yavaş o tərəf-bu tərəfə yelləyirdi. Hərdən oturur və yenidən zarıldayır, bağırırdı. Kiş onun ardınca, biz isə Kişin iziylə gedirdik. Beləliklə,

həmin gün və sonrakı üç gün yol getdik. Ayı get-gedə zəifləyir, ağrıdan bağırırdı.

– Bu, cadunun təsiridir! – deyə Uq-Qluq qışqırdı, – aydın məsələdir ki, bu, cadunun təsiridir.

– Ola bilər…

Bim Bounun sözünü kəsdi və söhbəti davam etdirdi:

– Ayı gah dala, gah qabağa gedir, öz izi ilə dövrə vururdu, axırda Kişlə ilk dəfə qarşılaşdığı yerin yaxınlığına qayıtdı. Ancaq indi o, yarımcan idi, demək olar ki, tərpənə bilmirdi. Bu zaman Kiş ayıya yaxınlaşıb ona ölümcül zərbə vurdu.

– Bəs sonra? – deyə Kloş-Kvan soruşdu.

– O, ayının dərisini soyanda biz oranı tərk edib buraya tələsdik ki, Kişin necə ov etdiyini tez sizə danışaq.

••• 5 •••

Günün sonunda qadınlar xizəklə nəhəng ayı cəmdəyi gətirdilər, kişilərsə hələ də məşvərət edirdilər. Kiş ayağını daxmasına təzəcə basmışdı ki, adam göndərib ondan məşvərətə gəlməyi xahiş etdilər. O isə dedi ki, yorğun və acdır, daxması geniş və rahatdır, orada hamıya yer çatar. Hamıda elə böyük maraq vardı ki, başda Kloş-Kvan olmaqla bütün məşvərət üzvləri ayağa qalxıb Kişin daxmasına yollandı.

Kiş yemək üstündə olsa da, ayağa qalxıb onları hörmətlə qarşıladı, hər birinə oturmaq üçün yaşına uyğun yer göstərdi.

Kloş-Kvan Bimlə Bounun dediklərini təkrarladı və sözünün sonunda ciddi və təsirli şəkildə Kişə müraciət etdi:

– Kiş, sənin ayını necə ovladığını bizə deməyini gözləyirik. Boynuna al, sən cadudan istifadə edirsənmi?

Kiş ona baxaraq qımışdı:

– Ey Kloş-Kvan! – o dilləndi, – balaca oğlan cadu barədə nə bilər?! Bu, onun işidirmi?! Mənim belə şeylərdən başım çıxmır. Mən ağ ayını çətinlik çəkmədən öldürməyin üsulunu tapmışam. Vəssalam. Mən bunu ağılla eləmişəm, cadu ilə yox.

– Bunu hər kəs bacararmı?

– Bəli.

Bundan sonra uzun bir sükut çökdü. Kişilər bir şey başa düşməyərək bir-birinə baxır, Kiş isə heç nə olmamış kimi yeməyini davam etdirirdi.

– Sən… sən… bu sirri bizə açarsanmı? – deyə Kloş-Kvan, axır ki, səsi kəsilə-kəsilə soruşmağa cürət etdi.

– Yaxşı! Mən bu sirri sənə açaram.

Kiş, nəhayət, beyin sümüyünü sümürməkdən əl çəkib ayağa qalxdı və dedi:

– Bu çox sadədir! Baxın!

O, balina bığının nazik zolağını götürüb hamıya göstərdi. Zolağın ucları itilənib iynə kimi yonulmuşdu. Kiş azacıq balina piyi götürdü.

– Baxın, – dedi, – balina piyini elə əzirsən ki, onda çökək alınsın, həmin çökəyə kip bürmələnmiş balina bığı qoyub üstünü piylə bərkidirsən. Sonra qoyursan şaxtada donur. Kiçik, buzlu kürəcik alınır. Ayı kürəciyi udduqdan sonra piy əriyir, balina bığı düz vəziyyət alıb onun qarnına sancılır, ayının halı pisləşir. O, tamamilə zəifləyəndə isə yaxınlaşıb nizə ilə öldürürsən. Hər şey çox sadədir!

Qədim zamanlarda Buzlu okeanın sahilində yaşayan Kiş haqqında hekayət belədir. Özünə cadu ilə yox, ağlı ilə çıxış yolu tapdığı üçün ən miskin daxmada yaşayan bu balaca oğlan qəbilə başçısı oldu.

Onun uzun ömrü boyu qəbiləsi ehtiyac nə olduğunu bilmədi, nə dul qadınlar, nə köməksiz qocalar, nə də uşaqlar onlara ət payı çatmadığı üçün gecələr ağlamadılar.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsərin ilk üç parçasının oxusundan (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Kişin məşvərət zamanı çıxış etməsinə səbəb nə idi?
   b) Onun çıxışı necə qarşılandı?
   c) Kiş qəbilə üzvlərinə nə barədə xəbərdarlıq etdi?
   d) Kişin təkbaşına ova getmək qərarına adamlar necə münasibət bəslədilər?
   e) Şiddətli çovğunda Kişin ovdan qayıtmaması qəbilədəkilərə necə təsir etdi?
   f) Ovladığı ayıların ətini Kiş necə bölüşdürürdü?
   g) Qəbilə üzvləri Kiş və anası üçün yeni daxma tikməyə nə üçün razılıq verdilər?

2. Kiçik qruplarda birləşərək bütün sualların cavablarını dəqiqləşdirin, gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
3. Hekayədən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında yığcam nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**Evdə iş**

1. Hekayənin ardını (4-5-ci parçalar) oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs** **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə həmin parçaların məzmununa aid suallar və onlara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşərək sualları və cavabları müzakirə edin. Müzakirə zamanı suallara da diqqət yetirin.
   – Kişin uğurla ov etməsinin səbəbini qəbilə üzvləri necə izah edirdilər?
   – Kiş öz uğurunun səbəbini məşvərət üzvlərinə açmaya bilərdimi?
   – Kişin qəbilə başçısı seçilməsinin səbəbini necə izah etmək olar?
4. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
5. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**Evdə iş**

Mövzulardan birini seçib yerinə yetirin.

a) Hekayədəki fikirlərlə səsləşən atalar sözləri müəyyənləşdirin.
b) “Əsərdə ən çox xoşladığım epizod” mövzusunda təqdimata hazırlaşın.

**III dərs** **Təhlil üzrə iş**

· **Əsərlə bağlı açıqlamalar.**

Bu əsər oxucunu uzaq bir diyarda – Şimal Buzlu okeanının sahillərində yaşamış insanların həyat tərzi ilə tanış edir. Ovçuluq bu insanların əsas məşğuliyyətidir. Sərt iqlim şəraiti, addımbaşı qarşılaşdıqları uğursuzluq onları ağır sınaqlara çəkir. Aclıq təhlükəsi qəbilənin başının üstünü tez-tez alır.

Çətinliklə əldə edilmiş ov ətinin bölüşdürülməsində bəzən ədalətsizlik də özünü göstərir. Gənc Kiş qəbiləyə məxsus birlik, çətinliklərə qarşı hamılıqla mübarizə aparmaq kimi dəyərlərin qorunub saxlanmasına nail olur. Əsərin üzərində müşahidələrinizi davam etdirin, məqsədinə çatmaq üçün Kişin hansı maneələri və necə dəf etdiyini aydınlaşdırmağa çalışın.

*Oxuduğunuz bu əsər* ***hekayə*** *adlanır. Hekayə ərəb sözüdür, mənası bir hadisəni, əhvalatı danışmaq deməkdir. Hekayə yığcam, kiçik nəsr əsəridir. Belə əsərlərdə insan həyatının qısa bir dövrü daha çox təhkiyə (nağıletmə) əsasında əks etdirilir. Öyrəndiyiniz nümunədən də gördüyünüz kimi, hekayədə iştirakçıların sayı çox olmur. Təsvir olunan hadisə daha çox baş qəhrəmanla əlaqələndirilir.*

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Kişin qəbiləni idarə edənlərə, yaşlılara qarşı çıxmasına haqq qazandırmaq olarmı? Niyə?
2. Kişin xarakterindəki başlıca cəhətlər, sizcə, hansılardır?
3. Hekayədəki "Lakin bir dəfə axşamüstü başçı Kloş-Kvanın geniş daxmasında məşvərət zamanı Kiş damarlarında kimin qanının axdığını göstərdi" cümləsində ifadə olunmuş fikri necə başa düşürsünüz?
4. Kiş nəyin sayəsində uğur qazandı, qəbiləni çətin vəziyyətdən xilas etdi?
5. Bu hekayəni oxuduğunuz şifahi xalq ədəbiyyatı nümunəsi (nağıl və ya əfsanə) ilə müqayisə edin. Venn diaqramından istifadə edin.
6. Hekayə hansı mövzuda yazılıb?
7. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

"Ayıları ovladığı üçün Kişi günahlandırmaq olarmı?" mövzusunda müzakirə aparın.

## Evdə iş

Mövzulardan birini seçib işləyin.

1) "Kişin həyatı və hərəkətləri məndə hansı təəssürat yaratdı?" mövzusunda esse yazın.
2) Kitabxana və ya internetdəki mənbələrdən istifadə etməklə Cek Londonun hekayələri barədə məlumat toplayın.

...

- **Yazdığınız esseni aşağıdakı meyarlar əsasında dəyərləndirin.**
  1. Yazıya maraqlı girişlə başladım.
  2. Cümlələri qurarkən öyrəndiyim dil qaydalarına əməl etdim.
  3. Mənasını yeni öyrəndiyim sözlərdən istifadə etdim.
  4. Fikrimi aydın, ardıcıl ifadə etdim və əsaslandırdım.
  5. Mövzunu əhatə etdim.
  6. Əsərdəki hadisələrə öz münasibətimi bildirdim.

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün mövzulardan birini seçib yığcam inşa yazın.**

1. İlan və Qurbağa obrazları hansı xarakterli insanları təmsil edir?
2. "Kiş haqqında hekayət" hiss və düşüncələrimdə hansı dəyişiklik yaratdı?

...

- **Yazdığınız inşanı aşağıdakı meyarlar əsasında dəyərləndirin.**
  1. Yazıya maraqlı girişlə başladım.
  2. Cümlələri qurarkən öyrəndiyim dil qaydalarına əməl etdim.
  3. Mənasını yeni öyrəndiyim sözlərdən istifadə etdim.
  4. Fikrimi aydın, ardıcıl ifadə etdim və əsaslandırdım.
  5. Mövzunu əhatə etdim.

Hikmət Ziya

## HƏR KƏSİN YERİŞİ VAR

Bir tısbağa dovşana
Söylədi yana-yana:
– Sən nə yaman qaçırsan?
Lap elə bil uçursan!
Gəl dost olaq bu gündən,
Mənə də öyrət bunu.
İnan ki, təriflərəm
Səni ömrüm uzunu.
Dovşan dedi: – Əzizim,
Bu xəyala düşmə sən!
Bu addımla, yerişlə
Məyər qaça bilərsən?!
İnad etdi tısbağa:
– Yox, mən də qaçacağam,
Öyrətmirsən, öyrətmə.
Lap quştək uçacağam, –
Deyə o, bir tərəfdən
Üzüaşağı endi.
– Qaçma, yavaş! – söyləyib,
Dovşan xeyli deyindi.
Amma sözə baxmayıb
Tısbağa yumbalandı.
Dəyib daşa, kəsəyə
Bir anda parçalandı.
Dovşan vurdu dizinə:
"Sənə demədim yavaş?!
Hər kəsin öz yerişi
Var, a tısbağa qardaş!"

# MÜHARİBƏ VƏ İNSAN HAQQI

4

Müharibə insanlar üçün fəlakətdir, faciədir. Amma Vətəni müdafiə etmək hər şeydən vacibdir, hamının borcudur. Torpaqlarımıza göz dikmiş işğalçılara qarşı vuruşmalı olduq. Qarabağ uğrunda gedən müharibə bədii ədəbiyyatımızda geniş əksini tapdı. Bu bölmədə müharibə mövzusunda yazılmış əsərləri öyrənəcəksiniz.

*Həmin əsərlərin müharibə haqqındakı düşüncələrinizdə hansı dəyişikliklər yaratdığını aydınlaşdırmağa çalışın.*





**XƏLİL RZA ULUTÜRK**
**(1932 – 1994)**

· Xəlil Rza Ulutürk yalnız öz qələmi ilə deyil, əməli fəaliyyəti ilə də Vətənimizin azadlığına xidmət göstərdi. Bununla kifayətlənməyərək şair öz balasını da bu yolda qurban verməkdən çəkinmədi. O, Vətən üçün nə lazımsa, onu elədi...

*Bəxtiyar Vahabzadə*

**Yada salın**

– Torpaqlarımıza göz dikmiş düşmənlə mübarizəyə həsr edilmiş hansı əsərləri oxumusunuz?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Şəhidlik zirvəsinə yüksəlmək üçün insanda hansı keyfiyyətlərin olması vacibdir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## OĞUL HƏSRƏTİ

*(ixtisarla)*

Məqbərənə gül düzərəm,
Gülüm, Təbrizim, Təbrizim!
Doğrudanmı səni tapdı
Ölüm, Təbrizim, Təbrizim!

Gözlərində nur, təbəssüm,
Üzünə söykənsin üzüm,
Həsrətinə nə cür dözüm,
Balam, Təbrizim, Təbrizim!

Köksünə baş qoyub bahar,
Məzar demə... Məzar – gülzar,
Bu, sərgidir, ya laləzar?!
Lalәm, Təbrizim, Təbrizim!

Getmə, öpüm izlərindən,
Bükülməyən dizlərindən,
Qoy saçılsın gözlərimdən
Selim, Təbrizim, Təbrizim!

Məzar qonşuların yüz-yüz –
Namiq, Elşad, Aydın, Gündüz.
Yerdə qalmaz bu qan, sözsüz,
Zülüm, Təbrizim, Təbrizim!

Kremlin caynaqları iri,
Daşnaklar – vuran əlləri,
Göstər mənə cinayəti,
Bilim, Təbrizim, Təbrizim!

Qanlı köksü dəlik-dəlik,
Xocalıda bir qəsr tik,
Bu cahanda həmişəlik
Qalan Təbrizim, Təbrizim!

Sən tapınan, o – tapınaq,
Cüt Təbrizi qovuşduraq,
Ey bəxtəvər, ey üzüağ,
Balam, Təbrizim, Təbrizim!

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı sual və tapşırıqlara cavab hazırlayın.
   a) Şeir kimə müraciətlə yazılıb?

b) “Doğrudanmı səni tapdı Ölüm, Təbrizim, Təbrizim!”, “Həsrətinə nə cür dözüm” misralarında şairin hansı hissləri öz əksini tapıb?

c) “Köksünə baş qoyub bahar, Məzar demə... Məzar – gülzar, Bu, sərgidir, ya laləzar?!” misralarındakı fikri aydınlaşdırın.

d) “Yerdə qalmaz bu qan, sözsüz“ misrasında ifadə olunmuş fikri necə başa düşürsünüz?

e) “Sən tapınan, o – tapınaq” misrasında ifadə olunmuş fikri necə izah edərsiniz?

f) Şair torpaqlarımızın işğalını nə üçün cinayət adlandırır?

2. Əsər haqqındakı düşüncələrinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın. Cədvəldən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirin, təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

4. Mövzulardan birini seçib təqdimata hazırlaşın.

a) “Əsərdən şəhidlərimiz haqqında yeni nə öyrəndim?” Öyrəndiyiniz yeni sözlərdən istifadə edin.

b) “Şeirdə atanın kədərini, gələcəyə inamını və qürur hissini daha təsirli ifadə edən misralar hansılardır?” Seçiminizi əsaslandırın.

## Evdə iş

Kitabxana və ya internetdəki mənbələrdən topladığınız məlumata əsasən Qarabağ müharibəsinin qəhrəmanları haqqında təqdimat hazırlayın.

## II dərs — Təhlil üzrə iş

- **Əsərlə bağlı açıqlamalar.**

Şeirdə şair atanın Vətən uğrunda döyüşlərdə şəhid olmuş oğlu Təbriz Xəlilbəyli haqqında düşüncələri, kədər, iftixar qarışıq kövrək hissləri əks olunub. Əsərlərində həmişə vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm etmiş sənətkar bu şeirində də oğlu Təbrizin timsalında ana yurdumuzu qoruyan, bu yolda canını qurban verən igidlərimiz haqqında ürək sözlərini ifadə edir, torpaqlarımızın işğaldan azad olunacağına, düşməndən intiqam alınacağına inamını əks etdirir.

Əsərin üzərində müşahidələrinizi davam etdirin, şairin Vətənimizin müdafiəçiləri, torpaqlarımıza göz dikmiş xain qonşularımız haqqındakı fikirlərinə əsaslandırılmış münasibət bildirməyə çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Şeir sizdə hansı hisslər oyatdı? Fikrinizi misallarla əsaslandırın.
2. Şairin kədərini daha qabarıq ifadə edən sözlər, misralar hansılardır? Niyə belə düşünürsünüz?
3. Ata şəhid oğlunu nə üçün "bəxtəvər", "üzüağ" adlandırır?
4. Kremlin və daşnakların adını çəkməkdə şairin məqsədi nədir?
5. Əsər Təbrizin Vətənə və düşmənə münasibəti barədə sizdə hansı təsəvvür yaratdı? Nə üçün?
6. Şeirdə iki Təbrizdən söz açılmasının səbəbi, sizcə, nədir?
7. Şeirdə işlənmiş bədii təsvir vasitəsinin fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın.
8. Əsərdəki başlıca fikir, sizcə, nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

**İfadəli oxuya hazırlaşın.**

Şeirin ilk iki bəndini yenidən nəzərdən keçirin. Həmin bəndləri oxuyarkən dinləyicilərə – sinif yoldaşlarınıza nələri çatdıracağınızı özünüz üçün aydınlaşdırın. Sonra mühüm (məntiqi vurğulu) sözləri, səsinizin aldığı çalarları, fasilələrin yerini aydınlaşdırıb mətnin üzərində şərti işarələr qoyun.

İfaları dinləyib münasibət bildirin.

## Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.

1. Ərazi bütövlüyümüzü təmin edən qələbəmiz.
2. Şəhid qəhrəmanlarımız.



**MAQSUD İBRAHİMBƏYOV**
**(1935 – 2016)**

• Onun əsərlərində əksini tapan həyat hadisələri olduqca realdır, inandırıcıdır. Maqsud İbrahimbəyovun yaratdığı qəhrəmanlar bir-birini təkrar etməyən parlaq obrazlardır.

*Fikrət Qoca*

**Yada salın**

– Qəhrəmanları həmyaşıdınız olan hansı bədii əsərləri oxumusunuz?
– Belə əsərlərdə sizin üçün daha maraqlı olanlar nədir?

**Düşünün**

– Uşaqlığı müharibə dövrünə düşənlər, sizcə, başqalarından fərqlənirlərmi?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırın.

# PÜSTƏ AĞACI
*(ixtisarla)*

**••• 1 •••**

Müharibə vaxtı Bakıya bomba düşmədi. Heç bircə dənəsi də düşmədi. Deyəsən, bizdən – məhəllə uşaqlarından başqa, heç kəs buna təəssüflənmədi. Hədər yerə gecədən xeyli keçənədək binanın damında oturub hava hücumunu gözləyirdik. Maşalar da, qarmaqlar da, baltalar da asılı qaldı.

Lövhə divardan asılmışdı və orada hava hücumu vaxtı nə etməyin lazım gəldiyi göstərilmişdi. Biz onu əzbər bilirdik, amma hədər yerə. Bunlar hamısı bütün müharibə dövründə asılı vəziyyətdə qaldı.

• Hekayədə hansı müharibədən danışılır?
• Uşaqların təəssüflənməsinin, hava hücumunu həsrətlə gözləməsinin əsl səbəbi, sizcə, nə idi?

Bizim cürbəcür silahlarımız vardı. Qılıncları özümüz quraşdırırdıq, çəlləyin ağaclarını çıxarıb, əyrisini düzəldir, dəstəyinə əsgi dolayırdıq və nəticədə çox yaxşı

qılınc alınırdı. Qılıncdan başqa, bizim qundaqsız tüfənglərimiz, iki mağazasız tapançamız, alman dəbilqəmiz vardı. Bütün bunları biz Salyan kazarmalarının yaxınlığındakı zibillikdən tapmışdıq. Orada otun üstündə cürbəcür silahlardan təpə vurulmuşdu, zenit toplarının lüləsi, qumbara dəstəyi, tırtılsız tanklar və üstündə xaç çəkilmiş iki təyyarə vardı. Danışırdılar ki, oranı yaxşı axtarsaq, dəzgahlı pulemyot və ya tank əleyhinə mina da tapmaq olar. Biz çox axtardıq, ancaq nə mina, nə də pulemyot tapdıq. Gülləlıəri konserv qutularına yığırdıq, zirzəmidə bu qutuları ocağın üstünə qoyur, həyətdə oturub nə baş verəcəyini gözləyirdik.

Hər dəfə eyni bir hadisə olurdu – zirzəmidə dəhşətli atışma başlayır, qutudakı güllələr partlayırdı. Bütün qapılardan qorxuya düşmüş qonşular bayıra atılırdı. Onlar nə baş verdiyini anlaya bilmirdilər. Biz də, əlbəttə, özümüzü elə göstərirdik ki, guya, heç nədən xəbərimiz yoxdur, amma, əlbəttə, dava-dava oynamaqda davam edirdik.

- Uşaqlar öz əməllərinin çox təhlükəli olduğunu anlasaydılar, bu cür hərəkət edərdilərmi?

Bizim yaşadığımız ev böyük və çox gözəl idi. Ev ikimərtəbəli idi, bütün ikinci mərtəbə boyu balkonlar sıralanırdı. Həyətdə isə böyük bir püstə ağacı bitmişdi. Elə böyük idi ki, ikinci mərtəbənin balkonuna kölgəsi düşürdü.

- Püstə ağacı haqqında təsəvvürünüz varmı? O necə olur?

Bizim üçün çox əlverişli ağac idi. Kəşfiyyat oyunu oynayanda onun budaqları arasında gizlənirdik və heç kəs bizi tapa bilmirdi. Bakının heç bir həyətində belə böyük püstə ağacı yox idi. Payızda püstə yetişəndə biz onları yığıb bütün qonşular arasında bərabər bölürdük. Püstəni əvvəlcə qərargaha toplayır, sonra hər mənzilə bir böyük kağız torbada paylayırdıq. Hamı da bizə “sağ ol” deyirdi.

- Həyətdə belə bir ənənənin yaranmasına səbəb nə ola bilərdi?

Biz bütün işlərimizi qərargahda həll edirdik. Birimizin əlinə pul düşəndə Bazar küçəsindəki dükandan poqon və ulduz alırdıq. Hər igidliyə görə biz yeni ulduz verirdik, belə ki, tezliklə həyətimizdə bir nəfər də sıravi yox idi, hamı polkovnik, general, marşala çevrilmişdi. İki qız – Həmidə və Tamaşa isə sanitar-general rütbəsi almışdı. Hamımız bilirdik ki, qızlardan general olmaz, amma onlar yaralıların yarasını sarımağa razı olmurdular. Biz küçəmizdəki iki həyətin uşaqları ilə döyüşürdük. Yaxşıca vuruşma olurdu. Hamı küçəyə çıxır, qılınclaşırdı. Hətta küçədə hərəkət dayanır, bütün

qonşular döyüşə tamaşa etmək üçün pəncərələrdən boylanırdılar. Döyüşdən sonra əsirləri, ələ keçirdiyimiz qənimətləri dəyişirdik. Bizim həyət döyüşdə tez-tez qalib gəlirdi, təcrübəli sərkərdələrimiz və igid döyüşçülərimiz çox idi. Hər gün biz dava-dava oynayırdıq, amma haradasa əsl müharibə gedirdi. Biz onun haqqında yaşlılardan eşidirdik, amma onu dəhşətli saymırdıq.

Bir gün bizim həyətə yeni qonşular köçdü. Oğlan və qız. Onlar bizdən kiçik idilər, hətta adlarını da bilmirdik. Onlar heç vaxt bir-birindən ayrılmır, pilləkəndə oturub həyət boyu yürüşümüzə və qılınclaşmağımıza baxırdılar.

- "Müharibənin" uşaqların həyatına daxil olmasına, onların yalnız "dava-dava" oynamasına səbəb nə idi?

Onlara birinci mərtəbədə mənzil vermişdilər və orada öz anaları ilə yaşayırdılar. Məncə, o, heç bir yerdə işləmirdi, çünki heç vaxt evdən çıxıb getmir, həmişə paltar yuyurdu. O, fasiləsiz olaraq püstə ağacının kölgəsində paltar yuyurdu. Səhərdən axşamacan paltar yuyurdu. Hərdən dikəlib belini ovuşdurur, saçlarını yığır və yenə də teknənin üzərinə əyilirdi. Qonşularımız deyirdi ki, paltaryuyandır, camaşırxanadan evdə yumaq üçün paltar götürür. Yəqin ki, düz idi. Bir ailədə onun yuduğu qədər paltar ola bilməzdi. Paltarları yuduqdan sonra həyətdə harada mümkünsə iplərdən asır və kimsə onlara toxunanda bərk hirslənirdi.

- Qonşu qadın haqqında sizdə hansı təsəvvür yarandı?

Bu qadının xasiyyəti elə pis idi ki, doğma uşaqları da ondan qorxurdu. Bir sözlə, bizim həyətdə yaşamaq olduqca çətinləşmişdi. Nəinki döyüşmək, heç tüstü pərdəsi də yaratmaq mümkün deyildi. Biz kino lentini kağıza büküb yandırmaqla tüstü pərdəsi yaradırdıq. Qonşu qadın deyirdi ki, tüstüdən paltarlara his çökür. O, paltarı yuyur, sonra isə teknədəki suyu püstə ağacının dibinə tökürdü. Teknədəki su qələvili idi, müharibə vaxtı sabun tapılmırdı. İlk vaxtlar o, paltar yuduqdan sonra suyu çirkab çalasına tökürdü, amma sonra, görünür, çirkab quyusu həyətin o biri başında, darvazanın yanında olduğu üçün çətinlik çəkdi. Axı o, nərmənazik idi, paltar yuyanda əlinin damarları şişirdi. Anam deyirdi ki, çətin həyat insanların xasiyyətini korlayır, amma axı müharibə vaxtı hamı çətinlik içində idi. Biri elə mənim anam, səhərdən axşamadək işləsə də, evə gəlib mənim döşəməni və ya qabları yuduğumu

- Qonşu qadın haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?

gördükdə gülümsəyir və mən görürdüm ki, onun bütün yorğunluğu keçib-gedir. Əgər bütün adamların xasiyyəti qonşu qadının xasiyyəti kimi olsa, gərək baş götürüb qaçasan.

O isə paltar yumaqda davam edir, uşaqları kədərli gəzir, yuduğu paltarların suyunu püstə ağacının dibinə tökürdü. Bir dəfə evlər müdiri onu məzəmmət etdi, amma o, təknədən kənara çəkilib əllərini sildi və yavaşca cavab qaytardı. Evlər müdiri qızardı və dərhal çıxıb getdi.

• Qonşu qadına haqq qazandırmaq olarmı?

Amma biz buna baxmayaraq, dava-dava oynamaqda davam edirdik və şənbə günü dərsdən sonra döyüş təyin etmişdik. Birdən bu püstə ağacı əhvalatı baş verdi.

**••• 2 •••**

Səhər biz, adət üzrə, məktəbə birlikdə getmək üçün həyətdə görüşəndə, kim isə püstə ağacına nəzər saldı və qışqırdı. Biz hamımız ağaca baxdıq və gözlərimizə inanmadıq. Elə bil bu bir yuxu idi, ağac çılpaq idi, bir gecədə bütün yarpaqlarını tökmüşdü, lüt budaqlarda qalmış püstə salxımları görünürdü.

Həyətdə elə səs-küy qalxdı ki! Hamı eyni vaxtda qışqırır, ağız deyəni qulaq eşitmirdi. Mən ancaq qonşu qadınlardan birinin o birinə dediyi: “Yeni qonşu, axır ki, ağacı məhv etdi”, – sözlərini eşitdim. Digər qadın isə deyirdi ki, aqronom çağırmaq lazımdır, bəlkə, o, ağacı xilas edə.

Yeni qonşu qadın səs-küyə çıxdı, sakitcə qulaq asdı, sanki bütün bu haray-həşirin ona dəxli yox idi, sonra var-gücü ilə qapını çırpıb mənzilə girdi.

Aqronom elə həmin gün gəldi. O, püstə ağacına baxıb dedi ki, biz heç nə edə bilmərik. Bu gün ölən təkcə ağaclar deyil. Bu ağacdan yalnız odun olar.

Həmin gün şənbə idi. Biz qərargahda oturmuşduq. Hamı yığışmışdı və yeni qonşuya nə deyəcəyimizi müzakirə edirdik. Biz qərara gəldik ki, o, çox kinli, axmaq qadındır və onun bizim evdə yaşamasını istəmirik.

Hamımız birlikdə onun qapısına yaxınlaşdıq və qapını döydük. Qapını bir neçə dəfə döysək də, heç kəs cavab vermədi və biz otağa girdik.

O, çarpayıda oturub ağlayırdı. Mən heç vaxt bir adamın belə ağladığını görməmişdim. O bizə fikir vermədən paltar yumaqdan şişmiş, göy damarları çıxmış əlləri ilə üzünü tutub ağlamaqda davam edirdi. Onun oğlu və qızı biz gələndən bir neçə saniyə sonra qorxu içində susdular, az sonra yenə səs-səsə verib ağlamağa başladılar və analarının üstünə atıldılar.

Biz: polkovniklər, generallar, marşallar onun qarşısında durub susurduq. Hamımızı qəhər boğurdu. Biz ona demək istəyirdik ki, dünyanın ən gözəl ağacı onun göz yaşlarına dəyməz və yaşlı olsaydıq, yəqin ki, elə belə də deyərdik... Bir də ki belə hallarda yaşlıların nə dediyini haradan biləsən.

Biz geri dönüb öz qərargahımıza qayıtdıq. Poqonlar və ulduzlar üçün yığdığımız bütün pulları götürdük. Kubinkaya getdik. Kubinkada ağac tingləri satılan yeri çox axtardıq. Deyirdik ki, biz ancaq püstə ağacı axtarırıq. Axır ki, çoxlu ağac tingi yığılmış yeri tapdıq, bankalarda da cürbəcür toxumlar var idi. Biz satıcıya yaxınlaşıb püstə ağacı istədik.

– Banan ağacı? – deyə satıcı soruşdu və qonşusuna göz vurdu.

Biz püstə ağacı istədiyimizi dedik və bütün pullarımızı ona verdik.

Satıcı yerdəki ting topasının içindən birini seçib bizə uzatdı. Dedi ki, əsl püstə ağacıdır, bundan yaxşı püstə ola bilməz, özü də onu tez-tez sulamağı məsləhət gördü.

Biz onu növbə ilə götürüb evə apardıq. Bütün gün çuxur qazıb ətrafdakı torpağı şumladıq, sonra isə ağacımız üçün peyin yığmağa getdik, 28-ci evin uşaqları da bizə qoşuldu. Sonra hamımız yeni qonşunun yanına gedib dedik ki, təzə ağac əkmişik, o daha ağlamasın, sadəcə, ehtiyatlı olsun, qələvili su tökməsin. Onda hər şey qaydasında olacaq.

O hamımızın başını sığalladı və dedi ki, tez çıxıb gedək, yoxsa indicə özünü saxlaya bilməyib ağlayacaqdır. Onun səsi də çox qəribə idi, sanki o, dözülməz ağrı içində idi. Sifəti də ağlamsınmış idi, buna baxmayaraq, o, gözəl görünürdü. Deyəsən, biz gedəndən sonra, hər halda, o ağladı, bəlkə də, bu bizə belə gəlirdi.

Axşam anam dedi ki, yeni qonşunun əri davada öldürülüb və dünən o, qara xəbər alıb. Həmin gün bizim həyətdə dava-dava oyununa son qoyuldu...

Əkdiyimiz ağac isə boy atdı, amma bu, püstə ağacı deyildi, nə isə naməlum bir ağac növü idi. Biz onu hər gün sulayırdıq, hamıdan yaxşı isə ağaca yeni qonşu qadın qulluq edirdi. İndi ona heç yeni də demək olmaz, axı o vaxtdan iyirmi il keçib. Bütün qonşular ağacın

kölgəsinə söhbətə yığışır. Heç kəs də onun püstə olmamasına təəssüflənmir.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsərin birinci parçasının oxusundan (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
2. Kiçik qruplarda birləşərək cavablarınızı müzakirə edin.
3. Çıxardığınız nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
4. Əsərdən seçdiyiniz hissənin məzmununu tərtib etdiyiniz plan əsasında geniş nağıl etməyə hazırlaşın.

**Evdə iş**

1. Hekayənin ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs** **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçanı bir daha nəzərdən keçirin, parta yoldaşınızla birlikdə məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
2. Kiçik qruplarda birləşərək sualları və onlara hazırlanmış cavabları müzakirə edin.
3. Çıxardığınız nəticələr barədə təqdimatlar etməklə fikir mübadiləsi və müzakirə aparın.

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

1. Hekayənin məzmununa uyğun yığcam əhvalat fikirləşin, onu əsərdəki hansı hadisədən sonra mətnə əlavə etməyin mümkün olduğunu əsaslandırın.
2. Hekayədən seçdiyiniz cümlələrdən birinə epitet, digərinə isə bənzətmə əlavə edin. Cümlələri əvvəlki variantları ilə müqayisə edib məzmununda yaranmış fərqi izah etməyə çalışın.
3. Əsərin hekayə janrında olduğunu əsaslandırın.

"Püstə ağacı" hekayədir, çünki...

**Evdə iş**

Əsərdən seçdiyiniz bir hissənin məzmununu iki formada – yığcam və geniş nağıl etməyə hazırlaşın.

**III dərs** **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Oxuduğunuz əsərlərin çoxunda uşaqların bir-biri ilə dostluğundan, məktəb həyatından, adi əyləncələrindən danışılır. "Püstə ağacı" hekayəsi onlardan fərqlənir.

Əsərdə təsvir olunan uşaqlar müharibənin dəhşətini anlamırlar, bu barədə təsəvvürləri yoxdur. Amma müharibə haqqındakı danışıqlar onların düşüncəsinə güclü təsir edib. Elə buna görə də həyatlarını müharibə qaydalarına uyğun qurmağa çalışırlar. Bu isə oyundan, əyləncədən o tərəfə keçmir. Lakin uşaqların düşüncəsində, həyatında ciddi dəyişiklik yaranır.

Hekayənin üzərində müşahidələrinizi, araşdırmalarınızı davam etdirməklə bunun əsl səbəbini aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Hekayə xoşunuza gəldimi? Fikrinizi əsaslandırın.
2. Əsərdə təsvir olunan uşaq dünyası sizi cəlb etdimi? Səbəbini izah edin.
3. Sizcə, qonşu qadının xarakterindəki başlıca xüsusiyyətlər hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.
4. Hekayəni nağıldan fərqləndirən başlıca xüsusiyyətləri müəyyənləşdirin. Fikrinizi əsaslandırın.
5. Hekayənin mövzusunu və ondakı əsas fikri – ideyanı müəyyənləşdirin.
6. Mövzulardan birini seçib işləyin.
   a) "Əsər müharibə haqqında bildiklərimə nə əlavə etdi?" mövzusunda yığcam inşa yazın.
   b) "Qonşu qadın və uşaqları məndə hansı hiss və düşüncələr yaratdı?" mövzusunda yığcam esse yazın.



**ELÇİN HÜSEYNBƏYLİ**
**(1961)**

· Onun timsalında ədəbiyyatımızda çox istedadlı, maraqlı, bənzərsiz bir nasir yetişmişdir. Elçinin əsərlərində, əsasən, milli problemlər qabardılsa da, dünya bütöv qavranılır... Təhkiyəsi axıcı, üslubu fərdidir.

*Anar*

**Yada salın**

– Qarabağ müharibəsinə həsr olunmuş hansı incəsənət əsərləri ilə (kino, teatr tamaşası və s.) tanışsınız?
– Düşmənlərimizin işğal etdikləri torpaqlarda dinc əhaliyə münasibəti haqqında nə bilirsiniz?
– Əsgərlərimiz erməni millətindən olan dinc əhaliyə necə münasibət bəsləyirdilər?

**Düşünün**

– Müharibədə dinc əhaliyə: qocalara, qadınlara, uşaqlara, xəstələrə, silahsız əsgərlərə münasibət necə olmalıdır?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## FİRUZƏ QAŞLI XƏNCƏR

*(hekayə)*

••• 1 •••

Gecəyarısına az qalmış fişəng atıldı. Elə bil bu fişəngə bənd imişlər. Xocalının göylərində od-alov saçdı. Güllələr qəsəbənin üstünə yağış kimi yağmağa başladı.

Tofiq keşikçi postundan təzəcə qayıtmışdı. Çörəyini yeyib qurtarmışdı, yatmağa hazırlaşırdı. Bu səsdən diksindi, hövlnak eyvana çıxdı.

– Xəyanətkarlar! – Tofiqin ilk sözü bu oldu.

İki gün əvvəl ermənilərlə razılığa gəlmişdilər. Danışıq belə olmuşdu: umu-küsüyə, dava-dalaşa son qoyulsun.

Amma sən saydığını say, gör fələk nə sayır.

- Tofiq nə üçün erməniləri xəyanətkar adlandırır?
- Keşiş Arsenin bu sözləri haqqında nə düşünürsünüz?

- Sizcə, Tofiq işğalçılar haqqında nə üçün belə deyir?

Həmin danışıqdan sonra keşiş Arsen həmyerlilərinə belə demişdi: "Türkdən dost olmaz, türk bizim əbədi düşmənimizdir. Söz də bizimdir, əməl də. Çox da ki söz vermişik, əməlimizi həyata keçirməliyik".

Uzaqgörən Tofiq isə həmyerlilərinə bunları anlatmışdı: "İtlə dost ol, çomağı yerə qoyma. Ermənyə bel bağlamaq olmaz. Ehtiyatlı və diqqətli olun".

Xocalılıların çəkindiyi yer aeroport tərəfiydi. Ona görə də güclü keşikçi postlar orada qurulmuşdu. Ermənilər oradan hücum edə bilərdilər. Elə də oldu.

Tofiq qorxusundan ağappaq ağarmış arvadı Zeynəbə baxdı:

– Qorxma, öhdələrindən gələrik. Mən uşaqların yanına gedirəm, sən burada qal, vəziyyət pisləşsə, məni gözləmə, Ağdama tərəf get, ora yol açıqdır.

Bu sözlərdən sonra Tofiq üç yaşı təzəcə tamam olmuş Gülərin yatağının başına gəldi, bir anlığa qızına baxdı. Uşaq məsumcasına yatmış, oyuncaq dovşanını bağrına basmışdı. Atası əyilib onun üzündən öpdü və avtomatını götürüb çıxdı. Çıxarkən Zeynəbə tərəf döndü:

- Tofiq bu sözlərlə nə demək istəyirdi?

– Özün nə edəcəyini yaxşı bilirsən, Gülər amanatı, – dedi və qapını arxasınca örtdü.

Zeynəb hələ də yerində quruyub qalmışdı, nə edəcəyini bilmirdi. Özünə gələndə qapıya tərəf qaçdı:

– Tofiq! – deyə çığırdı, amma ərindən cavab gəlmədi, o, qəsəbənin qaranlığında itmişdi.

**••• 2 •••**

Xocalıda hamı bir-birinə qarışmışdı, ağız deyəni qulaq eşitmirdi, top-tüfəng səsi aləmi bürümüşdü, havadan barıt və qan qoxusu gəlirdi. Müdafiəni yarıb qəsəbəyə girən ermənilər heç kimə aman

vermirdilər. Dünən özünü dost, mehriban qonşu kimi göstərənlər düşmənə, amansız qatilə çevrilmişdilər.

Zeynəb müəlliməydi. Bu axşam uşaqların inşa dəftərini yoxlayacaqdı. Amma nəsib olmadı. İnşanın adı beləydi: "Gələcəkdə mən kim olacağam". Dəftərlər stolun üstündə onu gözləyirdi. Hər dəftərdən günahsız bir uşaq baxırdı. "Görən, onların taleyi necə olacaq?" – deyə düşündü, ürəyindən qara qanlar axdı, gözləri yaşardı. Gecikmək olmazdı. Nəsə bir iş görmək lazımıydı.

Əvvəlcə istədi ki, aeroport tərəfə, ərinin yanına getsin. Sonra fikrini dəyişdi, ağlına gəldi ki, ora dəhşətli döyüş meydanına çevrilib; indi o, ərinin yadigarını qorumalıydı. Tofiq gedəndə Güləri ona tapşırmışdı...

Zeynəbi qarlı çöllər, azğınlaşmış düşmən, amansız şaxta gözləyirdi. O, yola azuqə hazırladı. Çörək, pendir və axşam yeməyindən qalma ət parçalarını ağzıbağlı qaba qoydu. Çayı termosa tökdü. Bacardıqca qalın geyindi, sonra qızının isti paltarlarını hazırladı. Sandığa tərəf getdi. Sandıq onun cehizliyiydi, ən müqəddəs və qiymətli şeyləri orada saxlayırdı. Öncə gəlinlik paltarını götürdü, düşmən əlinə düşməsin deyə, sonra firuzə qaşlı dəstəyi olan xəncəri. Xəncəri ona nənəsi vermişdi, "yaman gündə yarağın olar" demişdi. Bu bir adət idi. Gəlin köçənə xəncər bağışlayırdılar: "Dara düşəndə özünü qoru". Xəncəri şalının altından belinə bağladı. Nişan üzüyünü qoyduğu mücrünü də götürdü. Onu düşmənə saxlamaq olmazdı.

- Xəncəri götürməkdə Zeynəbin məqsədi nə idi?

Bir anlıq gözlədi. Bəlkə, yuxarıdan kömək göndərdilər. Amma gecikirdilər. Düşmən isə yaxınlaşırdı. Yuxarı başdakı evlər od tutub yanırdı. Qaçmaq lazımıydı.

Zeynəb Güləri yuxudan ehtiyatla oyadırdı. Uşağı qorxuzmaq istəmirdi. Gülər şirin-şirin yatırdı, dovşanını bərk-bərk qucaqlamışdı.

– Qalx, qızım, gözəl balam, nənəgilə gedirik.

Zeynəb Ağdamdan gəlin köçmüşdü. Ata evi oradaydı. Dəfələrlə onu aparmaq istəmişdilər. Demişdilər ki, ara sakitləşəndən sonra qayıdar. Amma o, ərini qoyub getməmişdi. Tofiqin tək qalmağını rəva görməmişdi.

Gülər yuxulu-yuxulu gözlərini açdı, anasına baxdı. Onun geyinikli olduğunu görəndə dediklərinə inandı. O, çox istədiyi nənəsigilə gedəcəkdi.

Qalxıb yerinin içində oturdu. Zeynəb balasını tələm-tələsik, şirin sözlər deyə-deyə geyindirirdi: “Qaşları qara balam, gözləri ala balam, belə hara gedirsən, saçını dara, balam...”

Ana balasını geyindirirdi, amma fikri Tofiqin yanındaydı. Bilirdi ki, əri düşmənə asanlıqla can verən deyil. Bəlkə, bir az da gözləsin. Geciksəydi, düşmən əlinə düşərdi. Xəncərini yoxladı, yerindəydi. Uzaqbaşı özünü öldürərdi. Bəs Gülər? O necə olsun? Getmək lazım idi.

Qızını qucağına alıb çölə çıxdı. Qaranlıq küçələrlə Ağdam yoluna tərəf qaçdı. Bu yola üz tutanlar çox idi. Bəziləri ocağından ayrılmaq istəmirdi. Bircə günün içində qocalmış Çimnaz onu görcək:

• Çimnaz bu sözlərlə nə demək istəyir?

– Müəllimə, indi hara gedək, yuvası viran olanlar ocağımızı kor qoyacaqlar, – deyə vaysındı.

– Ağdam yoluna qaç, Çimnaz bacı, ora açıqdır, – dedi.

– Bəs atam gəlməyəcək? – deyə Gülər anasından soruşdu.

– Gələcək, qızım, gələcək.

Qəsəbənin çıxacağına çatdı. Qəribədir ki, Ağdam yolunu tutanların çoxu geri qayıdır, qəsəbəyə doğru qaçırdılar. Gecənin qaranlığında ağappaq qarlı çöldə qaçışan və yıxılan adamları görmək mümkünüydü. Bəziləri özünü meşəyə vurdu. Könüllü döyüşçülərdən biri Zeynəbə çatdı, al-qan içindəydi.

– Hamıya deyin ki, Ağdam yolu bağlıdır, ermənilər oranı tutublar, bizi aldatdılar, hamını qırırlar, – döyüşçü zarıya-zarıya dediyi bu sözlərdən sonra yerə yıxıldı.

• Döyüşçünün bu hərəkəti sizə necə təsir etdi?

Zeynəb onun başının üstünə əyildi. Döyüşçünün ağzından son buxar çıxdı. Ona heç nə ilə kömək eləmək olmazdı.

••• 3 •••

Ağdama dolayı yolla getmək olardı, meşənin içiylə. Qırılan qırılmış, sağ qalanlar isə öz canının hayındaydı. Ermənilər çatdıqları adamları yerindəcə güllələyirdilər.

Zeynəb özünü meşəyə saldı. Qar meşədə dizə çıxırdı. O yıxıla-yıxıla xeyli getdi. Sonra dayandı, şalını açıb qızını belinə şəllədi. Belə getmək daha asanıydı. Qaranlıq meşədə ağaclar ona vahiməli

görünürdü. Sanki hər ağacın dibində bir düşmən dayanmışdı. Ürəyində Allaha yalvarırdı ki, yolu azmasın. O, uşaq vaxtı buralara çox gəlmişdi. Amma günəşli günlərdə, yerkökü, göbələk, cənnət alması yığmaq üçün...



Ağdamla Xocalının arasında uzanan meşə hamının idi. Ayrı-seçkilik yoxuydu. Qarlı günlər kişilərin payına düşürdü: ov ovlamaq, quş quşlamaq üçün... Tofiq də onların içində. “Görən, necədir, yaralanmayıb ki...” – ürəyində fikirləşdi. Bu fikirdən betərini özünə yaxın buraxmadı. Onlar hökmən yenə də görüşəcəklər.

Zeynəb buzlaşmış, bərkimiş qarın içi ilə irəliləyir, gücdən, taqətdən düşsə də, dayanmırdı. Birdən uzaqdan maşın səsi gəldi. Əvvəlcə sevindi, istədi, maşına tərəf qaçsın, sonra fikrindən daşındı və qoca palıd ağacının dibinə sığındı.

Gələnlər maşından düşdülər və ermənicə öz aralarında nəsə danışdılar. Sonra maşının yük yerindəki adamlara aşağı düşməyi əmr etdilər. Onların çoxu arvad-uşağıydı. Zeynəb qızını belindən açıb sinəsinə sıxdı. Yaxşı ki, Gülər yatmışdı. Bu səhnəni görmürdü.

– Çalalar hazırdır? – saqqallı soruşdu.

– Hazırdır, komandir, – cavan yaraqlı ona cavab verdi, – ötən həftədən qazmışıq.

– Soyundurun bu türk...

Zeynəb son sözü eşitmək istəmədi, qulaqlarını qapadı.

O, Xankəndində institutu bitirmişdi, ermənicə az-çox bilirdi. Tofiqlə də orada tanış olmuşdu.

Əsirləri soyundurdular.

– Komandir, güllələyək?

– Yox, gülləni onlara sərf etməyin, lazımımız olacaq.

– Bəlkə, yandıraq?

– Axmaq! – deyə saqqallı onun üstünə çımxırdı – benzin heyif deyil?! Atın çalaya, üstlərinə də su tökün... qoy donsunlar. Çalaları da torpaqla örtün. Müsəlmanlar elə bilsinlər ki, biz öldürməmişik, özləri donub...

Uşaqlardan biri saqqallıya yalvardı:

– Əmi, qurban olum...

Saqqallı onu soyuq nəzərlərlə süzdü, sonra qolundan tutub çalaya itələdi.

> • Aşot uşağın yalvarışına nə üçün məhəl qoymadı?

Uşağın “əmi” dediyi adam – Aşot adlı çəkməçi onlarda çox çörək kəsmişdi.

Zeynəb həyəcanını boğa bilmədi, onu şiddətli titrətmə tutdu, gözlərindən ixtiyarsız axan yaş görməsinə mane oldu.

Ermənilər əsirləri çalaya atdılar, üstlərinə su tökdülər. Arvad-uşağın ah-naləsi, yalvarışları göyə qalxdı. Amma onları eşidən olmadı. Bir azdan səsləri eşidilməz oldu. Düşmənlər onları diri-diri

basdırmışdılar, üstlərinə də suyu ona görə tökmüşdülər ki, tez donub ölsünlər.

Ermənilər bir az gözləyəndən sonra maşına minib getdilər.

••• 4 •••

Zeynəb hamının getdiyinə əmin olandan sonra Güləri ehmalca yerə qoydu, üstünü şalla örtdü, çalanın yanına gəldi, oranı qazmağa başladı, amma bacarmadı, əlləri donmuşdu, dırnaqları buz bağlamış torpağa dəyib ovulurdu...

Ermənilərin maşını bir neçə yüz metr gedəndən sonra dayandı. Saqqallı erməni komandiri:

• Çalanı qazmaqla Zeynəb öz həmyerlilərinə kömək edə biləcəkmi? Zeynəb həmyerlilərinə daha necə kömək edə bilərdi?

– Dayan, – deyə sürücüyə əmr elədi, – biz onların qızıl dişlərini çıxarmamışıq, müsəlmanlar qızıl dişləri sevirlər. Siz gedin, bir azdan sizə çataram.

O, qəniməti heç kimlə bölüşmək istəmirdi.

Zeynəb hənirti hiss elədi. Cəld arxaya döndü. Saqqallı erməni başının üstündə dayanmışdı.

– Ax səni, türk həyasızı, – yaraqlı bağırdı və Zeynəbi təpiklə vurdu. Zərbə o qədər güclü idi ki, gənc qadın təzəcə torpaqlanmış çalanın üstünə yıxıldı. Saqqallı Zeynəbin sırğalarını qoparmağa çalışır, fürsət düşdükcə onu yumruqlayırdı. Gülər ayılmasın deyə Zeynəb səsini çıxarmırdı, dişini-dişinə sıxıb müdafiə olunur, saqqallının üz-gözünü cırmaqlayırdı. Birdən Zeynəb nənəsinin xəncərini xatırladı. Hər şey bir anda baş verdi. Qəflətən çıxartdığı xəncəri saqqallının boğazına sancdı. Düşmən ağrıdan bağırdı. Qan Zeynəbin üstünə fışqırdı. Saqqallı xəncəri boğazından çıxardı, qan fəvvarə vurdu. O, Zeynəbin üstünə gəldi, yarı yolda səndirləyib arxası üstə yerə yıxıldı. Xırıldaya-xırıldaya nəsə dedi.

– Boğul öz qanında, qaniçən! – deyə Zeynəb qəzəblə pıçıldadı.

Saqqallı bir az xırıldayandan, qan qusandan sonra susdu. Zeynəb xəncəri götürdü, çalanın yanına gəldi, qulağını ora dirədi, çalada bir həyat əlaməti yoxuydu. Ayağa qalxdı...

Haradasa qurd uladı. Zeynəbin canından üşütmə keçdi.

– Ana, – Gülərin səsi gəldi. O, səsə oyanmışdı, qorxudan əsim-əsim əsirdi.

Zeynəb özünü uşağın üstünə atdı:

– Qorxma, qızım, bu saat gedirik.

• Zeynəb özündən güclü düşmənə nəyin sayəsində qalib gələ bildi?

## 5

Meşə qurtarmaq bilmirdi. Zeynəb azmamaq üçün asfalt yolu səmt tutub gedirdi. Onun əlləri və ayaqları donmuşdu. Ayaqlarını hiss eləmirdi, az qala, sürünürdü. Tez-tez Gülərin əl-ayağını ovxalayırdı ki, uşağı don vurmasın. Şirin sözlərlə onu ovundurmağa çalışırdı.

Susuzlamışdı. Termosu açıb çayı qapağına süzdü və qızına uzatdı. Qız başını buladı, yəni istəmirəm. Özü içdi. Canı isindi. Gözləri yol çəkdi. Güllü-çiçəkli uşaqlığını, vağzalı sədaları altında gəlin köçməsini, bəy paltarı geymiş Tofiqi, onu ər evinə yola salan gözüyaşlı anasını xatırladı...

O sanki yuxu görürdü. Doğrudanmı, bu o idi və indi qarlı meşədə yol gedirdi, düşmənlərdən qaçırdı? Gözlərini ovuşdurdu, əlini qara vurdu. Əlləri üşüdü. Gerçəklik onun bədənindən soyuq ox kimi keçdi. Uzanıb elə buradaca qalmaq istədi. Tofiqsiz, yurdsuz-yuvasız onun nə həyatı...

– Ana, – qızının səsi gəldi, – ana, dovşanımı istəyirəm.

– Dovşanın evdə qaldı, qızım, qayıdanda verərəm. Sənə çoxlu oyuncaq alaram.

Dan yeri sökülürdü. Zeynəb yola çıxdı. Uzaqdan qüllə görünürdü. Ağdama az qalırdı...

O, mənzil başına çatmışdı, amma gözü yenə də geridə – Tofiqin yanındaydı.

Onu atası Bəhram qarşıladı. Əvvəlcə nəvəsini, sonra da qızını bağrına basıb ağladı. Heyrətlə Zeynəbin üzündəki, paltarındakı qan ləkələrinə baxdı. Gülərə nəzər saldı. Uşağın lalə yanağı solmuş, rəngi pambıq kimi ağarmışdı.

– Gecədən burada dayanmışıq. Yuxarıdan bir vertolyot göndərmişdilər, onu da ermənilər vurdular. Dığa köpək uşaqları söz vermişdilər ki, hücum eləməyəcəklər, sonra da ratsiya ilə xəbər verdilər ki, Xocalı–Ağdam yolu açıqdır. Əclaflar, sən demə, yalan deyirlərmiş. Pusqu qurublarmış. Hamını qırıblar. İndi danışmışıq ki, heç olmasa, meyitləri götürməyə imkan versinlər.

• Bəhram düşmənləri nə üçün əclaf adlandırır?

– Ata! – Zeynəb hıçqırdı.

– Bilirəm, qızım, bilirəm! Allaha təvəkkül, bəlkə, Tofiq də sağ-salamat gəlib çıxdı. Nə bilmək olar?!

– Ata, bilirsən ermənilər orada neylədilər?

– Bilirəm, qızım, bilirəm, Allah balalarını versin! Qisas qiyamətə qalmaz!

• Bu atalar sözündəki fikri daha necə ifadə etmək olar?

Zeynəb ağlamağını kəsdi, geri – doğma yurduna, ərinin qaldığı səmtə baxdı, sonra atasına tərəf döndü, paltarındakı qan ləkələrini göstərdi, astadan dedi:

– Məni evə apar, ata…

Bir az ara verdi, sonsuz nifrət duyulan səslə sözünə davam etdi:

• Zeynəb bu sözlərlə nə demək istəyir?

– Bu murdar qanı yumaq, ondan xilas olmaq lazımdır…

## I dərs — Məzmun üzrə iş

1. Əsərin ilk üç parçasını oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
2. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirin.
3. Çıxardığınız nəticələri təqdimat əsasında müzakirə edin.
4. Oxuduğunuz parçadan seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında yığcam nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.
5. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) Xəncəri yadigar verərkən nənənin dediyi “yaman gündə yarağın olar” sözləri məndə hansı düşüncələr yaratdı?
   b) İşğalçıların günahsız insanları qətlə yetirməsinin səbəbini nədə görürəm.

## Evdə iş

1. Hekayənin ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

## II dərs — Məzmun üzrə iş

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə mətnkənarı suallara cavab hazırlayın.
3. Həmin parçaların məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın.
4. Kiçik qruplarda birləşərək tərtib etdikləriniz də daxil olmaqla, bütün sualların cavabını müzakirə edib dəqiqləşdirin.
5. Əsərdə işlənmiş bədii təsvir vasitələrinin növünü dəqiqləşdirib cədvəldə qeyd edin.

| Əsərdə işlənmiş bədii təsvir vasitələri | Onların növü |
|---|---|
| | |

6. Bu əsərin hekayə janrında olduğunu nümunələrlə əsaslandırın.
7. Yerinə yetirdiyiniz bütün işlərlə bağlı gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
8. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

### Evdə iş

"Əsərə çəkilmiş illüstrasiyada rəssam diqqəti daha çox nəyə cəlb etməyə çalışmışdır?" mövzusunda təqdimata hazırlaşın.

## III dərs — Təhlil üzrə iş

- **Əsərlə bağlı açıqlamalar.**

Torpaqlarımıza göz dikmiş xain qonşularla müharibənin qurbanları təkcə düşmənə qarşı döyüşlərdə yaralanan, həlak olan əsgərlər deyil, həm də dinc əhali, qocalar, qadınlar, uşaqlar, xəstələrdir. Xarici havadarlarına arxalanan işğalçıların törətdiyi müharibə cinayətləri bir milyonadək dinc əhalinin yurd yerlərini tərk etməsinə, öz doğma torpağından qaçqın düşməsinə səbəb olmuşdur.

Hekayədə Xocalı soyqırımının qurbanlarından söz açılır. Əsərin qəhrəmanı Zeynəb körpəsini düşməndən xilas etmək üçün hər cür fədakarlığa hazırdır. Nə könüllü döyüşçünün ölümünə, nə də diri-diri basdırılan soydaşlarımızın taleyinə laqeyd qala bilməyən Zeynəb amansızlıqla qətlə yetirilmiş günahsız insanların qisasını almaq üçün özündə güc tapa bilir.

Ürəyindən keçənləri qəhrəmanın tez-tez dilinə gətirməsi, keçmişdə olanları xəyalında canlandırması onun bitkin obrazını yaratmaq üçün yazıçının istifadə etdiyi bədii vasitələrdir. Hekayədə epitet, bənzətmə kimi təsvir vasitələrinə də müraciət olunmuşdur. Əsər üzərində müşahidələri davam etdirin, bu vasitələrin rolunu aydınlaşdırmağa çalışın.

### Araşdırın. Fikirləşin. Cavab verin

1. Baş qəhrəmanın – Zeynəbin yaddaqalan obrazını yaratmağa yazıçı necə nail olmuşdur?
2. Zeynəb hansı xüsusiyyətlərinə görə oxucunun rəğbətini qazanır?
3. Düşmən obrazlarını səciyyələndirən başlıca cəhətlər, sizcə, hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.
4. Hekayədə işlənmiş bədii təsvir vasitələrinin fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın.

| Hekayədə işlənmiş bədii təsvir vasitələri | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| | |

5. Hekayə tanış olduğunuz nağıllardan hansı cəhətlərinə görə fərqlənir?
6. Əsər hansı mövzuda yazılıb?
7. Əsərdə yazıçının oxucuya çatdırmaq istədiyi əsas fikir – ideya, sizcə, nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

Mövzulardan birini seçib yığcam esse yazın.

a) Əsərdə təsvir olunan işğalçılara münasibətim.
b) Xocalı necə abadlaşdırılır?

## Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.

1. Xalqımız və dünya xalqları Xocalı soyqırımına necə qiymət vermişdir?
2. Azad olmuş Xocalının gələcəyi.

## Müstəqil iş

**Kitabxana və internetdən bəhrələnin.**

Kitabxana və ya internetdəki mənbələrdən istifadə etməklə suala cavab hazırlayın: Elçin Hüseynbəylinin Qarabağa həsr edilmiş hansı əsərləri vardır?

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün suallara cavab hazırlayın.**

1. Bu bölmədə ən çox xoşladığınız əsər hansı oldu? Səbəbini aydınlaşdırın.
2. “Müharibə insanlara fəlakət gətirir” fikri bu əsərlərdə öz əksini necə tapıb?
3. Bu əsərlər müharibə haqqındakı düşüncələrinizə nə əlavə etdi?
4. Öyrəndiyiniz hekayə nağıllardan hansı xüsusiyyətlərinə görə fərqlənir?

Bəxtiyar Vahabzadə

## ŞƏHİDLƏR

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü,
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də,
Yıxıb köləliyi ürəyimizdə,
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər,
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər.

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu ana yurdun,
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz şəklini çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər.

# UŞAQ DÜNYASI, UŞAQ TALEYİ

5

...

Doğma ədəbiyyatımızda, eləcə də dünya xalqlarının ədəbiyyatında uşaqlar üçün məzmunca bir-birindən fərqlənən çoxlu əsərlər yazılmışdır. Bu əsərlərdə balaca qəhrəmanların fərqli taleyindən, xarakterindən söz açılır.

*Bu bölmədə oxuyacağınız əsərlərdə qəhrəmanların taleyini diqqətlə izləyin. Onlardan hansının sizi daha çox düşündürdüyünü və bunun səbəbini izah edin.*

...





**ƏHMƏD CƏMİL**
**(1913–1977)**

· İlk şeirləri çap olunanda Əhməd Cəmilin heç 15 yaşı olmamışdı. Amma əsərlərindəki səmimilik, fikir aydınlığı onu tezliklə oxuculara sevdirdi...

Sonralar ədəbiyyat müəllimi işləyəndə də, başqa sahələrdə çalışanda da qələmi yerə qoymadı, yeni məzmunlu əsərlər yaratdı.

*Mehdi Hüseyn*

**Yada salın**

– Uşaqların həyatını, düşüncələrini, arzularını geniş əks etdirən hansı əsərləri oxumusunuz?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Müharibə vaxtı arxa cəbhədəki insanlar: babalar, nənələr, nəvələr hansı ümid və arzularla yaşayır?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## CAN NƏNƏ, BİR NAĞIL DE!

– Ay nənə, bir nağıl da de!
– Ömrüm-günüm, yat daha,
Hamısını indi desəm, nağıl qalmaz sabaha.
– Can nənə, de birini də.
– Ağrın alım, sözə bax.
Evimizdə səndən savay, gör heç varmı bir oyaq?
Gecə keçib, ev soyuyub, hənir gəlmir ocaqdan;

Taxt üstündə məstan pişik, odur, yatıb bayaqdan.
Ört üstünü, dərdin mənə, bax, eşikdə yel əsir.
– Qar yağırmı?
– Elə yağır... sazaq qılınctək kəsir...
Belə yağsa, qar sübhəcən yolu-izi örtəcək;
Kirpiklərin lap qovuşub, cırtdan bala, yat görək...
Nənə yığır düyünçəyə iynəsini, sapını,
Külək hərdən taqqıldadır pəncərəni, qapını.
Körpə çəkir təzə, güllü yorğanını üzünə,
Gözlərini yumur... amma yuxu getmir gözünə.
– Ay nənə, o kimdir elə pəncərəni bərk vurur?
– Heç kim deyil, yat, ay bala, yeldir, qarı sovurur...
Bir gizilti duyur uşaq vücudunda bu ara,
Həsrət qonan gözlərini zilləyərək divara,
Çarpayının baş ucunda öz əliylə asdığı
Şəklə baxır, fikrə gedir, qucaqlayır yastığı...
– Bəs, ay nənə, atam indi haradadır, görəsən?
– Bıy, başıma xeyir, oğul, yatmayıbsan hələ sən?!
– Axı, nənə, heç demirsən, atam haçan gələcək,
İndi onu səngərdə bəs üşütmürmü qar, külək?
– Ömrüm-günüm, körpə quzum, qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?
Atan yazır: – Hələ xoşdur bu tərəfdə havalar.
Deyir, oğlum darıxmasın, görüşərik bu bahar.
Bağçalarda çiçək açar gülöyşə nar, yasəmən,
Qaranquşla bir zamanda qayıdaram kəndə mən...
Heç darıxma, dərdin alım, atan gələr, o zaman
Sənə çoxlu nağıl deyər əsgərlikdən, davadan!
Di yat indi, gecə keçir...
– Onda, nənə, ay nənə!
Qoy kəsməyək ağ toğlunu, qalsın atam gələnə.
– Yaxşı, bala, qoy bağlarda çiçək açsın nar, ərik,
Sağlıq olsun, ağ toğlunu atan üçün kəsərik.
Mən eyvana xalı sallam, anan evi bəzəyər,
El qaydası süfrə açar, qohum-qonşumuz gələr.
Sən atanı qucaqlayar, üz-gözündən öpərsən,

Qoca baban saz kökləyib, nağıl deyər sübhəcən...
Körpə güldü... Həsrət dolu gözlərindən uçdu qəm,
Öpdü onun xəyalını indi özgə bir aləm:
Qaranquşlar uçub gəldi, açdı çiçək, güldü yaz...
Qucaqladı atasını, sonra kimsə çaldı saz...
Körpə özü hiss etmədən, onu yuxu apardı,
Çöldə isə bütün gecə külək tufan qopardı.

...

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkillərdə həyata keçirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Qarlı qış gecəsində hamı yatdığı halda, nəvənin gözlərinə niyə yuxu getmir?
   b) Sizcə, uşaq nə üçün nənəsindən nağıl danışmasını xahiş edir? O bu nağıllardan nə gözləyir?
   c) "Axı, nənə, heç demirsən, atam haçan gələcək,
   İndi onu səngərdə bəs üşütmürmü qar, külək?" misralarında hansı fikir ifadə olunmuşdur?
   d) Nənə nəvəsinə necə ürək-dirək verir?
   e) Nənənin arzuları uşaqda hansı hiss və düşüncələr yaradır?
   ə) Nənənin nəvəsinə məhəbbəti, qayğıkeşliyi hansı misralarda daha qabarıq əks olunub?
2. Şeir haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə fərdi olaraq yazın.

| Şeirdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək hazırladığınız bütün cavabları müzakirə edin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Evdə iş**

"Əsərin sonluğunu necə görmək istərdim" mövzusunda inşa yazın.

II dərs | Təhlil üzrə iş

**· Əsərlə bağlı açıqlamalar.**

Şeiri bədii cəhətdən maraqlı edən vasitələr çoxdur. Şair az sözlə iki yaddaqalan insan obrazı yaratmışdır: mehriban nənə, həssas nəvə... Atasının "şəklinə baxıb fikrə gedən", gözlərinə "həsrət qonan", "vücudunda gizilti duyan" nəvənin hisslərini başa düşmək çətin deyildir.

Nənə və nəvənin dialoqu vasitəsilə şair müharibənin insanlara gətirdiyi fəlakət, döyüşçü atalarını gözləyən balacaların həsrəti, kədəri barədə aydın təsəvvür yaradır. Şeirin üzərində müşahidələrinizi davam etdirin, şairin bədii vasitələrdən necə istifadə etdiyini aydınlaşdırmağa çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Nənənin xasiyyətindəki hansı cəhətlər diqqətinizi cəlb etdi? Fikrinizi əsaslandırın.
2. Nənə ilə söhbətində nəvənin xasiyyətindəki hansı cəhətlər üzə çıxır?
3. Nəvə yalnız nağıl həvəskarıdırmı? Fikrinizi nümunələrlə əsaslandırın.
4. Şeirdə işlənmiş bədii təsvir vasitələrinin fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın. Cədvəldən istifadə edin.

| Hekayədə işlənmiş bədii təsvir vasitələri | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| | |

5. Şeir hansı mövzuda yazılıb?
6. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

1. Əsərin məzmununa uyğun illüstrasiya çəkin.
2. Azərbaycan döyüşçüsünə həsr olunmuş bir mahnı üzrə təqdimat hazırlayın. Həmin mahnını seçməyinizin səbəbini aydınlaşdırın.

## Evdə iş

Şeirdən bir parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.

## Müstəqil iş

**Kitabxana və internetdən bəhrələnin.**

Kitabxana və ya internetdəki mənbələrdən istifadə etməklə "Qarabağda aparılan quruculuq işləri" mövzusunda təqdimat hazırlayın.



**MARK TVEN**
**(1835 –1910)**

· Vətəni Amerikada Mark Tven kimi tanınan Semuel Klemensin uşaqlığı fərəhsiz keçmişdir. 12 yaşından ağır işlərdə çalışmış, çətin günlər yaşamışdır...

Onun sənətkar kimi bir mühüm üstünlüyü dünyaya uşaqların gözü ilə baxmağı bacarması idi. Bu, Mark Tveni uşaqların sevimli yazıçısı etmişdir.

*İsmayıl Şıxlı*

**Yada salın**

– Dəcəl, səmimi, eyni zamanda cəsarətli uşaqlar haqqında hansı əsərləri oxumusunuz?
– Bu əsərlərin qəhrəmanlarında diqqətinzi cəlb edən hansı cəhətlər olub?

**Düşünün**

– Uşağın dəcəlliyindən doğan bütün hərəkətlərinə haqq qazandırmaq olarmı?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## FƏRASƏTLİ OĞLAN
*("Tom Soyerin macəraları" əsərindən)*

– Tom!

Cavab vermir...

– Çox qəribədir, görəsən, bu uşaq harada itib-batıb! — Tom!

Cavab gəlmir.

Polli xala gözlüyünü burnunun ucuna endirdi və onun üstündən bütün otağı gözdən keçirtdi; sonra gözlüyünü alnına qaldırdı, onun altından otağı gözdən keçirtdi. O, bir dəqiqəliyə özünü itirdi, sonra yavaşcadan dedi:

– Bir dayan, əlimə keçərsən!..

Sözünü qurtarmamış əyildi, döşəmə fırçası ilə çarpayının altını axtarmağa başladı. Oradan pişikdən başqa, heç bir şey çıxara bilmədi:

– Belə də uşaq olar! Ömrümdə belə nadinc görməmişəm!

O, taybatay açılmış qapıya yanaşaraq kandarda dayandı və öz bostanını gözdən keçirtdi. Tom orada da görünmədi.

Onun arxa tərəfində yüngül bir xışıltı eşidildi, dönüb baxdı, qapıdan çıxıb əkilmək istəyən uşağın lap elə vaxtındaca aşırmasından yapışdı.

– Belədir ki var! Anbara baxmaq heç ağlıma gəlməyib. De görüm, sən orada nə edirsən?

– Heç bir şey.

– Heç bir şey? Bir əllərinə, ağzına baxsana. Bu nədir belə?

– Bilmirəm, xala.

– Amma mən bilirəm. Bu, mürəbbədir, bildinmi, mürəbbədir.

Çubuq yuxarı qalxdı, deyəsən, bu cəzadan yaxa qurtarmaq mümkün olmayacaqdı.

– Xala, bir ora baxın, o arxa tərəfinizdəki nədir?

Xala özünü təhlükədən qorumaq üçün cəld geriyə döndü. Uşaq isə bir anda uca hasarı aşıb gözdən itdi.

Tom məktəbə getmədi, öz vaxtını çox gözəl keçirtdi. Axşam yeməyinə yaxın evə döndü. Tomun kiçik, ögey qardaşı Sid ona tapşırılan işin hamısını görüb qurtarmışdı. O, sözəbaxan və sakit bir uşaq idi.

- Tom yaxasını cəzadan necə qurtardı?

Tom axşam yeməyini yediyi və fürsət düşdükcə qənddandan qənd çırpışdırdığı müddətdə Polli xala ona cürbəcür ağıllı və hiyləgər suallar yağdırırdı ki, bəlkə, Tom çaşıb ağzından bir söz qaçıra. O, Tomdan soruşdu:

– Tom, bu gün məktəbdə sənə çox isti deyildi ki?

– Bəli, xala.

– Bəlkə, çox isti idi?

– Bəli, xala.

– Bəs nə yaxşı çimmək həvəsinə düşməmisən, Tom?

Tomun ürəyi qopdu, nə isə bir iş baş verəcəyini hiss etdi. O, şübhəli-şübhəli Polli xalanın üzünə baxdı, lakin elə bir şey görə bilmədi. Ona görə də dedi:

– Yox, xala, o qədər də ürəyim istəmədi.

Polli xala əlini uzadaraq Tomun köynəyini yoxlayıb dedi:

– Hə, Tom, heç tərləməmisən.

Tomun köynəyinin quru olub-olmadığını bəhanə ilə yoxlaya bildiyini və bunun nə məqsədlə edildiyinin heç kəsin ağlına gəlməyəcəyini düşünmək ona ləzzət verirdi.

Lakin Sid məsələyə qarışdı:

– Mənə elə gəlir ki, siz onun yaxalığını ağ sapla tikmişdiniz, ancaq indi tikişin sapı qaradır.

– Əlbəttə, mən ağ sapla tikmişdim, Tom!

Lakin Tom söhbətin axırını gözləmədi. Özünü qapıdan bayıra salaraq qışqırdı:

– Yaxşı, Sid, gör sənin başına nə oyun gətirəcəyəm!

- Tom Sidi nə üçün hədələdi? Sizcə, Tomun köynəyindəki tikişin qara sapla olmasının səbəbi nə ola bilərdi?

* * *

...Hələ hava qaralmamışdı. Tomun qarşısında özündən azca böyük olan, tanımadığı bir oğlan durmuşdu. Oğlan həm də yaxşı geyinmişdi, işə bir bax, adi gündə o, yaxşı geyinmişdi! Lap qəribə idi! Onun başında təptəzə, yaraşıqlı şlyapa, əynində yaxası başdan-başa düyməlonmiş bəzəkli mahud gödəkcə, təzə şalvar var idi. Ayağına çəkmə geymişdi. Hətta boynunda al-əlvan lentdən qalstuku da var idi. Tom şux geyinmiş oğlanın qarşısında özünü sındırmır, burnunu daha dik tuturdu. Lakin öz yoxsul paltarı ona daha acınacaqlı görünürdü. Uşaqların heç biri dinmirdi. Biri yana bir addım atdıqda, o biri də həmin dairədə yana bir addım atırdı. Onlar bir-birinin gözünün içinə baxaraq uzun müddət üz-üzə durdular. Nəhayət, Tom dedi:

– İstəyirsən, səni möhkəmcə əzişdirim?

– Hünərin var əzişdir! Ancaq bu sən bacaran iş deyil.

– Dedim əzişdirərəm, bil ki, əzişdirərəm.

– Əzişdirə bilməzsən.

– Bilərəm.

– Yox, bilməzsən!

– Bilərəm.

Ağır bir sükut çökdü. Sonra Tom yenidən dilləndi:

– Sənin adın nədir?
– Sənə borcu qalmayıb.
– İstəsəm, mənə borcu qalar.
– Hə, nə oldu, bəs niyə vuruşmursan?
– Əşi, səndən vuruşan olmaz! Səndə o hünər hanı?!
– Deyəsən, baş apardın ha!
– Bir də səsin çıxsın, gör kərpiclə vurub başını necə əzirəm!
– Bəs niyə əzmirsən?
– Əzərəm, canını da alaram!
– Deyirsən, amma yerindən tərpənmirsən. Dil pəhləvanısan!

• Dil pəhləvanı kimə deyilir?

– Bəs niyə vuruşmursan? Qorxursan?
– Yox, qorxmuram.
– Lap elə qorxursan.
– Dedim ki, qorxmuram.
– Qorxursan.

Nəhayət, mübahisədən qızışmış və qıpqırmızı qızarmış halda onlar bir-birini buraxıb yana çəkildilər.

• Tom şux geyinmiş uşaqla nə üçün mübahisə edirdi?

Tom ayağının baş barmağı ilə tozda cızıq çəkib dedi:

– Hünərin varsa, bu xətdən bircə addım bu tərəfə keç, səni o qədər əzişdirərəm ki, öz adın da yadından çıxar. Di buyur görək!

Yad uşaq o saatca xətti keçərək dedi:

– Vur görüm, necə vurursan?
– İtələmə, yoxsa bu saat payını alarsan!
– Görərik, payımı necə verirsən! Bəs niyə vurmursan?
– İki sent ver, gör vururam, yoxsa yox!

Yad uşaq cibindən iki iri qara pul çıxarıb istehza ilə Toma uzatdı. Tom yumruqla onun əlindən vurub pulları yerə saldı.

Elə o saatca uşaqlar pişik kimi bir-birinə sarılaraq torpağın içində eşələnməyə başladılar.

Onlar bir-birinin saçını yolur, paltarını cırır, üz-gözünü cırmaqlayır, bir-birini yumruqlayırdılar. Bir azdan qarışıqlıq keçdi, məsələ aydınlaşdı, çarpışma dumanı içərisindən Tomun yad oğlanı altına basıb kötəklədiyi aydınca göründü.

– Tez ol, üzr istə, – deyə Tom yumruqlarını yenə də işə saldı. Nəhayət, yad oğlan boğuq səslə Tomdan üzr istədi. Tom onu buraxıb dedi:

– Bu, sənə dərs olsun. Bundan sonra bil ki, kimə əl qaldırırsan.



Şux geyinmiş oğlan, paltarının tozunu çırpa-çırpa gedir, hıçqırıb burnunu çəkə-çəkə: “Əlbət, gələn dəfə əlimə düşərsən, gör sənin başına nə oyun gətirəcəyəm”, – deyə Tomu uzaqdan-uzağa hədələyirdi.

Tom evlərinə çox gec qayıtdı, səssizcə dırmaşaraq pəncərədən içəri girdikdə Polli xalanın gizlənib onu güddüyünü gördü. Polli xala Tomun kostyumunun nə kökə düşdüyünü gördükdə şənbə günü istirahətdən məhrum edərək ona ağır bir iş tapşıracağını özünə möhkəm söz verdi.

• Tomun birgünlük macəraları nə ilə nəticələndi?

* * *

Şənbə günü gəlib çatdı. Tom əlində əhəng vedrəsi və uzun bir fırça səkidə göründü. O, barını gözdən keçirtdi, sifətindəki şən ifadə yox oldu: iş çox idi.

Tom fırçanı əlinə alıb işə başladı. Bir az keçmiş Ben Rocers küçənin tinində göründü. Tom hamıdan artıq onun istehzalarından qorxurdu.

Tom fırça çəkdiyi yeri bir rəssam gözü ilə nəzərdən keçirib, sonra ehtiyatla fırçanı həmin yerə bir də çəkdi və azca kənara duraraq öz işinə vüqarla tamaşa etdi. Ben dedi:

– Hə, dost, deyəsən, işləmək lazım gəlir, hə?

Tom tez ona tərəf dönüb dedi:

– Ben, sənsən, heç gəldiyini görmədim!

– Bura bax, Tom, mən çimməyə gedirəm. Sən istəmirsən? Yox əşi, sən, yəqin ki, işləyəcəksən, hə?

Tom diqqətlə Benin üzünə baxıb soruşdu:

– Sən iş nəyə deyirsən?

– Səncə, bəs bu, iş deyil?

Tom yenə də işini davam etdirərək etinasız cavab verdi:

– Nə bilim, bəlkə, işdir, bəlkə də, iş deyil! Ancaq bircə onu bilirəm ki, bu, Tom Soyerin ürəyindəndir.

– Əşi, burax görək! Guya barı ağartmaqdan çox xoşun gəlir!

– Xoşuma gəlir? Niyə də gəlməsin, bizim kimilərinə barı ağartmaq həmişə qismət olmur.

Bundan sonra iş sanki Benin gözündə dəyişib başqa şəkil aldı. O, alma gəmirməyindən əl çəkdi.

Birdən o dedi:

– Bura bax, Tom, ver bir az da mən ağardım!

– Sən bacarmazsan!

– Nə danışırsan, Tom, mən lap səylə ağardaram! Sən ver, bir təcrübə edim. İstəyirsən, almanın yarısını sənə saxlayım?

– Nə deyirəm... Amma yox, Ben, yaxşısı budur ki, əl vurmayasan. Mən Polli xaladan qorxuram.

– Almanın hamısını sənə verərəm!

- Tom Ben Rocersi işə necə cəlb etdi?

Tom üzdən könülsüz, lakin ürəyində bərk sevinərək əlindəki fırçanı verdi.

Ben yorulub gücdən düşəndə isə Tom kağızdan düzəldilmiş köhnə bir çərpələng müqabilində növbəni Billi Fişerə satdı. Yorulmuş Fişeri əvəz edən Conni Miller Toma bir ölü siçovul və ip verdi ki, siçovulun quyruğundan bağlasın, fırlatmaq asan olsun. Beləliklə, saatlar ötür, uşaqlar bir-birini əvəz edirdi. Yoxsul, əmlaksız Tom günortaya qədər tamamilə varlanıb cah-calal içərisində üzdü. Yuxarıda saydığımız qiymətli şeylərdən başqa, onun on iki kürəciyi, gözə tutub baxmaq üçün göy butulka sınığı, heç bir şeyi açmayan açarı, bir parça təbaşiri, büllur qrafin qapağı, bir gözü kor pişik balası var idi. Əgər onun əhəngi qurtarmasaydı, şəhərin bütün uşaqlarını müflis edəcəkdi...

- Polli xaladan barını ağartmaq tapşırığını alan Tom işi necə başa çatdırdı?
- Barını uşaqlara ağartması Toma nə qazandırdı?

Tom Polli xalanın yanına gəldi.

– Xala, mən indi oynamağa gedə bilərəmmi? – deyə ona baxdı.

– Necə, işini qurtarmısan? Nə qədər ağartmısan ki?

– Hamısını, xala.

– Tom, özündən söz düzəltmə, mən belə şeyləri xoşlamıram.

– Mən söz düzəltmirəm, xala, hamısını qurtarmışam.

- Polli xala Toma nə üçün hədiyyə verdi?

Tomun parlaq müvəffəqiyyəti Polli xalanı elə heyrətləndirmişdi ki, uşağın qolundan yapışıb düz anbara apardı, ən iri almanı seçib ona bağışladı. Tom fürsət tapıb bir qoğal da çırpışdırdı.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə mətnkənarı suallara cavab hazırlayın.
2. Parta yoldaşınızla birlikdə əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
3. Kiçik qruplarda birləşib, tərtib etdikləriniz də daxil olmaqla, bütün sualların cavabı ilə bağlı fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
5. Əsəri hissələrə ayırıb ad verin, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin.

**Evdə iş**

Əsərdən seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında iki formada – yığcam və geniş danışmağı öyrənin.

**II dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

“Tom Soyerin macəraları” dünyada ən çox oxunan əsərlərdəndir. Onu həm böyüklər, həm də uşaqlar maraqla oxuyur.

Tomun Polli xalaya, Sidə, həmyaşıdlarına münasibəti müxtəlif səhnələrdə aydın görünür. Xasiyyətindəki bir çox cəhətlər Tomu yaşıdlarından fərqləndirir. Həmin cəhətləri aydınlaşdırmağa çalışın.

Əsər üzərində müşahidələrinizi davam etdirin, Tomun balaca oxucuların sevimli qəhrəmanı olmasının səbəbi barədə düşünün.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Tomun xarakterindəki başlıca cəhətlər hansılardır? Suala cavab verərkən əsərdən gətirdiyiniz nümunələrdən istifadə edin.
2. “Polli xala Tomla amansız rəftar edir” fikrinə necə münasibət bəsləyirsiniz?
3. Tomla Sidi bir-birindən fərqləndirən cəhətlər hansılardır? Venn diaqramından istifadə edin.
4. Bədii təsvir vasitələrinin əsərin təsir gücünün artmasındakı rolunu aydınlaşdırın.
5. Əsər hansı mövzuda yazılıb?
6. Əsərin əsas ideyası, sizcə, nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

**Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**

1. Tom nə üçün uşaqların sevimli qəhrəmanıdır?
2. Əsərə çəkilmiş illüstrasiyaya diqqət yetirin. Tom, Polli xala və uşaqların şəkli təsəvvürlərinizə uyğundurmu? Nə üçün?

## Evdə iş

Kitabxanadan və ya internetdəki mənbələrdən topladığınız məlumat əsasında aşağıdakı mövzuda təqdimata hazırlaşın: *M.Tvenin uşaqlar üçün yazdığı əsərlər.*

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün suallara cavab hazırlayın.**

1. Bu bölmədə ən çox xoşladığınız əsər hansı oldu? Səbəbini aydınlaşdırın.
2. Uşaqlar haqqında müxtəlif mövzularda əsərlərin yazılmasının səbəbini necə izah edərsiniz?
3. Uşaq dünyası, uşaqların hiss və düşüncələri, sizcə, bu əsərlərin hansında daha inandırıcı və təsirlidir?
4. Bu əsərlər sizdə daha çox hansı düşüncələr yaratdı?
5. Kitabxanadan uşaqlar haqqında əsər seçib oxuyacaqsınızmı? Nə üçün?

# ƏMƏYƏ MƏHƏBBƏT, ZƏHMƏTƏ ÇAĞIRIŞ

6

Ətrafda gördüklərinizin əksəriyyəti insan əməyinin məhsuludur. Böyük şəhərlər salan, uca binalar tikən, qeyri-adi körpülər quran, gözəl bədii əsərlər yazan, təravətli mahnılar, maraqlı filmlər yaradan insandır. İnsan əməyi həyatı gözəlləşdirir, rahat və maraqlı edir. Əmək həm də insanın özü üçün əhəmiyyətlidir, vacibdir.

*Bu bölmədəki əsərlərin əməklə bağlı düşüncələrinizə yeni nə əlavə etdiyini sonda aydınlaşdırmağa çalışın.*





**NİZAMİ GƏNCƏVİ**
**(1141-1209)**

· Nizaminin əsərlərində zəhmət adamlarından hörmət və məhəbbət hissi ilə danışılır. Onun əsərlərində biz bir çox zəhmət adamlarının: kərpickəsənlərin, əkinçilərin, bənnaların, çobanların, bağbanların parlaq surətlərinə rast gəlirik.

*Səməd Vurğun*

**Yada salın**

– İnsanların əməyə fərqli münasibətini əks etdirən hansı əsərləri oxumusunuz?
– Həmin əsərlərdə əmək və əməkçi insanla bağlı hansı fikirlər diqqətinizi daha çox çəkib?

**Düşünün**

– İnsanların əməyə fərqli münasibət bəsləmələrinə səbəb, sizcə, nədir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## KƏRPİCKƏSƏN KİŞİNİN DASTANI
*(ixtisarla)*

Şam şəhərində xeyli qoca bir kişi vardı,
Pəri kimi, cin kimi camaatdan qaçardı.
Toxuyardı özünə yaşıl otlardan köynək,
O, ruzi qazanardı hər gün kərpic kəsərək...
Öz işinə məşğulkən bir gün o qoca kişi,
Fələyin öz əliylə bir daha artdı işi.
Birdən-birə bir cavan oğlan göründü gözə,
Qocanın qarşısında durub başladı sözə:
“... Torpağın qalxanına qılınc vurma bu qədər,

Qalx ki, səndən bir qarın çörək əsirgəməzlər.
Bu kərpicin qəlibi yansın deyə oda at!
Başqa bir sənət tapıb işlə, muradına çat!
Nə vaxtadək zəhmətlə daş, kəsək əzəcəksən?
Sudan, palçıqdan əldə nə hasil edəcəksən?
Qocasan, tut özünü ahıllara bərabər,
Cavanların işini cavanlara da qaytar".
Qoca dedi: "Cavansan, belə cahillik etmə!
Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə!..
Onunçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.
Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,
Əlimin zəhmətilə toxdur gözüm, deyil ac.
Məni bu ruzi üçün günahkar sayma, bəsdir,
Düşünsən, bilərsən ki, dediklərin əbəsdir".
Cavan oğlan sarsıldı qocanın bu sözündən,
Orda durmadı, getdi, yaş axıdıb gözündən.
Dünyagörmüş adamdı söylədiyim bu qoca,
Öz işiylə hamının gözündə oldu uca.

*(Tərcümə edən: Süleyman Rüstəm)*

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Əsərdə təsvir olunan qoca kişi hansı cəhətlərinə görə diqqət çəkir?
   b) *Öz işinə məşğulkən bir gün o qoca kişi,*
   *Fələyin öz əliylə bir daha artdı işi*

misralarında ifadə olunan fikri necə başa düşürsünüz?
   c) Cavan oğlan qoca kərpickəsənə hansı məsləhəti verir? Suala əsərdəki sözlərdən istifadə etməklə cavab verin.
   d) Kərpickəsən kişi cavan oğlana necə cavab verir? Suala əsərdən nümunələr göstərməklə cavab verin.
2. Parta yoldaşınızla birlikdə əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.

3. Kiçik qruplarda birləşərək tərtib etdikləriniz də daxil olmaqla, bütün sualların cavabı ilə bağlı fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

### Evdə iş

Əsərin məzmunu ilə səsləşən atalar sözləri seçin. Şifahi təqdimat zamanı seçiminizi əsaslandırın.

### II dərs — Təhlil üzrə iş

- **Əsərlə bağlı açıqlamalar.**

Bu əsər həmişə oxucuların marağına səbəb olub. Adətən, dünyagörmüş qocalar cavanlara nəsihət verər, onları səhv hərəkətlərdən çəkindirər. Şeirdə isə əksinədir, cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. Lakin qocanın cavabı cavan oğlanı öz hərəkəti barədə düşünməyə sövq edir.

Əsərin üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən və oxucunu düşündürən cəhətləri aydınlaşdırmağa çalışın.

### Araşdırın. Fikirləşin. Cavab verin

1. Kərpickəsən kişinin xarakterindəki başlıca cəhətlər hansılardır? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.
2. Cavan oğlanın qoca kişiyə dediyi sözlər onun xasiyyətindəki hansı cəhətləri üzə çıxarır? Fikrinizi əsaslandırın.
3. Gəncə sərt cavab verən qocanı haqlı saymaq olarmı? Onun cavabındakı hansı fikir sizə daha maraqlı göründü?
4. Qocaya və cavan oğlana necə münasibət bəsləyirsiniz? Fikrinizi misallarla əsaslandırın.
5. Əsər hansı mövzuda yazılıb, sizcə, onun əsas ideyası nədir?

### Tətbiq. Müzakirə. Yaradıcı iş

"Nizami Gəncəvinin "Kərpickəsən kişinin dastanı" əsərindəki ideya bu gün əhəmiyyətlidirmi?" mövzusunu müzakirə edin.

## Evdə iş

"Xalq rəssamı M. Abdullayev kərpickəsən qocanı və cavan oğlanı necə təqdim etmişdir?" mövzusunda yığcam esse yazın.



*Mikayıl Abdullayev.* "Kərpickəsən kişinin dastanı" (fraqment)



**SÜLEYMAN RƏHİMOV**
**(1900 –1983)**

· Bizdə – yazıçılar nəslində Süleyman Rəhimov qədər zəngin həyat materialına və keçmişimizə bağlı olan ikinci bir şəxsiyyət tapmaq çətindir. Bu, yazıçı üçün böyük xoşbəxtlikdir.

*Mir Cəlal*

**Yada salın**

– Əməksevər insan obrazlarının yaradıldığı hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Əməyin, zəhmətin yüksək dəyərləndirilməsinin səbəbi, sizcə, nədir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## QARA TORPAQ VƏ SARI QIZIL
*(ixtisarla)*

Evi kəndin qırağında olan Qurban kişinin güzəranı ağır keçirdi. Buna görə də o özünü oda-közə vurur, nəinki təkcə gündüz, hətta gecə də əlləşirdi. Qurban çox az yatırdı. Öz qeyrətinə sığışdıra bilmirdi ki, onun eyvanı odunsuz, bucağı unsuz, ocağının üstü sacsız, qazansız qalsın. O nə ala öküzün, nə də kəhər yabının yedəyindən əl çəkirdi. Bunlar gecəli-gündüzlü qan-tərə bata-bata işlədiyi halda, onun üç oğlundan heç birisi işləmir, əlini ağdan-qaraya vurmur, "ver yeyim, ört yatım, gözlə canım çıxmasın!" – deyib veyillənirdi.

Söz-sözə gələndə böyük kiçiyə, kiçik də ortancıla buyururdu. Onların üçü də gün yağlanandan sonra yuxudan oyanır, olan-olmazından yeyir, kənd arasına çıxır, dolanıb gəzirdilər. Dünyadan gedən arvadından sonra çöl işi bir yana, ev işi də Qurbanın boynuna düşmüşdü. Qurban dəyirman çarxı kimi bu ağır işlərin altında fırlanır, evin əzab-əziyyətini təkcə çəkirdi.

Qışın oğlan çağında yabısını yedəyinə alıb meşəyə yollanır, tir kəsib odun doğrayır, yabısına yükləyir, aran kəndlərinə aparır, darıya, düyüyə verib evinə gətirirdi. Ortasına örkən gəlməz palıd ağaclarından kəsir, taxta çıxarır, baha qiymətə satır, dizləri şalvarlarından çıxan oğlunun üçünə də yaraşıqlı geyim alır, dost-düşmən içində başını aşağı salmaq istəmirdi. Yaz gələndə Qurban ala öküzü qoyub ortaq olur, çala yerini əkirdi. Bu zaman üç oğlundan heç birisi nə hodağa gedir, nə xışın dəstəyindən yapışır, nə toxum daşıyır, nə də bir saxsı su gətirib işə-gücə yarayırdı...

Qurbanı belə bir fikir narahat eləyirdi ki, bəs ondan sonra uşaqlar necə olacaqlar? Bəs nə təhər olsun ki, uşaqlar onun-bunun ocağının qırağını kəsməsinlər, əl açıb dilənməsinlər? Bu dərd onu əldən salıb üzürdü. Qurban dərd əlindən zara gəlsə də, işindən qalmır, yazda dəryaz çalıb yabısına, öküzünə ələf toplayır, yayda çin götürüb aranlara enir, payızda taxıl təmizləyib dəyirmanlıq edir, qışda da odun aparıb satırdı.

Vaxtından əvvəl saqqalı ağaran, beli bükülən atanın çuxura düşmüş gözləri gah böyük oğlu Şahməmmədə, gah ortancıl oğlu Xanməmmədə, gah da Bəyməmmədə zillənirdi. Bu vaxt Qurban kəndi cəzana gətirən əzazil pristavı öldürəndən sonra Sibirə sürgün edilən, orada tələf olan igid qardaşlarının adına yaraşdırıb, arzu-ümidlə oğullarına qoyan arvadı Hürzadı xatırlayır, ürəyi odlanır, tüstüsü təpəsindən çıxırdı.

Ancaq Qurban qeyrətinə boğulub, dost-düşmən qabağında min məşəqqətlə daşdan çörək çıxarıb gətirsə də, bir gün damın ortasında uzanıb qaldı, od-ocaq söndü, tüstü kəsildi. Qardaşların üçü də qış gecəsinin yarısına qədər qonşudakı dərviş nağılına qulaq asıb evə döndü. Qurban sabaha sağ çıxmayacağını yəqin edib onları yanına çağırdı:

– Vəsiyyətim var!

– Nə vəsiyyətin var, ata? – deyə oğlunun üçü də birdən soruşdu.

– Vəsiyyətim budur ki, ömrünüzdə dilənçi olmayın, özgəyə əl açmayın!

– Qoyduğun bu var-dövlətləmi? – deyə Şahməmməd mızıldandı, – bir ala öküz, bir də yabı?..

Qulağı böyük oğlunun sözünü alan Qurban:

– Mən sizə başqa var qoymuşam, – deyə gözlərini dörddirəkli damın hisli bacasına doğru çevirdi: – Qurtarmayan... tükənməyən... var qoymuşam...

– Bəs hanı o var, ata?

– Haradadır o qurtarmayan var, ata?

– Mən körpənə nə qoymusan, ata?

– Sən körpəmə, – deyə Qurban əlini qaldırıb kiçik oğlunun aşağı əyilmiş başında gəzdirdi, – çoxlu var qoymuşam...

– Dinməyin, qoy kişi vəsiyyətini eləsin, – deyə Şahməmməd sərtləşdi.

Qurban ömründə oğlanlarının bircə dəfə də yeyin danışdığını görməmişdi. Onun dodaqları qaçdı, istehzalı gülüşü göründü. Uşaqlar bir-birini didişdirə-didişdirə təkidlə soruşdular:

– Ata, haradadır o var?

– Ata, o var kimindir? – deyə bir-birinə macal vermədən acgözlüklə xəbər aldılar.

– Ata, vəsiyyətini elə!

Oğlunun üçü də quzu kimi mələdi. Qurban birtəhər əlini qaldırdı.

– Çala yerdə... – elə bil o danışmır, ömrünün tükənməz məşəqqətlərindən, min bir əzab-əziyyətindən şikayətlənirdi, – çala... yerdə...

– Çala yerdə nə, ata? – deyə oğlunun üçü də can çəkişdirən kişini sıxcaladılar.

– Çala yerdə... Bir... küp... qızıl...

Qardaşların hərəsi bir cür mızıldandı:

– O boyda çala yerin harasında?

– Çala yerin ortasında, qırağında?

– Bəlkə, ağ qayanın dibində?

Qurbandan səs-səmir gəlmədi. Susdu, özü də əbədi susdu...

Kəsmək bilməyən qar meşəli dağları basdı, çovğun gücləndi, hər yandan silinib-süpürülən qar Qurbanın çala yerinə doldu. On

gündən sonra çala yerdə qardan ağ bir dağ ucaldı. Üstündən bir qədər keçdi, bir gün isti yel əsdi, qarı əritdi, şaxta düşüb suyu dondurdu. İndi də çala yerdən göy bir dağ əmələ gəldi. Qardaşlar çala yerə yaxın düşə bilmədilər, aclıq onları əldən saldı.

– Əlac sənə qalıb, Şahməmməd, – deyə ortancıl qardaşla kiçik qardaş böyük qardaşa üz tutdu, – atamız yerindəsən!

Böyük qardaş gərdənini dartıb dodaqlarını büzdü. Qardaşlar çəpləşdilər, dava-şava gücləndi. Atadan qalanları bölüşdürməyə başladılar.

– Öküz mənim, – deyə Şahməmməd soyuq səslə dilləndi, – yabı da ikinizin!

Qurbanın evində görünməyən bir narazılıq əmələ gəldi.

Nə ortancıl, nə də kiçik qardaş yabıya yiyə durmadı. Axırda yabını da, öküzü də bir-bir satıb yedilər.

Qardaşın üçü də ata mülkünün üstündə əlbəyaxa oldu, səs-küyə kəndin ağsaqqalı gəldi, qardaşları barışdıra bilmədi, qonşular toplaşdı, qardaşların ağzını bir yerə yığa bilmədilər.

Aclıq oğlanların üstünə qılınc çəkdi. Qardaşlar indi dil tapdılar. Əvvəlcə damın eyvanının ağac-uğacını satıb yedilər, sonra pəyənin pərdilərini una verib uddular.

"Göy dağ" əriməyə başlayan kimi qardaşın biri o birisinə macal vermədən, ala-qaranlıqda özünü çala yerə yetirdi. Onlar obanın cütü qoşulana qədər çala yeri qazmağa başladılar, hey o üz-bu üzə çevirdilər.

Beləliklə, çala yerin torpağı on dəfə o tərəf-bu tərəfə ələndi, nə küp tapıldı, nə də tək bircə dənə qızıl! Ancaq üç qardaşın üçünün də əli üç dəfə suluqladı, sonra dəmir kimi bərkidi. Onların fikri yüz yeri gəzib dolandı. "Bəlkə, küpü çıxarıb, qızılı aparıblar? Bəlkə, kişi qızdırma içində sayıqlayırmış?"

– Necə olsun, Şahməmməd? – deyə ortancıl qardaşla kiçik qardaş yenə də böyük qardaşı yaxaladılar.

Şahməmməd başını aşağı salıb fikrə getdi.

– Əlac atamızın mülkündən qalan mərəyi dəyər-dəymazinə satmaqdır, – deyib barmağı ilə çovustanı göstərdi, – daha havalar da qızır!

– Hava qızsa da, – deyə kiçik qardaş əl-ayağa düşdü, – bəs başımızı harada saxlayaq? Bizə bir daldanacaq lazımdır, ya yox?

– Başlı başını saxlasın, – deyə Şahməmməd qeyzlə cavab verdi.

– Daha mən sizin üçün ömrümü çürüdə bilmərəm. Hərə öz gününə ağlasın. Yoxsa dədəniz bilmirdi ki, qoyduğu var-dövlətlə siz necə olacaqsınız? Çala yerin qızıl küpü! – Şahməmməd əlini-əlinə vurub acı-acı güldü.

Uzun deyişmədən, bir-birinə ağır sözlər deyəndən sonra onlar mərəyi də satıb beş manat aldılar:

– Demək, bölüşürük.

Ortancıl dillənincə kiçik qardaş yerindən sıçradı:

– Toxuma verək, qardaşlar, toxuma. Səpək çala yerə! Yoxsa Qurbanın uşağını dilənçi eləmək istəyirsiniz? Yazıq atam ömründə nə qədər əzab çəksə də, bir adama baş əymədi!..

Kiçik qardaşın sözlərindən sonra böyük də, ortancıl da başını aşağı dikdi. Kiçik qardaş aradakı beş manatı çalıb götürdü, beş pud buğda aldı. Onlar toxumu aparıb çala yerə səpdilər. Bütün kənd heyran qaldı, kəndin çiyni çuxalı ağsaqqalı öz demisini sümürüb "hımm" elədi: "Yönlü oğul neylər ata malını, yönsüz oğul neylər ata malını?!"

Hamının əkdiyi toxumdan qabaq üç qardaşın toxumu cücərib torpaqdan çıxdı. Hamının yerindən qabaq üç qardaşın çala yeri göy gölə döndü. Çala yerdə buğda buğum-buğum olub sünbül açdı, dəniz kimi dalğalandı. Vaxt gəldi, vədə yetişdi, günəşin altında çala yer boya-boy, enə-en par-par parıldadı, qardaşların gözündə sarı sünbüllü torpaq bitməz-tükənməz qızıla döndü.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Qurban kişi nə işlə məşğul olurdu, bəs övladları günlərini necə keçirirdilər?
   b) O, övladlarına nə vəsiyyət etdi?
   c) Qurban kişi öləndən sonra övladları necə dolandılar?
   d) Qardaşların sonrakı taleyi necə oldu?

2. Parta yoldaşınızla birlikdə əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
3. Kiçik qruplarda birləşib, tərtib etdikləriniz də daxil olmaqla, bütün sualların cavabı ilə bağlı fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
5. Əsəri hissələrə ayırıb ad verin, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin.

## Evdə iş

Əsərdən seçdiyiniz bir parçanın məzmununu iki formada – yığcam və geniş nağıl etməyi öyrənin.

## II dərs Təhlil üzrə iş

- **Əsərlə bağlı açıqlamalar.**

Yazıçı öz qəhrəmanlarını oxuculara hərtərəfli tanıda bilir. Onların düşüncələri, danışıqları bir-birinə bənzəmir.

Hekayəni maraqlı edən yalnız əhvalatların, hadisələrin cəlbedici olması deyil. Yazıçının həssaslıqla seçib işlətdiyi sözlər, təsvir vasitələri əsərin bədii təsir gücünü birə-beş artırır, oxucu hekayədən ayrıla bilmir. Hekayədəki “özünü oda-közə vurmaq”, “dəyirman çarxı kimi ağır işlərin altında fırlanmaq”, “daşdan çörək çıxarmaq” kimi ifadələr Qurban kişinin ağır zəhməti barədə aydın təsəvvür yaradır. Əsərin üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən cəhətləri aydınlaşdırmağa çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Qurban kişinin xarakterindəki başlıca cəhətlər hansılardır? Suala cavab verərkən əsərdən gətirdiyiniz nümunələrdən istifadə edin.
2. Onu övladları ilə yumşaq rəftar etməkdə qınamaq olarmı? Nə üçün?
3. Qardaşlar xasiyyətlərindəki hansı cəhətlərə görə bir-birinə bənzəyirlər?
4. Qardaşların xarakterində fərqli cəhətlər varmı? Fikrinizi əsərdən seçdiyiniz misallarla əsaslandırın.
5. Əsərin bədii təsir gücünün artmasında təsvir vasitələrinin rolunu aydınlaşdırın. Fikrinizi nümunələrlə əsaslandırın.
5. Hekayə, sizcə, əfsanələrdən hansı xüsusiyyətlərinə görə fərqlənir? Venn diaqramından istifadə edin.
6. Hekayə hansı mövzuda yazılıb, onun əsas ideyası nədir?

## Tətbiq. Müzakirə. Yaradıcı iş

Öyrəndiyiniz hekayə nağıllara bənzəyir. Əhvalat və hadisələr aydın, şirin bir dillə çatdırılır, nağıllarda olduğu kimi burada da üç qardaşdan danışılır. Amma bu hekayə bir çox cəhətlərinə görə nağıllardan fərqlənir. Bu fərqi aydınlaşdırmağa çalışın.

## Evdə iş

Mövzulardan birini seçib işləyin.

1. "Qurban kişinin arzuları" mövzusunda şifahi təqdimat hazırlayın.
2. Təsəvvür edin ki, qardaşlar toxum almamış, taxıl əkməmişlər. Onların sonrakı taleyini yığcam (şifahi, yaxud yazılı) təsvir edin.

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün suallara cavab hazırlayın.**

1. Bu bölmədə ən çox xoşladığınız əsər hansı oldu? Səbəbini aydınlaşdırın.
2. Əmək mövzusunda çoxlu əsər yazılmasının səbəbini necə izah edərsiniz?
3. Bu əsərlər mövzu ilə bağlı düşüncələrinizdə hansı dəyişikliklər yaratdı?
4. Hansı əsərin sonluğunu fərqli görmək istərdiniz? Nə üçün?

Qiymətləndirmə materialı

Zahid Xəlil

## QABARLI ƏLLƏR

O, uzun çəkən ayrılıqdan sonra doğma kəndlərinə qayıdırdı. Evlərinin qapısı bağlı idi. Qonşudan – Cəfər kişidən anasının bir ay əvvəl rəhmətə getdiyini eşidəndə gözləri doldu. Bir müddət susdu, gözləri yol çəkdi. Öz-özünə danışırmış kimi:

– Demək, belə. Özümü vaxtında çatdıra bilmədim, – dedi.

Cəfər kişi dedi:

– Səni çox gözlədi, ay oğul. Düzdür, bilirdi ki, uzaqdasan, yad yerlərdəsən, gəlib-getmək imkanın yoxdur.

O, indi anası haqqında danışmağa, dərdini bölüşməyə bir ehtiyac duyurdu:

– Mən tələbə olanda işə düzəlmək fikrinə düşmüşdüm. Anamın min əziyyətlə qazandığı bir tikə çörəyə daha ortaq olmaq istəmirdim. Lakin anam işləməyimə razı olmadı. Sonradan eşitdim ki, anam mənə kömək etmək üçün özünü oda-közə vurar, gecə-gündüz tarlada çalışar, ən ağır işlərin qulpundan yapışarmış.

İnstitutu qurtaran kimi məni bir neçə illiyə xarici ölkəyə işləməyə göndərdilər. Bu illər ərzində anamı bir gün də unutmadım. Neçə dəfə ona dəyməkdən ötrü icazə almaq istədim, amma mühüm dövlət tapşırığını yerinə yetirdiyim üçün icazə vermədilər. Onu hər gün xatırlayırdım. Ən çox da il boyu tarlada kətmən vurmaqdan, alaq eləməkdən cadar-cadar olmuş qabarlı əlləri yadıma düşürdü.

Yadımdadır, evdə yeməyə heç nə yox idi, ac yatmışdım. Səhərə az qalmış yuxudan oyandım. Anam kirkirə ilə buğda unu çəkirdi.

Professor ağır-ağır sözünə davam etdi:

– Anam kirkirəni bir anlıq saxlayıb mənə baxdı. “Bir az da döz, yatmağa çalış. Səhər sənə çörək bişirəcəyəm”, – dedi. Onun yanında bir topa buğda başağı var idi. Başa düşdüm ki, anam aclığıma dözməyərək gecə ikən tək-tənha kənddən aralı təzəcə biçilmiş taxıl zəmisinə gedib, sahənin kənarına tökülmüş başaqları ay işığında bir-bir toplayıb. Yorğun olsa da, yatmayıb mənə çörək bişirmək üçün indi həmin başaqları üyüdürdü.

Kirkirənin yanındaca yerə çökdüm. Anam, adəti üzrə, əllərini saçlarımda, üzümdə gəzdirdi. İşləməkdən kobudlaşmış əllərinə, qabarlı barmaqlarına baxdım... Qəhər məni boğdu.

Cəfər kişi onu ovundurmaq üçün nə isə şirin söz demək, canıyananlıq etmək istədi. Professor isə öz aləmində idi. Xəyal onu yenidən keçmişə – uşaqlıq illərinə aparmışdı. Atası dünyasını dəyişəndə onun hələ heç yeddi yaşı tamam olmamışdı... Bir az böyüyəndən sonra çöl işlərində anasına kömək etdiyi günlər də yadına düşdü.

Professor aramla danışmağa başladı:

– Evimizdə un olanda anamın təndirdə bişirdiyi çörəyin ətri qonşunun da həyətinə yayılardı. O, təzəcə təndirdən çıxmış, qızarmış isti çörəyi əlimi yandırmamaq üçün bir parçaya büküb qoltuğuma vurar, qonşularımıza – nənə ilə Vəsiləyə pay göndərərdi.

Cəfər kişi onu qəbiristanlığa gətirdi. Professor qara mərmər üzərində qabarlı əlləri ilə kirkirə çəkən anasının şəklini görəndə donub qaldı. O, nə qədər çalışdısa, göz yaşlarını saxlaya bilmədi, pıçıltı ilə:

– Məni bağışla, ana, – dedi, – çox gecikdim, borcumu verə bilmədim.

# TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI

7

Çox vaxt "ana təbiət", "doğma təbiət" deyirik. Bu, təbiətin insan üçün əhəmiyyətli olduğunu ifadə edir. Təbiətin insan qayğısına ehtiyacı var. Eləcə də təbiətin varlığı, təbiətdə olanlar insanın yaşaması, həyatını davam etdirməsi üçün çox vacibdir. Bədii ədəbiyyatda doğma təbiətin gözəlliyi ilə yanaşı, onun qayğısına qalmağın vacib olması da geniş əksini tapıb.

*Bu bölmədə təbiətə həsr edilmiş əsərlərlə tanış olacaqsınız. Həmin əsərlərdə təbiətə fərqli münasibət görəcəksiniz. Bunun səbəblərini aydınlaşdırmağa çalışın.*





**ABDULLA ŞAİQ**
**(1881–1959)**

· O, uşaq əsərləri ilə yeni nəsillərə dil açmağı, göz açmağı, həyatı, insanları tanımağı, sevməyi öyrədirdi... Abdulla Şaiqin əsərlərində vətəninə, xalqına sonsuz vurğunluq əksini tapıb.

*Mikayıl Rzaquluzadə*

**Yada salın**

– Vətənimizin bənzərsiz təbiəti, nadir heyvan və quşlar aləmi barədə hansı əsərləri oxumusunuz?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– İnsanın təbiətə qayğı və sevgisi nə üçün lazımdır?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## KÖÇ

*(ixtisarla)*

••• 1 •••

Mayın gözəl bir səhəri idi. Dan yeri yenicə ağarmağa başlamışdı. Yatağımda yatırdım. Birdən-birə anamın yavaşca: “Oğlum, qalx, yaylağa gedirik”, – deməsindən gözlərimi açdım. Anam başımı əlləri içinə alaraq bir də: “Qalx, oğlum! Səndən başqa, hamı hazırdır, arabamız da gəlib”, – dedi.

Dərhal dimdik qalxdım. Paltarımı geydim. Əl-üzümü yudum. Bir fincan çay içər-içməz pilləkənləri gup-gup başıaşağı endim. Öküz arabası qapımızın ağzında durur, arabaçı Salman kişi də

şeyləri üsulluca arabaya yerləşdirirdi. Ailəmizin hamısı aşağıda idi. Hətta "Mərmər" adlı ağ pişiyimi, sarı, iri toyuğumu cücələri ilə bərabər bir səbət içində götürmüşdük. Sevinirdim... Hamımız arabaya doluşduq. Salman kişi də arabanın boynuna oturdu. Araba hərəkət etməyə başladı. Atam da ata minib yanımızca gəlirdi. Şəhərin iri, geniş küçələri ilə gedirdik. Hər zaman gözümüzün alışdığı geniş küçələr, böyük evlər, iri şüşəli mağazalar...

- Yaylağa getməkdə ailənin məqsədi nə idi?

Araba şəhərdən çıxarkən günəş yenicə çırtır, şəfəqi bürüyən qırmızılıqdan üfüqlərdə dağ silsiləsi kimi görünən buludlar əlvan rəngə boyanırdı.

Şəhərin səsli, gurultulu küçələrindən, isti havasından get-gedə uzaqlaşırdıq.

Arabamız iki tərəfi ağac, əkin və bostanla bəzənmiş bir yolla gedirdi.

Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti var. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava başqalaşır, insan ürəkdolusu nəfəs alır. Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu ...

Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq, çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü. Artıq yetişmişdik...

Arabamız bir alaçığın ağzında durdu. Yerə endik... Bizi keçədən qayrılmış bir alaçığa gətirdilər. Bir anda kənd qadınları və uşaqları ətrafımızı aldılar.

Qadınlar anamla öpüşür, danışır, gülüşürdülər. Uşaqlar isə inci kimi düzülmüş ağ dişlərini göstərərək mənimlə danışmaq, oynamaq istədiklərini anladırdılar.



*Səməd Haqverdiyev.* "Doğma diyar"

Mən isə utancaq bir uşaq olduğumdan anamın yanında büzüşüb durur, arabir onların təbəssümlərində iştirak edir kimi görünürdüm. Atam da alaçığın böyründə Kərim baba ilə köhnə bir palazın üstündə oturub söhbət edirdi. O gün hava çox isti idi.

Az sonra atam Kərim babadan soruşdu:

– Ay Kərim, bizim alaçıq üçün çubuq hazırlamısanmı?

Kərim baba soyuq bir halda:

– Bilmirəm, bu oxumuşların səbri nə üçün az olur? İndi gəlmisiniz, nə xəbər? – dedi.

Atam:

– Vaxt keçir, hər halda, alaçıq hazır olmalıdır, – dedi.

- Kərim baba nə üçün alaçığın hazır olması ilə bağlı narahat deyildi?

Kərim baba sakitcə:

– Nəyinə gərək, axşama qədər sən alaçığını məndən istə, mənim əlimdə o nə çətin işdir?!.

Atam Kərim baba ilə alaçıq qurmağa getdi. Alaçığımız obadan bir az uzaq, atamın bəyəndiyi axar-baxarlı, gözəl bir yerdə quruldu. Bir saat sonra alaçığımıza köçdük.



*Toğrul Nərimanbəyov.* "Yaylaqda"

Bu yerlərin səhərləri, axşamları mənə hər şeyi unutdururdu. Axşamlar qoyun-quzu mələşə-mələşə obaya dönərkən səsdən qulaq tutulurdu. Xüsusən yavaş-yavaş nəfəs alan səhərlərin, axşamların qanadları ucundan yayılan sərinlik, dağ çiçəklərinin, cökə ağaclarının rayihəsi, qoruqlarda, tarlalarda biçilmiş təzə otların gözəl ətri, meşənin axşamlara, səhərlərə məxsus rütubət qoxusu, bulaqların şırıltısı, quşların ötüşməsi, quzuların mələşməsi, itlərin hürüşməsi bir-birinə qarışaraq obaya başqa bir rəng, başqa bir şəkil verirdi. Bir saat əvvəl səssizlikdən ölgün kimi görünən təbiət birdən-birə canlanırdı, hər şeydə bir yenilik, bir təravət görünürdü. Bundan böyük məşğələ nə ola bilərdi?! Dəyənəyi əlimə alıb obaya gedirdim. Analarını əmməsinlər deyə quzuları bir ağıla doldururdular. Mən kənd uşaqları ilə ağıla atılıb o şux quzularla doyunca oynar, onlarla bərabər atılıb-düşərdim...

- Yaylaq həyatının şəhərli oğlana xoş gəlməsinin səbəbini necə izah edərsiniz?



*Qafar Seyfullayev.* "Dağlarda"

Qoyunlar sağılıb qurtardıqdan sonra ağılın ağzını açarkən ana-bala mələşə-mələşə qaçaraq bir-birinə qarışırdı. Həsrətlərinə qovuşmuş heyvancığazlar ayaqlarını bükərək, quyruqlarını oynada-oynada analarını əmərdilər. Obanı yenə də həzin bir sükut almış, yalnız ara-sıra çobanların səsi, itlərin hürüşməsi, uşaqların

bağırtısı eşidilirdi. Bu kiçik heyvanları sevdiyim kimi, çobanlarını da sevər, çox vaxtımı da onlarla keçirərdim. Onların sadə və sərbəst sandığım məişəti xoşuma gələrdi. Hətta o bəxtiyar bildiyim insanlara qibtə edərək: "Bu açıq, geniş obalarda, bu gözəl yamaclarda çoban olmaq pisdirmi?" – deyərdim. Mən də kiçik çomağımı alıb, çox zaman onlarla bir təpədə oturardım. Çobanlar tütək çalar, həzin mahnı oxuyar, keçmiş günlərdən və gələcəkdən dadlı-dadlı söhbət edərdilər.

• Şəhərli oğlan çobanları nə üçün bəxtiyar insan sayır?

••• 2 •••

Günlərin bir qismini də Kərim baba ilə keçirir, onun söhbətlərinə qulaq asırdım. Bir gün Kərim baba söhbətinə belə başladı:

– Bizim Borçalı meşələrində pələng olmadığını bilirsiniz; ancaq qabaq zamanlarda varmış. Qırx-əlli il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan meşəyə heç kəs getmirdi. Bir gün eşitdim ki, kəndin yaxınlığında pələng üç inək parçalayıbdır; ağlım başımdan çıxdı. Tüfəngimi götürüb getdim. Kəndlə pələngin dolaşdığı yerin arası beş ağac olardı. Dərəni aşdım. Aşağı uzanan daşlı-qayalı dağətəyi ilə meşənin içərisinə gedirdim. Günün elə vaxtı idi ki, günəş saralmağa, sular qaralmağa başlamışdı. Pələngi gözdən qaçırmamaq üçün yan-yörəmə baxırdım. Bir də nə gördüm?!

• Kərim babanın pələngi ovlamağa getməsinin əsl səbəbi nə idi?

Uzaqda iki göz məşəl kimi yanır. Baxdım, pələng idi, o da məni görmüşdü, pəncəsi ilə acıqlı-acıqlı yeri eşir, cırmaqlayırdı. Bir az da getmişdim ki, birdən-birə pələng yerindən atılıb bağıra-bağıra üstümə gəldi. Bir daşa söykənib tüfəngimi ona tərəf yönəltdim. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılar. Bu üç dəfənin heç birində ovlaya bilməsə, küsüb gedər. Qalxdığı yerdən iki dəfə üstümə atıldı, üçüncü dəfə, az qaldı, üstümə düşsün. Tüfəngimi dikəltdim, havada – üstümə gələrkən qolları arasından nişan aldım. Pələngdən elə bir bağırtı qopdu ki, səsindən dağ-daş titrədi. Gözlərim qaraldı, tüklərim ürpəşdi.

• Kərim baba nə üçün pələngin öz ovu ilə rəftarını onun "nəcib xasiyyəti" kimi dəyərləndirir?

Elə bil ağaclar, daşlar bir pələng sürüsü olub üstümə gəlirdi. O, iki-üç addım məndən aralı bir qaratikan kolu yanında yıxılıb nərildəyirdi. İki dəqiqədən sonra canını təslim etdi. Yaxınlaşdım. O igid heyvanı öldürməyimə peşman oldum, ürəyim kövrəldi, gözlərim yaşardı. Tüfəngimi bir tərəfə atıb qabağında diz çökdüm. Başını qollarım arasına alıb üzündən-gözündən öpdüm.

• Kərim baba pələngi öldürdüyünə nə üçün peşman olur?

••• 3 •••

Kərim baba söhbətdən doymur, hadisəni hadisəyə, xatirəni xatirəyə calayırdı:

– Mənim atam da gözəl ovçu idi. Nağıl edirdi ki, bir gün maral ovuna çıxmışdım. Dərədə bir maral ovladım. Çeşmə başında uzanıb yatmışdım. Bir də gözlərimi açanda nə gördüm? Dörd bir yanımı duman elə bürüyüb ki, bir addım qabaq görünmür. O gün evə qayıtmaqdan ümidimi üzdüm. Axşam olduğunu havadan bilmişdim. Kim bilir, nə qədər yatmışam; nə edəcəyimi bilmirdim. Düşündüm-düşündüm, axırda gecəni bir qaya altında keçirmək üçün yavaş-yavaş dağa dırmaşdım. Qabağıma bir mağara çıxdı. Durdum, mağaranın ağzından içəri baxdım. Bir şey görmədim, çarəsiz mağaraya girdim, az sonra yuxuya getdim. Bir də ağır xorultudan gözlərimi açdım: "Bu nədir? Məndən başqa, burada adammı var?" – dedim.

Dimdik oturub yan-yörəmi yoxlarkən əlimə bir heyvan quyruğu toxundu, pələng quyruğu idi. Mən mağaraya sığındığım zaman o, oyaq imiş. Çünki yatmış olsaydı, xorultusunu eşidərdim. Bu igid heyvanın məni bir qonaq kimi mağarasına qəbul etdiyinə şübhəm qalmadı. Özümü itirdim. Ancaq qorxmurdum, çünki bu heyvanın comərdliyinə əmin idim.

Gecəni pələnglə bir yerdə keçirtdim. Səhər dan yeri ağaranda mağaradan çıxıb, dünən maral ovladığım yerə gəldim. Maralın bir budunu mağaranın ağzına gətirib yavaşca içəri itələdim. O gün ovladığım maralın ətindən bişirib yedim. Günortadan sonra idi, kəndə tərəf döndüm. Mağaranın aşağı yanından keçirdim. Gördüyüm bir hadisə ayaqlarımı mismar kimi yerə mıxladı: dərənin içində bir pələng uzanmış, bir qurd da onun ətrafında tülkü kimi quyruq bulayırdı.

Məni heyrət aldı, yerdə oturub baxırdım. Qurdun pələngi tələf edəcəyini hiss etmişdim. Onu nişan alıb vurmaq istədim. Nədənsə,

fikrimdən vaz keçdim. Qurd bir də dərəni dolanıb, pələngə yaxınlaşanda onun boğazından yapışdı. Yazıq heyvan elə bağırdı ki, səsindən dağ-daş titrədi. Elə bildim ki, qayalar üstümə töküləcək. Beş-on dəqiqə o gözəl heyvan atılıb-düşəndən sonra hərəkətsiz qaldı. Təəccüblü idi ki, qurd yenə pələngin boğazını buraxmaq istəmirdi. Özü də heç tərpənmirdi.

Pələngin öldüyünü yəqin etdim, ancaq qurdun tərpənməməsindən heyrətdə idim. Tüfəngimi alıb dərəyə endim. Pələng ölmüşdü. Tüfəngin qundağı ilə qurdu nə qədər vurdumsa, tərpənmədi. Bu da murdar olmuşdu. Mən ancaq indi anladım ki, pələng dərədə uzanarkən qurd onunla üz-üzə gəlmiş, onun pəncəsindən qurtarmaq mümkün olmadığından ondan can qurtarmaq istəmiş, axırda da qorxudan bağrı yarılıb ölmüşdü.

**••• 4 •••**

Kərim babanın Qızıl adlı bir iti vardı. Gecə-gündüz bizim qapımızdan ayrılmazdı. Oba itlərini heç sevməzdim, çünki onların qorxusundan obada tək və azad gəzinə bilmirdim. Uzaqdan kölgəmi görüncə sürü ilə üstümə tökülüb hürərdilər. Bizim Qızılı özümə alışdırmaq ümidi ilə hər gün nə qədər çörək yedirdirdimsə, yenə də alaçıqdan çıxıb, bir yana getdiyimi görüncə kəsik qulaqlarını oynadaraq qalın, boğuq səsi ilə hürər, nəşəmi pozardı. Ona görə Qızılı da sevmirdim.

Bir gün alaçıqdan çıxarkən Qızıl üstümə düşüb hürməyə başladı. Əlimdəki dəyənəyimlə iti vura-vura qovdum. Kərim baba iti vurduğumu bir neçə dəfə görmüş, bir söz deməmişdisə də, xoşuna gəlmədiyini üz-gözündən duymuşdum. İndi isə mənə yaxınlaşaraq:

– Vurma, oğlum, – dedi, – bu mənim çörək ağacımdır. Bunun bir qardaş qədər mənə yaxşılığı keçibdir. Sən bunun indiliyini görürsən. Bir vaxt bunun qorxusundan evimizin yanından quş quşluğu ilə keçə bilməzdi. Bu itə beş yüz manat verən olub, verməmişəm. Hər küçüyünü otuz-əlli manata satmışam. Bunun nə qədər ağıllı, igid heyvan olduğunu bilsən, heç vurmazsan.

Kərim baba bu sözləri deyib, itin başını əllərilə oxşadı. Sonra yenə üzünü mənə tutaraq dedi:

– Qışlaqda idik, payızın aydın gecəsi idi. Qoyunları yamaca yayıb, bir daş üstündə uzanmışdım. Nə vaxt yatdığımı heç bilməmişəm. Oyandığım vaxt hava qaralmış, dövrəmi də qalın duman almışdı. Elə qaranlıq düşmüşdü ki, göz gözü görmürdü. Çomağı götürüb yerimdən qalxdım. Sürüdən xəbər yox idi. Qızılı çağırdım. Cavab vermədi. Dəli kimi o gecəni səhər etdim. Ancaq mənə ümid verən bu it idi, bilirdim, Qızıl sürüdən ayrılmaz. Dan yeri ağarar-ağarmaz uca bir təpə başına dırmaşdım. Aşağıya baxdım. Dumandan hər şey qara görünürdü. Yenə "Qızıl! Qızıl!" – deyə bağırarkən dərədən boğuq bir səs eşitdim. İldırım sürəti ilə dərəyə atıldım. O, sürünü iki təpə arasına yığmış, özü də yol ağzında durub hürür, məni səsləyirdi. Özümü Qızıla yetirdim. Məni görən kimi sevindiyindən quyruğunu sallayıb, qulaqlarını dikləyərək məni yalamağa başladı. Sürüyə qurd girdiyini o saat bildim. Sürünün içinə girəndə üç qurd ölüsü gördüm. İşin nə yerdə olduğunu anladım. Sürüyə qurd daraşanda Qızıl onlarla boğuşa-boğuşa sürünü bu iki təpənin arasına sıxışdırmış, burada qurdlara hücum edib, bir-bir onları boğub öldürmüşdü. Qızılın boynuna necə sarılmışam... Üzündən, gözündən necə öpmüşəm... Sonra kök bir qoçun quyruğunu kəsib qabağına atmışam.

Kərim babanın danışdığı bu əhvalatdan sonra Qızılla barışmış, səmimi bir dost olmuşduq.

Kənd həyatında, təbiətin o zəngin və geniş qucağında nə qədər canlı lövhələr, unudulmaz xatirələr vardır!.. Uşaqlıqdan qəlbimin dərinliklərində iz salmış o rəngarəng, o qiymətli və silinməz xatirələr!..

**I dərs** **Məzmun üzrə iş**

1. Əsərin ilk iki parçasının oxusundan (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə mətnkənarı suallara cavab hazırlayın.
2. Kiçik qruplarda birləşib hazırladığınız cavablarla bağlı fikir mübadiləsi aparın.
3. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Oxuduğunuz parçadan seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında yığcam nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

5. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) Kərim babanın danışdığı hadisələrdən hansı məndə daha güclü təəssürat yaratdı? Nə üçün?
   b) Hekayədə təbiətin gözəlliyi ilə bağlı hansı fikirlər diqqətimi daha çox cəlb etdi?

**Evdə iş**

1. Hekayənin ardını oxuyun.
2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

**II dərs** **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə onların məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşib, sualları və cavabları müzakirə edin.
4. Çıxardığınız nəticələr barədə təqdimatlar etməklə müzakirəni genişləndirin.
5. Oxuduğunuz parçadan seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.
6. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) Bu əsərdə hekayə janrına xas olan hansı xüsusiyyətlər var?
   b) Əsərdə oxuduqlarım təbiət haqqında bildiklərimə nə əlavə etdi?

**Evdə iş**

**1.** Dərslikdə verilmiş rəsm əsərləri əsasında yaylaq həyatı haqqında şifahi təqdimat hazırlayın.
**2.** Kitabxanadan və ya internetdən istifadə etməklə A.Şaiqin uşaq hekayələri haqqında məlumat toplayın.

**III dərs** **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Yazıçı bu hekayəni öz xatirələri əsasında yazmışdır. Əsərdə yurdumuzun təbiəti, yaylaq həyatı, zəhmət adamlarından söz açılır. Yazıçının fikrincə, təbiətin, heyvanlar aləminin sirlərini hər adam anlaya bilməz. Yalnız təbiətin qoynunda yaşayan, onu sevən, qayğısına qalan insanlar bu sirrə bələd ola bilər.

Əsərin qəhrəmanı olan uşaqda da təbiətə qayğıkeş münasibət birdənbirə yaranmır. O, yaylaq həyatını, sadə zəhmət adamlarının güzəranını, yaşlıların təbiətə münasibətini diqqətlə müşahidə edir. Bütün bunlar onun təbiətə münasibətinə öz müsbət təsirini göstərir.

Dilimizin zəngin imkanlarından, bədii təsvir vasitələrindən məharətlə istifadə edən yazıçı əsərdə doğma təbiətimizin gözəlliyi barədə aydın təsəvvür yaradır.

Hekayə üzərində müşahidələrinizi davam etdirin, onu oxunaqlı, maraqlı edən vasitələri aydınlaşdırmağa çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Əsərin qəhrəmanının – şəhərli oğlanın xasiyyətindəki başlıca cəhətlər hansılardır?
2. Kərim baba necə insandır? Onun təbiətə, quşlar və heyvanlar aləminə qayğıkeş münasibət bəsləməsinə səbəb nədir?
3. Əsərin qəhrəmanlarına: şəhərli oğlana və Kərim babaya necə münasibət bəsləyirsiniz? Fikrinizi əsaslandırın.
4. Fikrin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırın.
5. Hekayə hansı xüsusiyyətlərinə görə nağıllara bənzəyir?
6. Əsər hansı mövzuda yazılmışdır?
7. Onda ifadə olunmuş əsas fikir, sizcə, nədir?

## İfadəli oxuya hazırlaşın

Kərim babanın Qızılla bağlı danışdığı sonuncu əhvalatı bir daha oxuyun. Həmin hissədə Qızılın sürüyə daraşmış qurdlarla boğuşması, onları öldürməsi təsvir olunur. Bu əhvalatı danışarkən Kərim babanın səsindəki həyəcan sizin də səsinizdə aydın duyulmalıdır.

Həmin parçanın ifadəli oxusuna hazırlaşın, hisslərinizi necə çatdıracağınızı özünüz üçün aydınlaşdırın. Şərti işarələrdən istifadə edin.

## Evdə iş

Mövzulardan birini seçib digər fənlərdən və mənbələrdən topladığınız məlumat əsasında təqdimat hazırlayın.

1. Biz təbiət haqqında nə bilirik?
2. Doğma təbiətimizin hansı özəllikləri var?



**SƏMƏD VURĞUN**
**(1906 –1956)**

• Bu görkəmli xalq şairinin heç bir əsərini, heç bir misrasını...xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səməd Vurğunun özü kimi, əsərləri də, arzu və düşüncələri də qırılmaz tellərlə xalqa bağlıdır.

*Abdulla Şaiq*

**Yada salın**

– İnsanın təbiətə münasibətini əks etdirən hansı əsərləri oxumusunuz?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– "Təbiətdə faydasız heç bir şey yoxdur" fikrini doğru saymaq olarmı? Nə üçün?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## ÇİNARIN ŞİKAYƏTİ
*(ixtisarla)*

Dindi yol üstündə qoca bir çinar:
"Şairim, sənə bir şikayətim var:
Bu qoca dünyanın şahidiyəm mən...
Kölgəmdə dincəlir hər gəlib-gedən.
Bağçalar gül açır yaş torpağımda.
Quşların adı var hər yarpağımda.
Mən bu yer üzünə gələndən bəri
Olmuş budaqlarım hava səngəri.
Kötüyüm dünyanın sirrilə dolu,
Dolanmış başıma karvanlar yolu.
...Başımda oynamış min boranlı qış...
Sanma ki, qüdrətim, gücüm qalmamış.
Bax ayrılmamışam öz kötüyümdən!

Qəhrəman bir elin timsalıyam mən...
Bir kəs inciməmiş sakit dilimdən,
İnsana yaxşılıq gəlir əlimdən.
Yayda kölgəliyim dağlardan sərin,
Yaylağı olmuşam biçinçilərin.
Silmişəm onların alın tərini,
Sonra dinləmişəm can dəftərini.
Ağır səfərlərə çıxan bir nəfər
Tükənmək bilməyən uzun gecələr
Sığınmış qoynuma sözü var kimi
Örtmüşəm üstünü çadırlar kimi.
Bəzən də kükrəyib əsəndə külək
Coşur varlığımda polad bir ürək.
Qalın şaxlarımın xışıltısından
Zövq alır dünyanın şöhrəti insan.
Bəzən də bir sərin axşama yaxın
Ətəkli çöllərdən hey axın-axın
Qalxan dolaşalar qaqqıldaşaraq,
Dərələr keçərək, dağlar aşaraq
Başımın üstündə dövrələr vurur,
Bir yerə sıxlaşıb məclislər qurur.
...Bəzən də canlanır gündüzün səsi
Yığışır kölgəmə uşaq dəstəsi.
Baxdıqca böyüyür gözümdə insan,
Çəkdiyim ağrılar çıxır yadımdan.
Fəqət deyirlər ki, yoldaş mühəndis
Məni bir arxasız, yurdsuz, kimsəsiz
Zənn edib plana almışdır ki, mən
İndi çıxmalıyam öz kötüyümdən...
Demək, qalmayacaq məndən yadigar.
Ancaq mühəndisə bir sualım var:
"Ömründə bir şitil , bir budaq belə,
Mühəndis əkmişmi barı əlilə
Ki, məni – bu boyda çinarı birdən
Qoparmaq istəyir durduğu yerdən?"
Mən bu şikayəti duyduqca dərin,
Dedim ki, haqlısan, qocaman çinar!
Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, nə də haqqı var!

**I dərs** | **Məzmun üzrə iş**

1. Şeiri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) “Mən bu yer üzünə gələndən bəri, Olmuş budaqlarım hava səngəri” misralarındakı fikri necə başa düşürsünüz?
   b) “Kötüyüm dünyanın sirrilə dolu, Dolanmış başıma karvanlar yolu” misralarında hansı fikir ifadə olunub?
   c) “Bax ayrılmamışam öz kötüyümdən! Qəhrəman bir elin timsalıyam mən...” misralarındakı fikri necə izah edərsiniz?
   ç) “Bəzən də kükrəyib əsəndə külək, Coşur varlığımda polad bir ürək” misralarında ifadə olunmuş fikri necə aydınlaşdırarsınız?
   d) “Bizdə təbiətə zülm edənlərin, Nə insan duyğusu, nə də haqqı var!” misralarındakı fikri aydınlaşdırın.
2. Əsər barədəki düşüncələrinizi ikihissəli gündəlikdə yazın. Cədvəldən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Əsərdəki bədii təsvir vasitələrinin növünü dəqiqləşdirin.

| Əsərdən seçilmiş nümunələr | Bədii təsvir vasitəsinin növü |
|---|---|
| Ağır səfərlərə çıxan bir nəfər | |
| Coşur varlığımda polad bir ürək | |
| Örtmüşəm üstünü çadırlar kimi | |

4. Kiçik qruplarda birləşərək yerinə yetirdiyiniz bütün işlər barədə fikir mübadiləsi aparın.
5. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

**Müzakirə edin:** “İnsan təbiətdən səxavət gözləməməli, istədiyini ondan almalıdır” fikrini doğru saymaq olarmı?

**Evdə iş**

“Təbiətin yeniləşməsində və zənginləşməsində insanın rolu varmı?” mövzusunda təqdimata hazırlaşın.

**II dərs** | **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

Təbiət haqqında oxuduğunuz əsərlərin çoxunda doğma təbiətin gözəlliyindən, müxtəlif fəsillərdə aldığı bənzərsiz mənzərədən, insanda yaratdığı dərin hiss və duyğulardan söz açılıb. Təbiətə həsr olunmuş bir çox əsərlərdə isə ətraf aləmə: heyvanlara, quşlara, ağaclara, meşələrə qənim kəsilənlər ifşa olunur, kəskin tənqid edilirlər.

S.Vurğunun "Çinarın şikayəti" şeirində bizim bu gün də qarşılaşdığımız acı həqiqətdən – əzəmətli, vüqarlı ağacların kəsilməsi təhlükəsindən danışılır. Əsərin üzərində müşahidələrinizi davam etdirin, sənətkarın nə üçün həyəcan təbili çaldığını, təsvir olunanlara münasibətini, bədii təsvir vasitələrindən istifadə etməklə nəyə nail olduğunu aydınlaşdırmağa çalışın.

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Şeir təbiət mövzusunda oxuduğunuz əsərlərdən hansı cəhətlərinə görə fərqlənir? Fikrinizi nümunələrlə əsaslandırın.
2. Sizcə, çinar öz şikayətində haqlıdırmı? Nə üçün?
3. "Beşini basdırsan biri qalar, bir kötüklü ağacı qorusan, beş-altı pöhrə verər" fikrinə münasibət bildirin. Fikrinizi əsaslandırın.
4. Əsərdəki bədii təsvir vasitələrinin fikrin təsir gücünün artmasında rolunu aydınlaşdırın.

| Bədii təsvir vasitələrinin işləndiyi cümlələr | Fikrin təsir gücünün artmasında onların rolu |
|---|---|
| Ağır səfərlərə çıxan bir nəfər | |
| Coşur varlığımda polad bir ürək | |
| Örtmüşəm üstünü çadırlar kimi | |

5. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

**Mövzulardan birini seçib işləyin.**

a) "Şeiri oxuyanda şahidi olduğum hansı oxşar hadisəni xatırladım?" mövzusunda yığcam inşa yazın.
b) "Bu şeirin əhəmiyyətini nədə görürəm?" mövzusunda yığcam esse yazın.

## Evdə iş

Şeirdən bir parçanın ifadəli oxusunu hazırlayın. İfaçılıq vəzifəsini, misraların oxusunda, məzmundan asılı olaraq, səsinizin aldığı çalarları, fasilələrin yerini, tələffüzdə fərqləndirəcəyiniz sözləri və s. müəyyənləşdirin. Şərti işarələrdən istifadə edin.



**FİKRƏT QOCA**
**(1935 – 2021)**

· Fikrət Qocanın şeirlərində güclü yenilik hissi var. Onun əsərlərində ürəyi sözlə dolu olan, nəyə isə məhəbbət, nəyə isə nifrət aşılayan bir insanın səsini eşidirik.

*Rəsul Rza*

**Yada salın**

– Qarabağın təbiətinə həsr olunmuş hansı əsərlərlə tanışsınız?
– Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?

**Düşünün**

– Sizcə, bədii ədəbiyyatda, incəsənət əsərlərində təbiət mövzusuna tez-tez müraciət edilməsinə səbəb, nədir?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

## ŞUŞA
*(ixtisarla)*

Daşaltı çayına yol vermək üçün
Dağ öz ətəyini yığıb altına.
Elə bil bu yeri yaratdığı gün,
Düşübdür Allahın xoş saatına.

Hər daş öz rəngiylə dünyaya baxır,
Hər qaya elə bil bir qərinədir.
Çay da əsrlərin dibindən axır,
Hər dağ daşa dönmüş zamandır, nədir?!

“Qıy səsi” özünü atır qayadan,
Başqa qayalara dəyir, qayıdır.
Dərə ümman olur gələndə duman,
Buludlar üstündə boz qağayıdır.

Sanki duman üstə dayanmışam mən,
Nağıl dünyasıdır bura elə bil.
Günəş Simurq kimi qalxır dərədən,
Qulaq as, daşlar da dil açıbdır, dil.

Dağ düyüb alnını dərdi var kimi,
Deyirsən, nədənsə söz salacaqdır.
Qayalar sehrli qapılar kimi,
Deyirsən, üzünə açılacaqdır.

Burda cəm olubdur əzəmət, vüqar,
Duman çəkiləndə hər səhər-səhər.
Dumandan tökülüb qalır qayalar,
Dumandan səpilir çölə çiçəklər.

Vallah, göz sevinir baxırsan hara,
Öz yaşıl səsiylə çağırır çəmən.
Şuşa, ucalmısan boz buludlara,
Vətən torpağının heykəlisən sən.

. . .

**I dərs** **Məzmun üzrə iş**

1. Şeiri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) "Daşaltı çayına yol vermək üçün, Dağ öz ətəyini yığıb altına" misralarındakı fikri necə başa düşürsünüz?
   b) "Qıy səsi" özünü atır qayadan, Başqa qayalara dəyir, qayıdır" misralarında hansı fikir ifadə olunub?
   c) "Günəş Simurq kimi qalxır dərədən, Qulaq as, daşlar da dil açıbdır, dil" misralarındakı fikri necə izah edərsiniz?
   d) "Şuşa, ucalmısan boz buludlara,Vətən torpağının heykəlisən sən" misralarında ifadə olunmuş fikri necə aydınlaşdırarsınız?
2. Əsər barədəki düşüncələrinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın. Cədvəldən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək yerinə yetirdiyiniz işlər barədə fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

## Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.

a) Şeirdə ən çox xoşladığım bənd (bəndlər).

b) Şairi daha çox heyrətləndirən hansı mənzərələrdir? Nə üçün?

## II dərs — Təhlil üzrə iş

- **Əsərlə bağlı açıqlamalar.**

Şair Şuşanın gözəlliyindən, onun əzəmətli, başı dumanlı dağlarından, güllü-çiçəkli xalıya bənzəyən çəmənlərindən məhəbbətlə söz açır. Şeirin hər misrasında bu torpağa, onun çayına, daşına, qayasına, dərəsinə vurğun sənətkarın səmimi səsini eşidirik. Şeiri bu gün oxuyanda qəlbimizdə fərəh, sevinc hissi baş qaldırır. Əsərdə adı çəkilən yerlərdə neçə-neçə igidimiz şəhid olsa da, onların qəhrəmanlığı sayəsində doğma Şuşamız işğaldan azad olunub.

*Əsərin üzərində müşahidələrinizi davam etdirin, onun bədii təsir gücünü artıran vasitələri müəyyənləşdirməyə çalışın.*

## Araşdırın. Fikirləşin. Cavab verin

1. Şeir xoşunuza gəldimi? Nə üçün?
2. Əsər doğma təbiətimizin gözəlliyini uğurla ifadə edirmi? Fikrinizi nümunələrlə əsaslandırın.
3. Fikrin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırın.
4. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

## Evdə iş

**Mövzulardan birini seçib işləyin.**

a) "Şuşa şəhəri keçmişdə, işğal dövründə və bu gün" mövzusunda yığcam inşa yazın.

b) "Şeiri oxuyanda təsəvvürümdə hansı mənzərələr canlanır?" mövzusunda yığcam esse yazın.

## Bölməni yekunlaşdırarkən

**Öyrəndiklərinizi dəyərləndirmək üçün mövzulardan birini seçib yığcam inşa yazın.**

1. "Köç" hekayəsindən təbiət və heyvanlar aləmi barədə nə öyrəndim?
2. Yurdumuzun təbiəti gözəldir.
3. Təbiəti qorumasaq, nə baş verər?

## SƏMƏD VURĞUN

### CEYRAN

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə.
O qara gözlərin düşdü dillərə,
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
"Uçarda turacdır, qaçarda ceyran".
Bir mən deyiləm ki hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran!

Sükuta qərq olmuş ürəyimlə mən,
Keçirəm yenə də Muğan çölündən,
Yanında balası, yağış gölündən,
Əyilib su içir bir ana ceyran…

Elə ki son bahar min büsat qurur,
Kolları, kosları yıxıb uçurur,
Sıxlaşıb bir yerdə baş-başa durur,
Düşəndə çovğuna, borana ceyran.

On addım kənarda yatmayır təkə,
Gəzinir, oylağa baş çəkə-çəkə.
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran.

Ovçu, insaf eylə, keçmə bu düzdən,
O çöllər qızını ayırma bizdən,
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran,
Nə gözəl yaraşır Muğana ceyran!..

# LAYİHƏLƏR

## I YARIMİL

**Layihə – 1**
Mövzu: **Nağıl qəhrəmanları ilə görüş** (esse müsabiqəsi)
. . .

**Layihə – 2**
Mövzu: **Nağıllar aləmində** (tamaşa-viktorina)
I və II layihələr üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 3**
Mövzu: **"Şəhidlər unudulmur"** (ədəbi-bədii gecə)
III layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 4**
Mövzu: **"Ana" mövzusunda yazılmış əsərlərin ifadəli oxusu üzrə müsabiqə**
IV layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

# Layihə – 1

**Mövzu:**
**NAĞIL QƏHRƏMANLARI İLƏ GÖRÜŞ**
(esse müsabiqəsi)

**Tapşırıq:**
Təsəvvür edin ki, sizin kosmik gəminiz "Arzular" planetinin "Nağıllar" ölkəsinə düşüb.

Yazdığınız essedə aşağıdakı məsələləri əhatə edə bilərsiniz:
1. Orada görüşmək istədiyim nağıl qəhrəmanı.
2. Bu ölkədəki insanlarda görmək istədiyim müsbət cəhətlər.
3. Nağıl qəhrəmanlarına Vətənimin bu günü haqqında demək istədiklərim.
4. Vətənimə gətirmək istədiyim nağıl qəhrəmanı.

# Layihə – 2

**Mövzu:**
**"NAĞILLAR ALƏMİNDƏ"**
(tamaşa-viktorina)

**Tapşırıq:**
1. Kiçik parçanın dinlənilməsi əsasında nağılın adının və qısa məzmununun xatırladılması.
2. Surətlərdən birinin adının çəkilməsi ilə nağılın adının və qısa məzmununun xatırladılması.
3. Nümayiş etdirilən şəklə, yaxud şəkillərə əsasən nağılın adının və qısa məzmununun xatırladılması.
4. Adı çəkilən nağıl qəhrəmanının digər nağıllardakı qəhrəmanlarla oxşar cəhətlərinin xatırladılması.
5. Qaliblərin seçilməsi qaydalarının müəyyənləşdirilməsi.
6. Aparıcıların sayının müəyyənləşdirilməsi və çıxışları üçün mətnlərin hazırlanması
7. Tamaşa-viktorinanın proqramının hazırlanması.

## PADŞAHLA PİNƏÇİ

Bir padşah baş vəzirini öz yerində qoyub, o biri vəziri ilə təğyir-libas olaraq ölkəni gəzməyə çıxır. İkisi də dərviş paltarı geyinir ki, onları tanıyan olmasın.

Şah vəziri ilə az gedir, çox gedir, yolda bir kişiyə rast gəlir. Kişi ilə salamlaşıb başlayırlar getməyə, şah görür ki, kişi də onlarla gedir.

Odur ki deyir:

– Kişi, indi ki bir yerdə gedirik, gəl yola nərdivan salaq.

Kişi deyir:

– Dərviş baba, bu yekəlikdə yola da nərdivan salmaq olarmı?

Şah görür ki, kişi onun sözünü başa düşmədi, daha üstünü vurmur.

Bunlar gedib bir şəhərə çatırlar. Kişi deyir:

– Dərviş baba, bura bizim şəhərimizdir, indi mən gedirəm evimizə.

Şah deyir:

– Qardaş, bizi bir gecəliyə Allah qonağı saxlarsanmı?

Kişi məscidi göstərir ki, Allah qonağı ora gedir.

Kişi onlardan ayrılıb gəlir evinə, yoldakı əhvalatı qızına söyləyir.

Qız deyir:

– Ata, get o dərvişləri qonaq gətir, onlar ağıllı adama oxşayırlar.

Kişi deyir:

– Sən ki onları görməyibsən, nə bilirsən ki, ağıllı adama oxşayırlar?

Qız deyir:

– O sənə deyəndə ki gəl bu yola nərdivan salaq, demək istəyirmiş ki, gəl yolu söhbət edə-edə gedək, sən onun sözünü başa düşməyibsən.

Qız nə qədər eləyir, atası onları evinə çağırmaq istəmir.

Odur ki qız deyir:
– Ata, qərib adamdırlar, heç olmasa, bir az xörək hazırlayım, apar ver, yesinlər.
Qız birtəhər atasını razı salır; bir boşqab dolma, bir bütöv təndir çörəyi, bir qab da süd verir ki, apar ver, qonaqlara mənim adımdan deyərsən ki, qızım deyir: ay bütövdür, ulduzlar çoxdur, saya bilmədim, dərya da ağzınacan doludur. Sonra onlar nə desələr, gəlib mənə deyərsən.
Kişi xörəyi aparanda yolda açıb dolma ilə çörəyin yarısını yeyir, südü də tamam içir, qab boş qalır. Sonra xörəyin qalanını aparıb dərvişlərə verir. Qızın sözlərini onlara deyir. Dərviş görür ki, boşqabın içində on-on beş dolma var, para çörək, bir də bir boş qab. Dərvişlər dolma ilə çörəyi yeyirlər, qabları kişiyə qaytaranda dərviş deyir:
– Get, qızına de ki, ay para idi, ulduzlar çox deyildi, on-on beş olardı, dərya da tamam qurumuşdu.
Kişi gəlib həmin sözləri qızına deyən kimi qız dedi:
– Ata, ayıb deyilmi, sən niyə qonağa apardığın xörəyi yeyibsən, südü də içibsən?
Kişi deyir:
– Qızım, dolmanı yolda yediyimi sən hardan bildin?
Qız deyir:
– Bunu dərvişlər sənin dilinlə mənə xəbər verdilər. Mən sənə deyəndə ki – ay bütövdür, ulduzlar çoxdur, dərya doludur, demək istəyirdim ki, çörək bütövdür, dolmalar çoxdur, süd də qabla birdi. Dərvişlər mənə xəbər göndərdilər ki, ay paraydı, ulduzlar çox deyil, dərya quruyub, yəni çörəyin yarısını, dolmanın çoxunu yeyiblər, südü də tamam içiblər.
Qız atasına çox yalvardı ki, o dərvişləri, heç olmasa, bir günlüyə evimizə qonaq gətir. Kişi çar-naçar gedib dərvişləri evinə gətirdi.
Kişinin qızının gözü balaca çəp idi. Odur ki ev şeylərini düzəndə bir az əyri qoymuşdu. Dərvişlər içəri girən kimi evə diqqətlə baxdılar.
"Xoşgəldin"dən sonra ev sahibi dedi:
– Dərviş qardaşlar, evimiz necədir, xoşunuza gəlirmi?
Dərviş qızın gözünün çəpliyinə işarə vurmaq üçün dedi:
– Eviniz çox qəşəngdir, amma bircə eybi var, bacası bir balaca əyridir.
Tez qız cavab verdi ki, bacanın əyri olmağına baxma, tüstü düz çıxır.

Dərvişlər bir az oturandan sonra qız onlardan xəbər aldı ki, ürəyiniz nə istəyirsə, yeməyə hazırlayım.

Şah gördü ki, kişinin həyətində bir at, xeyli də toyuqları var.

Odur ki dedi:

– Elə bir şey al ki, içini özümüz yeyək, ortasını toyuqlarınız, qırağını da atınız.

Qız o saat gətirib ortalığa bir yemiş qoyub dedi:

– İçini özünüz yeyin, çərdəklərini toyuqlara verin, qabığını da atımız yeyər.

Padşah qızın ağlına təəccüb eləyib, "afərin" dedi.

Şahla vəzir qızdan çox razılıq eləyib qayıtdılar; yolda qabaqlarına bir pinəçi çıxdı. Şah eşitmişdi ki, bu pinəçi də çox ağıllı kişidir. Odur ki onun yanına çatanda şah əlini başına qoydu, pinəçi cavab olaraq əlini dilinə vurdu.

Sonra şah dedi:

– Pinəçi qardaş, doqquzu üçə vura bilibsənmi?

Pinəçi dedi:

– Vurdum, tutmadı, həm də otuz ikilər qoymadı.

Şah dedi:

– Uzaqdasan, yaxında?

Pinəçi dedi:

– Uzağı yaxın eləmişəm.

Şah yenə soruşdu ki, ikidəsən, üçdə?

Pinəçi cavab verdi ki, ikini üç eləmişəm. Şah axırda dedi:

– Qaz göndərsəm, yola bilərsənmi?

Pinəçi dedi:

– Elə yolaram!

Şahla vəzir pinəçidən ayrılıb gəldilər. Şah paltarlarını dəyişib taxta çıxandan sonra dedi:

– Vəzir, sənin üçün ayıbdır ki, pinəçinin yolda danışdığı sözlərin mənasını bilməyəsən. Odur ki get öyrən. Amma məbadə kişini incidəsən.

Vəzir xeyli qızıldan, puldan götürüb atını minib qayıtdı pinəçinin yanına. Kişini tapıb dedi:

– Şahla danışdığın sözlərin mənasını mənə deyərsənmi?

Pinəçi dedi:

– Sözün hərəsinə bir qızıl versən, deyərəm.

Vəzir razılaşdı.

Pinəçi dedi:

– Şah əlini başına qoymaqla soruşurdu ki, başın salamat olmaq üçün nə etmək lazımdır. Mən əlimi dilimə vurdum ki, dilini sakit qoysan, başın salamat olar. Sonra o dedi:

– Doqquzu üçə vurdunmu, yəni yazı, yayı, payızı – doqquz ayı işləyib üç ay qışda dolanmaq üçün ruzi toplaya bilibsənmi?

Dedim:

– İşlədim, bir şey çıxmadı, həm də otuz iki dişimdən artmadı.

Sonra şah dedi:

– Uzaqdasan, yaxında: yəni uzağı görürsən, yoxsa yaxını. Mən cavab verdim ki, yaxını görürəm. İkidəsən, üçdə, yəni ayaqların sözünə baxırmı? Dedim ki, ikini üç eləmişəm, yəni iki ayağımla yeriməyə çətinlik çəkirəm, əlimə ağac da almışam.

Axırda şah dedi:

– Qaz göndərsəm, yolarsanmı, dedim ki, yolaram. Qaz də sən idin, pullarını əlindən aldım.

Vəzir pinəçiyə çoxlu qızıl verdiyinə peşman oldu. Atı sürüb getmək istəyəndə fikirləşdi ki, qoy mən də ona sual verim, cavab verə bilməsə, dəbbələyim, pullarımı geri alım.

Vəzir dedi:

– A kişi, indi sən də de görüm, bu saat padşah nə eləyir?

Pinəçi bir altdan yuxarı baxıb dedi:

– Sən bilirsən ki, padşah böyük adamdı, elə adamların haqqında danışanda gərək bir az hörmətli olaq. İndi mən oturmuşam quru yerdə, qabağımda da cırıq-cındır ayaqqabılar, burdan şahın haqqında danışmaq olar? Gəl sən atı ver minim, o zərli əbanı da sal çiynimə, qamçını da ver əlimə, sonra deyim.

Vəzir razı oldu, atdan düşdü. O saat pinəçi sıçrayıb mindi ata, vəzirin zərli əbasını çiyninə salıb dedi:

– Vəzir, bil və agah ol, bu saat padşah sənin kimi atlıları eləyir piyada, mənim kimi piyadaları da eləyir atlı, di xudahafiz.

Pinəçi ata bir qamçı vurub gözdən itdi. Vəzir ha gözlədi, pinəçi gəlib çıxmadı. Axırda suyu süzülə-süzülə gəldi padşahın yanına.

Padşah dedi:

– Vəzir, görürsənmi, dünyada necə adamlar var?! İndi de görüm, vəzirliyə o layiqdir, yoxsa sən?

Vəzir pinəçinin ondan ağıllı olduğunu boynuna aldı.

Şah pinəçini tapıb onu vəzir təyin elədi.

## LOĞMANLA ŞƏYİRDİ

Günlərin bir günü Loğman ilə şəyirdi səyahət eləyə-eləyə bir şəhərə gəldilər. Onlar mənzil tutub rahatlanandan sonra Loğman şəyirdini bazara göndərdi ki, çörək, yağ, şor alıb gətirsin. Şəyird bazara gedib yağın qiymətini xəbər aldı.

Ona dedilər:

– Batmanı yüz dinardır.

Soruşdu:

– Çörək neçəyədir?

Dedilər:

– Onun da batmanı yüz dinar.

Soruşdu:

– Bəs şoru neçəyə verirsiniz?

Dedilər:

– Batmanı yüz dinara.

Şəyird bazarda nəyin qiymətini soruşdu, “yüz dinardır” – dedilər.

O, sevinə-sevinə ustanın yanına gəlib dedi:

–Nə yaxşı şəhərə gəlmişik. Yüz dinardan baha qiymət yoxdur.

Loğman diqqətlə şəyirdə qulaq asıb dedi:

– Elə isə burda qalmaq olmaz, tez çıxıb getməliyik.

Şəyirdi dedi:

– Nə üçün?

Loğman dedi:

– Bir yerdə ki yağla şora fərq qoyulmadı, orda yaşamaq məsləhət deyil.

Şəyird ustasına etiraz elədi. Loğman öz sözünün üstündə dayandı, ancaq hələlik bu şəhərdə qalmağa razılıq verdi. Bir neçə gündən sonra car çəkildiyini eşitdilər. Məlum oldu ki, bu gün bir nəfəri padşahın əmri ilə asacaqlar. Loğman şəyirdi ilə dar ağacı qurulmuş meydana gəldi. Adamlar toplaşandan sonra padşah vəzirləri ilə gedib bir tərəfdə oturdu, üzünü müqəssirə tutub dedi:

– Bu saat təqsirlərini bir-bir de, kəndiri öz əlinlə boğazına keçir ki, səni assınlar.

Müqəssir dedi:

– Padşah sağ olsun, mən bağbanam. Bir gün bağda işlədiyim zaman oğruya rast gəldim. Qaçıb onu tutmaq istəyəndə dırmaşıb divara çıxdı, küçəyə atılanda yıxılıb qıçı sındı. Məni dustaq edib

dedilər: “Günah səndədi ki, bağın hasarını uca eləmisən. Divar alçaq olsaydı, oğru hoppananda yıxılıb qıçı sınmazdı, buna görə səni cəzalandırmaq lazımdır”.

Padşah:

– Doğrudur, lap doğrudur, – deyə cəzanın düzgün olduğunu təsdiq elədi.

Bağban dedi:

– Padşah sağ olsun, divarı mən hörməmişəm.

Padşah dedi:

– Bəs kim hörüb?

Kişi dedi:

– Bənna.

Padşah dedi:

– Elə isə bağbanı azad eləyib bənnanı gətirin.

Bağbanı buraxdılar, bənnanı tapıb dar ağacının altına gətirdilər.

Cəllad kəndiri hazırlayanda bənna dedi:

– Padşah sağ olsun, günah məndə də deyil.

Padşah dedi:

– Bəs kimdədir?

Bənna dedi:

– Şəyirdimdə. Əgər o, kərpici çox verməsəydi, mən divarı hündürə qaldıra bilməzdim.

Padşah əmr verdi, şəyirdi tapıb hüzura gətirdilər.

– Şəyird yalvardı:

– Kərpici çox verməkdə mənim təqsirim yoxdur, – dedi.

Padşah soruşdu:

– Bəs kim təqsirkardı?

Şəyird dedi:

– Padşah sağ olsun, mən ustama kərpic verəndə yoldan bir arvad keçirdi. Onun qolunda çox qəribə bir qolbaq var idi. Gözüm qolbağa sataşanda heyran qalıb başımı itirdim. Bir də ayılıb gördüm ki, usta divarı hörüb ucaldıbdı.

Padşah əmr elədi:

– Bu saat o arvad tapılıb dar ağacının dibinə gətirilsin.

Məmurlar axtarıb arvadı tapdılar, meydana gətirdilər. Padşah ondan soruşdu:

– Bu şəyirdin ağlını başından alan sənin qolbağın olubmu?

Arvad dedi:

– Bəli.

Padşah dedi:

– Elə isə kəndir sənin boynuna salınacaq. Cəllad, çək bu arvadı dara!

Arvad dedi:

– Padşah sağ olsun, bu işdə mən müqəssir deyiləm.

Padşah dedi:

– Bəs kimdi?

Arvad dedi:

– Müqəssir zərgərdir ki, elə qəşəng qolbaq qayırıb.

Padşah bir qədər fikirləşib onun sözlərini təsdiq elədi, dedi:

– Doğru deyirsən, yerdə də olsa, göydə də, bu saat zərgəri dar ağacının dibində hazır eləyin!

Məmurlar arvadı buraxıb zərgərin dalınca getdilər, bir azdan sonra onu çəkə-çəkə padşahın hüzuruna gətirdilər.

Padşah ondan soruşdu:

– Qolbağı sən qayırmısan?

Zərgər dedi:

– Bəli, padşahım.

– Bəs sən fikirləşməmişsən ki, o çox gözəl olsa, baxanın gözləri qamaşar, əlindəki işləri çaşdırar?

Zərgər padşahın sualına cavab verməyə söz tapmadı. Cəllad kəndiri halqalayıb onun boynuna saldı. Ancaq zərgərin boynu yoğun, başı balaca olduğundan kəndiri saxlamadı. Ha elədilər, başı halqadan çıxdı.

Cəllad gəlib təzim elədi:

– Padşah sağ olsun, zərgərin başı kiçik, boynu yoğundu, kəndir dayanmır, bilmirəm nə eləyim?

Padşah dedi:

– Bundan asan nə var ki? Bir nəfər başı böyük, boynu nazik adam tapıb kəndiri keçir onun boynuna, qurtarsın getsin!

Cəllad padşahın əmrini yerinə yetirmək üçün adamların içərisinə girdi, gözləri Loğmanın şəyirdinə sataşanda sevinə-sevinə qışqırdı:

– Padşah sağ olsun, başı böyük, boynu nazik adamı tapmışam.

Padşah dedi:

– Keçir halqanı onun boynuna.

Şəyird yalvarıb-yaxarıb müqəssir olmadığını dedikdə padşah onun sözünü kəsdi:

– Boş danışma, müqəssir olub-olmamağının bizim üçün əhəmiyyəti yoxdu. Bizə yekəbaş, nazik boyun lazımdı. Cəllad, nə dayanmısan, assana bunu!

Loğman bu haqsızlığa dözə bilməyib irəli gəlib dedi:

– Padşah sağ olsun, sizin əmriniz doğrudu. Bunun boynu kəndirə keçirilməlidi. Ancaq o, mənim şəyirdimdi. Özümüz də sizin şəhərinizə qonaq gəlmişik. Hələ paytaxtın gözəlliyini doyunca seyr etməmişik. Bunu mənə bağışla. Qoy sizin sağlığınıza gəzib məmləkətinizə tamaşa eləsin.

Padşah Loğmanın sözlərini bəyənib dedi:

– Doğru deyirsən, qoca, afərin, onu sənə bağışlayıram. Cəllad, burax müqəssiri, qoy getsin.

Cəllad kəndiri şəyirdin boğazından çıxarıb azad elədi. Onlar qayıdıb mənzillərinə gəldikdə Loğman dedi:

– Bu nə yaxşı şəhərdi. Qalıb burda yaşamaq lazımdı.

Şəyird utana-utana başını aşağı salıb dedi:

– Yox, usta, bir şəhərdə ki yağla şorun fərqi olmadı, orda yaşamaq qorxuludu. Başımızı bədənimizin üstündə salamat saxlamaq üçün burdan getməyimiz məsləhətdi.

Loğman güldü. O saat o şəhərdən çıxıb getdilər.

## AĞILLI UŞAQ

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir xan var idi. Xan hər dəfə bir bəhanə eləyib, yan-yörədəki kəndləri, şəhərləri işğal eləyirdi, əhalinin var-yoxunu əlindən alırdı. Xanın şəhərinə bitişik bir kənd var idi. Oranı tutmaq çox çətin idi, çünki kənddə dünyagörmüş ağıllı qocalar xanın hiylələrinə hər dəfə cavab verir, onu məğlub edirdilər.

Günlərin birində xan öz adamlarını başına yığıb həmin kəndi tutmaq üçün tədbir istədi. Xanın baş məsləhətçisi dedi:

– Nə qədər ki o kənddə ağıllı, dünyagörmüş adamlar var, oranı tutmaq çətin olacaq. Yaxşısı odur ki, əvvəlcə onları bir bəhanə ilə aradan götürək, sonrası asandır.

Xan bu təklifi bəyəndi, elə həmin gün öz adamlarını yanına çağırtdırıb tapşırıq verdi ki, nə təhər olur-olsun, gedib o kəndin adamlarını, qocalarını aldadıb bura gətirərsiniz.

Xanın adamları hamısı eyni vaxtda kəndə dolub hərəsi bir qocanın evinə getdi. Onlar hiyləyə əl atıb dedilər:

– Bizim xanımız bir məsələdə bərk çətinliyə düşüb. O, ümidini sizə bağlayıb kömək istəyir. Deyir ki, bircə günlüyə mənə məsləhət vermək üçün yanıma gəlsinlər.

Qocalar yarıxoş, yarınarazı, əlacsız qalıb xanın adamları ilə getdilər.

Xan qocaların gətirildiyini görüb, əmr elədi, hamısını zindana salsınlar. Bu tərəfdən xan həmin kəndə getmək üçün atlı çağırdı, üç alma verib dedi:

– Bu almaların biri birillik, o biri ikiillik, üçüncüsü isə üçillikdir, almaları apararsan həmən kəndə, camaatı meydana yığarsan, deyərsən ki, xan əmr eləyib, bunların neçə illik olduğunu tapsınlar. Onlara üç gün vaxt verirəm, tapa bilməsələr, onda kəndi işğal edəcəyəm. Əgər bu sirri tapan olsa, həmin adam yanıma, mənim xoşladığım heyvanla gəlməlidir. Həm də o adam boyca məndən hündür olmalıdır ki, ona aşağıdan yuxarı baxım.

Çapar atlanıb xanın tapşırıqlarını xəbər vermək üçün həmən kəndə gəldi. Camaatı bazar meydanına yığıb əhvalatı söylədi.

Çapar almaları verib geri qayıtdı. Kəndin camaatı nə qədər fikirləşdi, almaların sirrini tapa bilmədi.

Bu kənddə qoca bir qarının Əhməd adlı balaca nəvəsi var idi. O, çox ağıllı və qoçaq uşaq idi. Həmin gecə Əhməd səhərə kimi yata

bilmədi, çox fikirləşdi, suallara cavab tapa bilmədi, axırda yadına düşdü ki, bu işdə böyüklərdən məsləhət almaq lazımdır.

Nənəsindən xəbər aldı ki, kəndimizdə heç qoca, ağıllı kişilərdən qalan varmı? Qarı dedi:

– Bala, kəndin kənarında bircə nəfər yaşı yüzü ötmüş bir qoca qalıb, şikəst olduğu üçün xanın adamları onu aparmayıblar.

Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü, bir nurani kişidir. Saçı-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.

Əhməd ədəb-ərkanla qocaya salam verdi, onun yanına məsləhətə gəldiyini söylədi.

Qoca dedi:

– Oğlum, məndən nə məsləhət istəyirsən?

Əhməd xanın şərtlərini qocaya söyləyib ondan kömək istədi.

Qoca əlini alnına qoyub, bir qədər fikirləşdi. Sonra sualların cavabını necə tapmağı Əhmədə öyrətdi. Axırda dedi:

– Oğul, bircə sirri mən bilmirəm, gərək onu özün tapasan. O da xanın hansı heyvanı xoşlamasıdır. Bunun üçün birçə çarə var, gərək bir yolla xanın şəhərinə keçəsən, çox ehtiyatla, tədbirlə bu sirri öyrənəsən.

Əhməd dedi:

– Elə bu saat gedirəm həmən sirri öyrənməyə.

Əhməd qocadan çox razı qaldı. Evdən çıxıb getmək istəyəndə həyətdə bir qoca arvadın ocaq qalamaq üçün çör-çöp yığdığını gördü. Bu, qocanın bacısı idi. Qocanın bacısından başqa heç kimsəsi yox idi. Əhməd dedi:

– Ay qarı, bu çör-çöpü neynəyirsən?

Qarı dedi:

– Oğul, odunumuz qurtarıb, meşəyə gedənimiz yoxdur, odur ki çör-çöp yığıram.

Əhməd qarıdan balta, bir də çatı istədi. Qarı gətirib verdi. Əhməd gedib meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə töküb getdi.

Əhməd gedə-gedə ürəyində götür-qoy edirdi ki, nə yolla xanın sirrini öyrənsin. Elə ki xanın şəhərinin kənarına çatdı, gördü hər yüz addımdan bir əli qılınclı gözətçilər dayanıb, onların yanından keçmək mümkün deyil. Amma kəndin lap kənarında xanın qoyun sürüsü göy çəmənlikdə otlayır, qoyunlar gah bu tərəfə, gah o tərəfə keçirlər. Əhməd bunu görən kimi özünü verdi kəndlərindəki çobanın yanına, əhvalatı ona söyləyib xahiş elədi ki, qoyunun birini kəssin, dərisini bütöv çıxarıb versin ona.

Çoban beş dəqiqənin içində bir yekə qoçu kəsib dərisini bütöv çıxardı. Əhməd dərini bir dəsmala büküb düz gəldi xanın sürüsü otlayan yerə. O, bir ağacın altında qoyunun dərisinin içinə girib başladı iməkləyə-iməkləyə sürüyə tərəf getməyə, cəld özünü verdi qoyunların arasına, gedib bir xeyli aralı dəridən çıxdı, dərini qatlayıb bükdü yenə dəsmala. Əhməd baxıb gördü uzaqda sürünün çobanı göy otun üstündə uzanıb, çoban bayatı çalır. Yanında da bir keçi var. Keçinin buynuzları, üstü-başı par-par parıldayır, bir qədər yaxına gedib gördü, keçinin buynuzlarını qızıla tutublar, boynuna qızıldan zınqırov taxıblar, üstünə tirmədən şal salıblar. Daha nə başınızı ağrıdım, keçini elə bəzəyiblər ki, adam baxanda məəttəl qalır. Əhməd başladı keçiyə baxmağa, çoban onu görüb dedi:

– Ay bala, nə çox baxırsan?

Əhməd dedi:

– Ay çoban qardaş, mən belə keçi görməmişəm, ona görə baxıram.

Çoban dedi:

– Sən bu şəhərin adamı deyilsən? Bu keçini görməyən adam yoxdur.

Əhməd gördü çoban onu tanısa, işlər pis olacaq. Odur ki dedi:

– Mən heç yerdən gəlməmişəm, elə bu şəhərdə oluram, amma nənəm məni bu vaxta kimi evdən heç yerə buraxmayıb, odur ki həmin keçini də görməmişəm.

Çoban dedi:

– Bala, onda bil və agah ol ki, bu, bizim xanın keçisidir. O, uşaqlıqdan keçini çox xoşlayırmış. Həmin keçini şahın əmri ilə belə bəzəyiblər.

Əhməd bu xəbəri eşidəndə sevindiyindən bilmədi neyləsin, tez qayıtdı geri, bir az çobandan aralanandan sonra qoyun dərisini dəsmaldan açıb girdi içinə, özünü vurdu qoyunların arasına, sürünə-sürünə keçib gəldi öz kəndlərinə, gördü adamlar qalıblar əlləri qoyunlarında, bilmirlər nə eləsinlər. Həmin gün xanın suallarına cavab verməsəydilər, kəndləri əldən çıxacaqdı.

Əhməd irəli yeriyib dedi:

– Camaat, mənə bir hündür dəvə, bir də bir keçi verin, gedəcəyəm xanın şəhərinə, onun suallarına cavab verib kəndimizi xatadan qurtaracağam.

Əhmədin sözünə hamı gülüşdü, dedilər:

– Bala, yəqin, sənin ölümün yetib. Bəs qorxmursan ki, xanın qəzəbinə gələrsən?

Əhməd dedi:

– Mən xandan qorxmuram.

Adamlar dedilər:

– Bala, xan səni görən kimi deyəcək ki, yəqin, məni ələ salıblar, bu kənddə bir adam tapmadılar ki, mənim yanıma uşaq-muşağı göndərdilər?

Əhməd dedi:

– İstədiyim heyvanları verin, dalıycan işiniz yoxdur.

Camaat gördü ki, başqa əlac yoxdur, bir hündürboylu dəvə tapıb Əhmədi mindirdilər üstünə, bir keçinin də boğazına kəndir bağlayıb ucunu verdilər Əhmədə. Əhməd almaları da götürüb başladı xanın şəhərinə tərəf yol getməyə. Xanın adamları Əhmədi apardılar saraya. Xan Əhmədi keçi ilə görən kimi qəzəbləndi və yanındakılara dedi:

– Birinin cavabını tapıblar, görək o birilərinə necə cavab verəcəklər. Sonra üzünü Əhmədə tutdu:

– Bala, mən demişdim ki, yanıma göndərdiyiniz adam məndən hündür olmalıdır. Mən gərək onunla danışanda aşağıdan yuxarı baxım. Bəs buna niyə əməl eləmədiniz?

Əhməd dedi:

– Xan sağ olsun, məgər görmürsünüz ki, mən dəvənin üstündə sizdən çox hündürdəyəm, özü də aşağıdan yuxarıya mənə baxıb danışırsınız, elə siz deyəndir də.

Xan dedi:

– Axı sən dəvədən düşsən, mənim dizimdən də aşağıda dayanarsan.

Əhməd dedi:

– Mən niyə dəvədən düşürəm ki, səndən də aşağıda duram.

Xan gördü uşaq çox hazırcavabdır. Odur ki dedi:

– Bala, di almaların sirrini de görək.

Əhməd dedi:

– Xan sağ olsun, sizin şərtiniz olan kimi, mənim də şərtim var. Əmr eləyin, camaatı yığsınlar şəhər meydanına.

Xan nə qədər elədi ki, burada desin, oğlan razı olmadı, xan dedi:

– Sən ki belə tərslik eləyirsən, almaların sirrini düz deyə bilməsən, boynunu vurduracağam.

Əhməd dedi:

– Mən razıyam.

Bəli, xan əmr verdi, şəhər meydanında taxt quruldu, camaat hamısı ora yığışdı. Xan da bir dəstə adamla meydana gəldi.

Əhməd irəli yeriyib dedi:

– Xan sağ olsun, mən sualların cavabını düz tapsam, bizim kəndimizə toxunmamalı, zindana saldığın qocalarımızı azad eləməlisən, tapa bilməsəm, nə istəyirsən elə.

Xan söz verdi ki, şərtlərə razıdır. Əhməd bir qab su istədi, o saat gətirdilər. O, almaların üçünü də suya saldı. Almaların biri çökdü suyun dibinə, ikincisi qaldı suyun ortasında, üçüncüsü isə lap suyun üzündə qaldı.

Əhməd dedi:

– Birinci builki təzə alma olduğu üçün canı şirəlidir, ağırdır. Odur ki çökdü qabın dibinə. İkinci alma keçənilkidir, bir qədər suyunu çəkib, quruyub deyə suyun ortasında qalıb, üçüncü alma isə üç il bundan əvvəlkidir. O, tamam suyunu çəkib, yüngülləşib, ona görə də suyun üzündə üzür.

Əhməd düz dediyi üçün xanın adamları məəttəl qaldılar. Xan fikrini dəyişmək istədi, amma gördü ki, onda camaatın arasında hörmətdən düşəcək. Əlacı kəsildi, qocaları zindandan azad elədi. Kəndə toxunmayacağına söz verdi.

Əhməd qocaları da götürüb öz kəndlərinə qayıtdı. Kənd camaatı bu şad xəbəri eşidib Əhmədin qabağına çıxdı, ona “afərin” deyib, alqış elədi.

Balaca Əhməd öz ağlı, bacarığı və tədbiri ilə kəndi xilas elədi.

Göydən üç alma düşdü. Biri nağıl söyləyənin, biri məsləhət verən qocanın, biri də Əhmədin.

# Layihə – 3

**Mövzu:**
**“ŞƏHİDLƏR UNUDULMUR”**
(ədəbi-bədii gecə)

**Tapşırıq:**

1. Bədii əsərlərin (şeirlər və nəsr əsərlərindən parçaların) seçilməsi.
2. İfadəli oxu bacarığına malik iştirakçıların müəyyənləşdirilməsi.
3. Fərdi, cütlük və qrup halında ifa üçün müvafiq əsərlərin müəyyənləşdirilməsi.
4. İfaları müşayiət edəcək musiqi parçalarının seçilməsi.
5. Aparıcıların müəyyənləşdirilməsi.
6. Proqramın hazırlanması.

## III LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SİNİFDƏNXARİC OXU MATERİALLARI

Bəxtiyar Vahabzadə

### ŞƏHİDLƏR
*(ixtisarla)*

Nə ədalət, nə gerçək
Vallah, yoxdu o gecə.
Zülüm zalım əlilə
Haqqı boğdu o gecə.

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.

Analar “aman”ından
Sinələr oldu şan-şan.
Şəhidlərin qanından
Şimşək çaxdı o gecə.

Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə!
Allah bu müsibətə
Necə baxdı o gecə?!

Rüstəm Behrudi

## YANVARIN İYİRMİSİNDƏ

Əsgərtək səf-səf durun
Yanvarın iyirmisində.
Səbrinizə od vurun
Yanvarın iyirmisində.

Toy umurduq, yas verdi,
Nə verdisə, nəhs verdi,
Tarix bizə dərs verdi,
Yanvarın iyirmisində.

Bir də qalx, Azərbaycan,
Bir də təzədən silahlan,
Təpədən dırnağacan
Yanvarın iyirmisində.

Qoy yağsın od yağışı,
Gözləməyin çağırışı,
Meydanlara yığışın
Yanvarın iyirmisində.

Qəm – qardaş, kədər – bacı,
Azadlıq ehtiyacı…
Hər dirək dar ağacı
Yanvarın iyirmisində.

Bir qədim adət kimi
Odda tapaq sevgini.
Azadlığın ad günü –
Yanvarın iyirmisində.

Şəhidlərə tanrıtək,
Diz çökək və and içək.
And içib candan keçək
Yanvarın iyirmisində.

. . . . . . . . . . . . . . . . . .

Rafiq Yusifoğlu

## GÖZLƏRİN AYDIN, ŞUŞA!

Bükülmüşdü qəddimiz
Ayrılığın əlindən,
Bir şad xəbər eşitdik
Komandanın dilindən.
Çaylar coşdu, kükrədi
Gözümüzün selindən,
Qarabağ göylərində
Qəlbimiz döndü quşa,
Gözlərin aydın, Şuşa!

Şad xəbəri eşidib
Köks ötürdüm dərindən
Qəlbim riqqətə gəldi
Ordumun zəfərindən.
Komandan əmr eləsə,
Dağ oynayar yerindən,
Azərbaycan əsgəri
Baxmaz qara, yağışa,
Gözlərin aydın, Şuşa!

Naxələf qonşuların
Qorxu düşüb canına
Bədxah havadarları
Çəkilibdir qınına
Dost kimdir, düşmən kimdir,
Dar ayaqda tanınar
Görüşünə gələcəm
Türk qardaşımla qoşa
Gözlərin aydın, Şuşa!

Mənim doğma yurdumun
Alınmaz qalasısan,
Azərbaycan oğlunu
Sən hünər qalası san!
Daha ömrümüz boyu
Bizimlə qalaısan,
Dağların qucağında
Yaşa, vüqarla yaşa,
Gözlərin aydın, Şuşa!

. . . . . . . . . . . . . . . . . .

# Layihə – 4

**Mövzu:**
**"ANA" MÖVZUSUNDA YAZILMIŞ ƏSƏRLƏRİN İFADƏLİ OXUSU ÜZRƏ MÜSABİQƏ**

**Tapşırıq:**

1. Bədii əsərlər seçilir.
2. Bədii əsərlərin oxu xüsusiyyətləri aydınlaşdırılır.
3. Müsabiqənin şərtləri müəyyənləşdirilir.

# IV LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SİNİFDƏNXARİC OXU MATERİALLARI

Əfzələddin Xaqani

## ANA

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim heç bu şöhrəti.
Onun hər sözündən alıram qüvvət,
Qəlbini mum etdi, verdi nəsihət.
Düşmən tənəsilə kəsilsə yolum,
O zəif qarıdan güc alar qolum.
Onun duaları olmasaydı, ah,
Ömrüm puç olardı, yəqin, bir sabah.
Onunla fəxr edir şirvanlı olan,
Odur bu torpağa məni bağlayan.

Sərdar Əsəd

## ANA SƏLİQƏSİ

Ana, səliqən gəzir
Təmiz üst-başımızda.
Hər sözün, cümlən gəzir
İti yaddaşımızda.

Nə dadlıdır, şirindir
Çayın-çörəyin sənin!
İşıqlı gözlərindir –
Təmiz ürəyin sənin.

Hər gecəni, gündüzü,
Saatlara qatmısan.
Bölüşdürüb ömrünü –
Hamımıza çatmısan.

Azar görmür canımız,
Həkimmisən balana?..
Sən olmasan anamız
Kim olardı, ay ana!

Nəriman Həsənzadə

## ANA
*(ixtisarla)*

Anadır əzəli müqəddəsimiz,
Əsl nəfəsidir o bu həyatın.
Dünyada ananın südündən əziz,
Ən halal sərvəti varmı övladın?!

Nədir bu dünyada ilk addım, ilk səs,
Var-dövlət hayıfdır, ya insan hayıf?!
Məni anam qədər başa salan kəs,
Məni anam qədər duyan olmayıb.

Onsuz böyümədik bizim birimiz,
O qəlb zəriflərin ən zərifidir.
Anadır, bəlkə də, ilk şairimiz, –
Laylanın birinci müəllifidir.

Dünya camalında nura bürünür,
Yoxdur yer üzündə ona bir əvəz.
Heyif... sağlığında adi görünür,
Sonra gözümüzdə dahiləşən kəs.

. . . . . . . . . . . . . . . . . . . .

Mədinə Gülgün

## MƏNİM ANAM

Laylay çalır körpəsinə
Məhəbbətlə mənim anam.
Bir sözüm var bu gün sənə,
Məni dinlə, mənim anam.

Sən bağbansan, biz gül-çiçək,
Şöhrətindir halal əmək...
Sənin kimi gözəl, göyçək
Yoxdur hələ, mənim anam.

Hər sənətdə olsan, yenə
Bir anasan öz evinə.
Təbrik deyir ellər sənə
Gülə-gülə, mənim anam.

Unutmarıq bir an səni,
Daim görək cavan səni.
Ucaldacaq dövran səni,
İldən-ilə, mənim anam.

# LAYİHƏLƏR

## II YARIMİL

**Layihə – 1**
Mövzu: **“Bədii ədəbiyyatda hikmətli fikirlər” toplusunun hazırlanması**
I layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 2**
Mövzu: **“Doğma yurdum Azərbaycan”**
(musiqili-ədəbi kompozisiya)
II layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 3**
Mövzu: **“Dünya uşaqların gözü ilə”** (tamaşa-viktorina)
III layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 4**
Mövzu: **“Doğma təbiətimiz”** (bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqə)
IV layihə üçün tövsiyə olunan sinifdənxaric oxu materialları
. . .

**Layihə – 5**
Mövzu: **“Ədəbiyyat dərsləri bizə nə verdi”** mövzusunda dəyirmi masa
. . .

# Layihə – 1

**Mövzu:**
**“BƏDİİ ƏDƏBİYYATDA HİKMƏTLİ FİKİRLƏR” TOPLUSUNUN HAZIRLANMASI**

**Tapşırıq:**

1. Materialların (şeirlərin, nəsr əsərlərindən parçaların, şəkil və illüstrasiyaların) seçilməsi.
2. Materiallara şərhlərin yazılması.
3. Tərtibat işlərinin (bölmələrin müəyyənləşdirilərək materialların, şəkil və illüstrasiyaların onlarda yerləşdirilməsi) yerinə yetirilməsi.
4. Toplunun əlyazma və elektron variantının hazırlanması.

## I LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SİNİFDƏNXARİC OXU MATERİALLARI

Nizami Gəncəvi

### OĞLUM MƏHƏMMƏDƏ NƏSİHƏT

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddi yaşın oldu o zaman ki sən,
Açıldın gül kimi, güləndə çəmən.
İndi ki çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.
Başına əfsanə düşdüyü zaman
Allah qorxusunu unutma bir an.
Öz adına layiq işlər gör ki sən,
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.
Görürəm, şöhrətdə ləyaqətin var,
Şeirdə, sənətdə məharətin var.
Şairlik eləmə, dövrə bax ki bir,
Tərif əvəzinə pislənir şeir.
Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.
Hərçənd sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar.

Abbasqulu Ağa Bakıxanov

# NƏSİHƏTLƏR

– Hər kəsi görən zaman ona salam ver. Əgər o sənə bir söz desə, ədəb və təvazö ilə ona cavab ver ki, hamı səni sevsin.

– Bir adamı ehtiyac içində görəndə nə qədər bacarırsan, ona kömək et ki, sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin.

– Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.

– Tənbəllikdən qorx ki, o bütün eyiblərdən daha pisdir.

– Elm və kamal əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər.

– Bil ki, təvazökar, şirindilli adamların dostları da çox olar.

– Çox yeməkdən özünü qoru ki, bədənin sağlamlığına və ağıla ziyanı var.

– Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz.

Abdulla Şaiq

## SÖZÜN QİYMƏTİ

Varlı bir tacirin üç oğlu vardı. Tacir kiçik oğlunu hamısından çox istəyirdi. Böyük qardaşlar paxıllıq edib deyirdilər: "Atamız onu, görəsən, nəyə görə bizdən çox istəyir? Onun bizdən nəyi artıqdır?"

Çox çəkmədi ki, qardaşların narazılığından ata xəbər tutdu. Qardaşları razı salmaq üçün o, öz sevimli kiçik oğlunu bir dəfə də sınamağı qərara aldı.

Tacirin alma boyda çox qiymətli bir cəvahiri varmış. Bu cəvahir tacirin bütün var-dövlətinin yarısına bərabər imiş. Bir gün tacir hər üç oğlunu hüzuruna çağırtdırır. Oğlanlar atalarının qarşısında əmrə müntəzir dururlar. Tacir əlindəki cəvahiri böyük oğluna verib deyir:

– Oğlum, bilirsən ki, bu cəvahirin mənim bütün var-dövlətim qədər qiyməti var. Al, bunu yerə çal, qırılsın!

Böyük oğul cəvahiri əlinə alır, bir əlindəki cəvahirə baxır, bir də atasına baxıb deyir:

– Ata, belə qiymətli cəvahiri mən yerə vurub qıra bilmərəm, hayıfdır.

Tacir: "Mərhəba, oğlum", – deyib cəvahiri ortancıl oğluna verir:

– Al, hünərin varsa, sən bu cavahiri yerə çal!

Tacirin ortancıl oğlunun da böyük qardaşı kimi, cəvahiri qırmağa cəsarəti çatmır.

Axırda tacir cəvahiri kiçik oğluna verib onu yerə vurub qırmasını tapşırır.

Tacirin ağzından söz çıxan kimi kiçik oğlu cəvahiri yerə çalıb parça-parça edir. Böyük və ortancıl qardaş kiçik qardaşlarının bu ağılsız hərəkətinə heyrət edirlər. Qardaşları bu vəziyyətdə görüb tacir kiçik oğlundan soruşur:

– Oğlum, sən bu cəvahirin qiymətini bilə-bilə, necə oldu ki, onu heç elədin?

Kiçik oğul ehtiramla cavab verir:

– Ata, o cəvahir nə qədər qiymətli olsa da, sənin sözün mənim üçün daha qiymətlidir.

Süleyman Rüstəm

## DUZ-ÇÖRƏK

İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum!
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum!

Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətilə kamala yetir,
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qanqallar bitirmə, oğlum!

Yersiz gülümsəmə, yersiz ağlama,
Bir könül də qırma, sinə dağlama,
Sirrini ellərdən gizli saxlama,
Dilinə yalan söz gətirmə, oğlum!

Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu,
Bilmədiyin işi gözüyumulu
Söz verib öhdənə götürmə, oğlum!

Oxu öyüdümü sən sətir-sətir,
Qoy yağsın hər zaman dilindən ətir,
Qazancını itir, malını itir,
Ancaq duz-çörəyi itirmə, oğlum!

# Layihə – 2

**Mövzu:**
**“DOĞMA YURDUM AZƏRBAYCAN”**
(musiqili-ədəbi kompozisiya)

**Tapşırıq:**
1. Ssenari yazılır.
2. Bədii əsərlər seçilir.
3. Musiqi əsərləri müəyyənləşdirilir.
4. Bədii əsərləri ifadəli oxuyacaq şagirdlər seçilir.
5. Musiqi əsərlərinin ifaçıları müəyyənləşdirilir.
6. Kompozisiyanın tərtibatı ilə məşğul olacaq qrup müəyyənləşdirilir.

## II LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SİNİFDƏNXARİC OXU MATERİALLARI

Qabil

### VƏTƏN

Mən gözümü bu torpaqda açmışam,
Mənim dilim bu torpaqda söz tutub.
İməkləmiş, yerimişəm, qaçmışam –
Dizlərimi qanadanda daş-kəsək
İlk yaram da bu torpaqda köz tutub.
Tarixində adım-sanım yox onun,
Hardan olsun, neyləmişəm axı mən?
Ancaq vətən mənim kimi çoxunun
Zəhmətini çox çəkmişdir əzəldən.
Əllərimdən tuta-tuta aparmış,
Məni həyat yollarına çıxarmış.
Bu yerdədir rişələrim, köklərim –
Ulu babam bu torpaqda uyuyur.
Vətən – mənim al şəfəqli səhərim,
Onsuz günəş gözlərimdə soyuyur...
Vətənsizin nə günəşi, nə ayı?..
Vətən yoxsa – hər şey hədər, havayı.
Qarış-qarış dolansam da cahanı,
Gözəlsə də yad ellərə səyahət,
Heyran-heyran seyr etsəm də hər yanı,
Səyahətim burda bitər, nəhayət,
Ağuşuna çəkər məni torpağım.
Harda olsam, harda gəzib – dolansam,
Burda tapar əks-səda sorağım.
Bir-birindən hər şey qopar, ayrılar –
Ayrılmayan bəs nə var?
Mən,
Vətən!

Zəlimxan Yaqub

## AZƏRBAYCAN BİR NƏĞMƏDİR

Azərbaycan bir nəğmədir,
Sözü mənim ürəyimdə.
Eşqi uca zirvələrdə,
Özü mənim ürəyimdə.

Nə qorxusu qışın, qarın,
Nə vaxt olsa, seyrə varın,
O çağlayan bulaqların
Gözü mənim ürəyimdə.

Döyüşdədir hər gün, hər ay,
Düşmən üstə çəkir haray –
Qafur, Mehdi, Cəmil, Gəray,
Həzi mənim ürəyimdə.

. . . . . . . . . . . . . . . . . . . . .

Səhənd

ARAZ
*(mənzumədən bir parça)*

Mən Arazın adıynan
Çox zamandır tanışam.
Ən kiçik yaşlarımdan
Onu rəvanlamışam.
Qoca babam, nə vaxt ki
Boğazım ağrıyardı,
"Araz keçmişəm" – deyə,
Boğazımı sığardı.
Soruşardım: – Ay baba,
Araz nədir, keçmisən?
Nə kimi şeydir o ki,
Suyundan da içmisən?
Sualımdan babamın
Yaşarardı gözləri…
Üzümə məyus-məyus
Baxıb deməzdi bir söz,
Görərdim ancaq onun
Olub tükləri biz-biz.
Sonra da qardaşımın
Adın qoydular Araz.
Lakin onda da mənə
Aydınlaşmadı bu raz.
Ancaq Araz beşikdə
Yatıb yırğınan zaman
Bu sözləri dinlədim
Anamın laylasından:
"Arazı ayırdılar,
Qum ilən doyurdular,
Mən səndən ayrılmazdım
Zülmilən ayırdılar".

. . . . . . . . . . . . . . . . . . . .

Məmməd Araz

## XALQIMIN ÜRƏYİ

Genişdir, açıqdır
Xalqımın ürəyi.
Qonağa minnətsiz
Verirlər çörəyi.

Ən kəskin silahı –
Ən incə sözüdür.
Süfrəsi genişdir –
Mil, Muğan düzüdür.

Günəşə, torpağa,
Dostluğa inanar.
Önündə vuruşar, –
Arxanda dayanar!

Bu açıq ürəkli,
Süfrəsi çörəkli,
Bu sazlı-söhbətli,
Hamıya hörmətli,

Bu sadə xalqımın
O misri qılıncı
Düşməyib kəsərdən.
Unutma bunu sən!
Unutma bunu sən!

# Layihə – 3

**Mövzu:**
**“DÜNYA UŞAQLARIN GÖZÜ İLƏ”**
(tamaşa-viktorina)

**Tapşırıq:**
1. Uşaq əsərlərindən seçilmiş parçaların səhnələşdirilməsi.
2. Şeirlərin və nəsr əsərlərindən parçaların ifadəli oxunması.
3. Qaliblərin seçilməsi qaydalarının müəyyənləşdirilməsi.
4. Aparıcıların sayının müəyyənləşdirilməsi və çıxışları üçün mətnlərin hazırlanması.
5. Tamaşa-viktorinanın proqramının hazırlanması.

Süleyman Sani Axundov

## ƏHMƏD VƏ MƏLEYKƏ

Qışın orta ayı idi. Soyuqdan hamı qaçıb evlərdə gizlənmişdi. Hacı Səmədin külfəti isti otaqda süfrənin başına cəm olub, yemək üçün onu gözləyirdi. O isə o biri otaqda öz işinə məşğul idi.

Hacı Səməd əlli yaşında, safürəkli, rəhmdil bir kişi idi. Onun külfəti qoca anasından, arvadından, doqquz yaşında bir oğlundan və bir də yeddi yaşında qızından ibarətdi.

Hacı Səməd oğlu Məmmədi ibtidai şəhər məktəbində oxudurdu və bu ildən də qızı Fatmanı şəhər qız məktəbinə vermişdi. Hacı Səməd başqa müsəlman atalara bərəks olaraq, uşaqlarının dərslərinə, ədəb və tərbiyəsinə çox fikir verərdi.

Hacı Səməd işini qurtarıb yemək otağına gəldi. O, süfrənin başında əyləşdi, yeməyə başladılar. Şam qurtardı. Hacı Səmədin xörəyin üstündən çay içmək adəti idi. Bu vaxt külfətə ya kitab, ya gündəlik qəzetlərdən oxuyardı. Bu da olmasaydı, gəzib-gördüyü vilayətlərdən danışardı. Buna görə də gözlüyü gözünə taxıb, əlinə qəzeti götürəndə hamı sakit olub onun danışığını gözləyirdi.

Hacı Səməd isə səsini çıxartmayıb öz-özünə yavaşcadan oxumağa başladı.

Fatma bu sakitliyə davam etməyib qoca nənəsinə dedi:

– Nənə, mənə bir qorxulu nağıl söylə.

Fatmanın qardaşı Məmməd bacısından bu sözü eşidib dedi:

– İndi ki qorxulu nağıl istəyirsən, bəs niyə o günü nənəm “Məlikməmməd” nağılını söyləyəndə div adı gələn vaxt nənənin qucağına qısıldın?

– Yox, mən heç qorxmurdum, – deyə Fatma cavab verdi.

Bu halda Hacı Səməd qəzeti yerə qoyub dedi:

– Yaxşı, qızım, bu gecə nənənin əvəzinə, mən sənə bir qorxulu nağıl söylərəm, bu şərtlə ki, qorxmayasan.

– Yox, ata, qorxmaram, söylə.

Hacı Səməd çaydan bir neçə qurtum içib başladı:

– Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzəran edərdi. Qızım, həmin bu nağıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on yaşında Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı.

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı.

Nağıl olunan zaman bahar və yay çox quraqlıq keçməyə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, hər yerdə aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirayəçiliyə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərərdi. Külfəti də onunla güzəran edərdi.

Əhməd kənd məktəbində oxuyurdu. Atası tərəfindən gələn məktubları asanca oxuya bilirdi.

Bir neçə gün bundan əqdəm Əhməd yazıb atasından özü üçün bir başlıq və bacısı üçün bir əlcək istəmişdi. Hər ikisi bu şeylərin tezcə alınmasını xahiş edirdi. Lakin beş gün keçdi, bir həftə keçdi, on gün keçdi, atalarından bir xəbər çıxmadı. Xədicə bərk qorxuya düşmüşdü.

Evdə pul və çörək də tükənmişdi.

Bir dəfə, əziz balalarım, söz vaxtına çəkər, belə bir gecədə, qarlı çovğunun şiddətli vaxtında, Əhməd və Məleykə atalarının yolunu səbirsiz gözləyən zaman kim isə qapını döydü. Uşaqlar cəld:

– Atam gəldi, – deyə qapıya tərəf yüyürüşdülər. Amma onun əvəzinə, kürkə bürünmüş, əlləri əlcəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabaçılığa getmişdi. Bunu görcək Xədicənin ürəyini qorxu aldı.

Uşaqlar:

– Əmi, bəs atamız hanı? – deyə soruşduqları vaxt ondan cavab almadılar. Şəhabəddin Xədicəni bayıra çağırıb, ərinin atlı-arabalı dərəyə uçub ölməyini xəbər verdi və onun cibindən çıxan altı manatı verib cəld getdi.

Xədicə ruhu qaçmış, nitqi tutulmuş halda içəri girdi və uşaqlarını bağrına basıb zar-zar ağladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından soruşdu:

– Ana, bu aclıq ildə atasız biz necə dolanacağıq, acından öləcəyik.

– Qorxma, oğlum, bu saçlarımı satıb sizi ac qoymaram, – deyə Xədicə oğluna təsəlli verdi, sonra hər ikisini soyundurub yatağa uzandırdı.

Bir azdan sonra uşaqlar yuxuya getdilər.

Amma o gecəni Xədicə sübhə kimi yata bilmədi. Fikir, xəyalət onu götürmüşdü. Sahibsiz arvad, yetim uşaqlar aclıq ildə necə dolansın?

Bir neçə müddət keçdi. Xədicənin pulu lap qurtardı. Yavaş-yavaş ev şeylərini satmağa başladı. Xədicə bir də baxdı gördü ki, evdə heç bir şey qalmayıbdır. Uşaqlar da acdır. Çörək üçün hansı qonşuya getdisə, əliboş qayıtdı, çünki hamı bunların günündə idi. Acından zavallı uşaqlar taqət və gücdən düşmüşdülər. Yazıq Xədicə hər yerdən ümidi kəsilmiş, dizlərini qucaqlayıb bir küncdə mumiya kimi oturmuşdu.

Gizlin ağlamaqdan gözlərinin yaşı da qurumuşdu... Acından Məleykənin qırmızı yanaqları saralmışdı...

Birdən Fatma özünü atasının qucağına atıb dedi:

– Ata, demə, demə! Qorxuram.

Hacı Səməd qızının başını sığallayaraq dedi:

– Qorxma, qızım, dalı yaxşıdır. Qulaq as, harada qaldım? Hə, Xədicə Məleykəni soyundurub yerə qoydu ki, bəlkə, yuxuya gedə. Amma yazıq tifil rahat yata bilmirdi. Axırda Xədicə onu sakit etmək üçün dedi:

– Qızım, Məleykə, gözlərini yumub yat; onda gecə mələk bacamızdan sənə çörək salar.

Məleykə gözlərini yumdu. Bir azdan sonra yuxuya getdi. Amma Əhməd anası ilə oyaq qalmışdı.

Gecədən xeyli keçmiş bacadan gumbultu ilə bir şey içəri düşdü. Ana və oğul diksinmiş halda ayağa qalxdılar ki, görsünlər, o düşən nədir. Gördülər ki, ağzıbağlı bir torbadır. Xədicə əli əsə-əsə torbanın ağzını açdı. Gördülər ki, içi çörək, yemiş, cücə, yumurta və qeyri yeməli şeylərlə doludur. Bunu görcək Əhməd dedi:

– Ana, gördünmü, mələk bacamızdan bizə çörək saldı.

Xədicə heyrətdə qalıb cavab verə bilmədi. Bu halda torbanı boşaldanda içindən kağıza bükülmüş bir yumru şey çıxdı. Açanda gördülər ki, hamısı qızıl puldur. Bunu görən ana və oğul daha da artıq təəccüb etdilər. Bu halda Əhmədin gözünə pula bükülmüş kağızda yazı sataşdı:

– Ana, burada yazı da var, qoy görək nədir, – deyə Əhməd kağızı oxudu.

“Qızım Məleykə, mən bir qoca səyyaham. Yolda evinizin yanında faytonumun çarxı çıxdı, onu salıncan mən istədim ki, sizdə bir az qızınıb, rahat olam. Qapıya gəldikdə anan dediyi sözləri eşitdim. Geri qayıdıb bu şeyləri və pulu sənin üçün hazır etdim və təzədən gəlib bacanızdan atdım. Yaşa, qızım, yaşa, mən qoca babanı da yaddan çıxartma.

Xudahafiz.

Səyyah Cəmaləddin”.

Bu halda Məleykə oyanıb dedi:

– Ana, mələk bacamızdan çörək saldımı?

– Bəli, qızım, ancaq mələk yox, baban Cəmaləddin, – deyə Xədicə Məleykənin qabağını yeməli şeylərlə doldurdu. O gecə iki bala, bir ana şadlıqlarından bilmirdilər ki, nə etsinlər. Axırda hamı şad-xürrəm yıxılıb yatdı.

İndi siz də, əziz balalarım, durun yatın, səhər dərsə gedəcəksiniz.

Bu sözlərlə Hacı Səməd sözünü tamam etdi.

Hüseyn Cavid

## QIZ MƏKTƏBİNDƏ

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
– Var, əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yox qiymətı,
Bir qızın ancaq bilgidir, təmizlikdir zinəti.
– Pək doğru söz... Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisin?
– Ən çox sevdiyim ilkin
O Allah ki, yeri, göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoxmu?
– Var...
– Kimdir onlar?
– Anam, babam, müəlliməm, bir də bütün insanlar.

. . . . . . . . . . . . . . . . . . . . .

Bayram Həsənov

## BULAQ BAŞINDA
*(hekayə)*

Səfdar dayı iyirmi ilə yaxın idi ki, meşəbəyi işləyirdi. Günü meşələrdə, təbiətin sakit qoynunda keçirdi.

Bir gün Səfdar dayı qonşu kənddəki idarələrindən maaşını alıb, oradan öz sahəsinə qayıtdı. Günortayadək xeyli yer gəzdi. Dərələr, təpələr aşdı, sıx meşələrdən, sərin sulu bulaqların yanından keçdi. Axırda yorulub əldən düşdü, yavaş-yavaş Pöhrənli dərənin ayağına endi. Yolun üstündəki bulaqdan su içib göy otluğa uzandı. Bir azdan onu yuxu tutdu.

İmran yolla keçirdi. Su içməyə döndü. Səfdar dayı onun ayağının altında sınan quru budaqların səsindən diksinərək gözlərini açdı. İmran isə elə bildi, meşəbəyi yatır. Su içib geri dönmək istəyəndə Səfdar dayı onun qoltuğundakı kisəni görüb arxadan dilləndi:

– Ay bala, hara gedirsən?

İmran ayaq saxladı:

– Dayı, qoçuma palıd qozası yığacağam.

Meşəbəyi gülümsədi:

– Kim sənə icazə verib, bala?

İmranın kefi pozuldu, əliboş evə qayıtsa, qoçu ac qalardı. Ancaq Səfdar dayı onun ürəyini sındırmadı:

– Di, get, – dedi, – amma ağacları sındırma ha!

İmran sevincək:

– Çox sağ ol, dayı, – deyə razılıq edib yola endi.

Pöhrənli dərə ilə başyuxarı qalxıb, yalın o biri üzünə aşdı. Buralar sıx palıd meşəliyi idi. Yetişmiş palıd qozaları öz-özünə sapından üzülərək taphatıp yerə düşürdü. Ağacların altı dolu idi. İmran bir saata torbasını doldurub geri qayıtdı. O yenə bulağa su içməyə döndü. Bulağın böyründəki daşın dibinə1 bükülü qəzet düşmüşdü. İmran kağızı açanda içindən xeyli onluq çıxdı. O, pulu tapdığına o qədər sevindi ki! Yol gedə-gedə şax onluqları çıxarıb baxır, yenə qoynuna qoyurdu. Pul sahibinin halına da acıyırdı, düşünürdü ki, kim bilir, bəlkə, indi haradasa ağlaya-ağlaya pulunu axtarır, ya

baş sındırır ki, görəsən, hansı ağacın altına düşüb qaldı. Özünə qaytarsam yaxşıdır. Gah da fikrindən keçirdi ki, eh, başımı niyə ağrıdım. Hardan bilim, kimin puludur. Verərəm atama, mənə velosiped alar, qalanını da nəyə xərcləyir, xərcləsin... Hə, yaxşı yadıma düşdü, onluğun birini də özümə saxlayaram. O gün mağazada gördüyüm qırmızı çantadan alaram, kitablarımın hamısını da tutar. Bəs qalanı? Hər gün anamdan pul istəməyəcəyəm ki. Onu da dəftər-qələmə xərcləyərəm...

İmran çox götür-qoy etdi. Nə puldan ola bildi, nə də xərcləməyə ürəyi gəldi. Tərəddüd içərisində evə gəldi. Pulu anasına göstərməyib, hələliyə xəlvətcə çantasına qoydu.

* * *

Səfdar dayı İmran gedəndən sonra bir az da meşəni dolanıb evə döndü. Kiçik oğluna konfet almaq üçün yolüstü kəndin başındakı mağazaya girdi. O, əlini cibinə salan kimi rəngi qaçdı, elə bil barmaqlarına ilan toxunmuşdu. Tələsik o birilərini axtardı. Əlini hansı cibinə atdısa da, boş keçdi. Bir aylıq maaşı itmişdi. Evə çox qanıqara qayıtdı. Onu belə gördükdə evdəkilərin hərəsi bir yandan soruşdu:

– Nə olub?

– Pulu itirmişəm...

O, yenə meşəyə qayıtdı. Gəzdiyi yerləri bir də dolandı, hər ağacın, hər kolun dibinə dönə-dönə baxdı. Yorulub əldən düşənəcən gəzib, kor-peşman kəndə qayıtdı. Bu gün meşəyə gedənlərdən kimi görmüşdüsə, hamısını tapıb xəbər aldı. O, İmrangilə də gəldi. Evdə deyildi. Atası bağban idi, ona yemək aparmışdı.

Səfdar kişi hər yerdən ümidi üzüləndən sonra evə gəldi. Ailəsi onun üz-gözündən işin nə yerdə olduğunu dərhal başa düşdü, daha pul barədə heç bir şey soruşmadılar, qabağına yemək qoydular. O, iştahasız bir-iki tikə yemişdi ki, qulağına səs gəldi, durub qapıya çıxdı.

İmran evə gələn kimi anası ona xəbər vermişdi ki, Səfdar kişi bizə gəlmişdi, səni soruşdu. Özü də yaman qaşqabağlı idi. Dedim, nə olub? Olmaya, Nəsir bu gün səni incidib? Dedi, özünü görmək istəyirdim, ondan söz soruşacağam. Tez də çıxıb getdi. İmran o

dəqiqə yəqin eləmişdi ki, tapdığı pul meşəbəyinindir. Birdən salıb itirər deyə, onluqları yenə qoynuna qoyub, Səfdar dayıgilə yollanmışdı.

Səfdar dayı balaca oğlu ilə eyvanda dayanmışdı. İmran doqqaza keçib onların yanına gəldi və çatan kimi də nəfəsini dərməmiş kağıza bükülü pulu çıxarıb Səfdar dayıya uzatdı:

– Sizindir?

Ona birinci cavab verən balaca oğlan oldu. O, sevinə-sevinə:

– Bizimdir, bizimdir... – deyə atılıb-düşdü.

Ancaq İmran ondan da çox sevindi...

# Layihə – 4

**Mövzu:**
**"DOĞMA TƏBİƏTİMİZ"**
(bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqə)

**Tapşırıq:**
1. Bədii əsərlərdən seçilməsi, oxu xüsusiyyətlərinin aydınlaşdırılması.
2. Müsabiqənin şərtlərinin müəyyənləşdirilməsi.
3. Münsiflər heyətinin yaradılması.
4. Qaliblərin mükafatlandırılması qaydalarının müəyyənləşdirilməsi.

## IV LAYİHƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SİNİFDƏNXARİC OXU MATERİALLARI

Nizami Gəncəvi

### PAYIZ YETİŞƏNDƏ

Əsdi xəzan yeli, payız yetişdi,
Bağların əhvalı tamam dəyişdi.
Küləklər taladı bağçanı, bağı,
Söndü al güllərin yanar çırağı.
Arxlar kənarında otlar sapsarı,
Töküldü reyhanın şux yarpaqları.
Sanki ağaclıqda odlar qalandı,
Əlvan yarpaqları alışdı, yandı.
Oxuyan quşlar da lal olmuş çoxdan,
Yelin ayağına dolaşır xəzan.
Güllərin yerini tikanlar almış,
Yarpaqsız, meyvəsiz bağlar boş qalmış.

Səməd Vurğun

## DAĞLAR

Binələri çadır-çadır,
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta-asta,
Enib gələr çeşmə üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?

Hər obanın bir yaylağı,
Hər tərlanın öz oylağı;
Dolaylarda bahar çağı
Bir doyunca gəzim, dağlar!

Qayaları baş-başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır
Canım dağlar, gözüm dağlar!

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar.

Məmməd Rahim

## BAHAR GƏLSİN

Gözəl bahar, gözəl bahar,
Gözləyirik, tez gəl, bahar!
Quşlar köçsün ölkəmizə,
Nəğmə desin yenə bizə.
Gəl, oyansın sıx meşələr,
Yasəmənlər, bənövşələr
Gəlişinlə ətir saçsın,
İydə, innab çiçək açsın.
Hər mövsümün öz yeri var,
Gəl, sevimli, gözəl bahar!
Bu düzlərdə, bu dağlarda,
Yaşıl donlu yaylaqlarda
Yenə quşlar nəğmə desin.
Həyat versin xoş nəfəsin
Bərəkətli torpaqlara –
Mehribansan uşaqlara.
Gəl Xəzərin sahilinə, –
Gözəl, sərin sahilinə.
Yayılanda günəş düzə,
Gəl-gəl desin dəstəmizə.
Ağacların xoş kölgəsi,
Bağçaların nəğmə səsi
Yayılanda dağa, daşa –
Gəl səninlə gəzək qoşa.
Gözəl bahar, gözəl bahar,
Gözləyirik, tez gəl, bahar.

Hüseyn Arif

## İZ AÇIN, AY BALALAR

Vətən torpağı geniş,
Aranı var, dağı var.
Bir möhtəşəm zirvənin
Bir gizli bulağı var.
Dağların sinəsində
Sirli yazılar yatar.
Düşüncəli fikirlər,
Şirin arzular yatar.
O dərin hikmətləri
Siz duyun, ay balalar!
Nələr oxunulmayır
Oxuyun, ay balalar!
Niyə şimşəkdən qabaq
Maral boynunu burur?
Kəklik daşa sığınır,
Qartal qalxıb qıy vurur?..
Dərələrə səs düşür
Sellər, sular daşanda,
Niyə göyün üzündə
Buludlar sıxlaşanda
Rəngi yerin dəyişir
Çəmənin, ay balalar?..

. . . . . . . . . . . . . . . . . . .

# Layihə – 5

**Mövzu:**
**"ƏDƏBİYYAT DƏRSLƏRİ BİZƏ NƏ VERDİ"**
mövzusunda dəyirmi masa

**Təqribi plan:**

1. Məruzəçilərin müəyyən edilməsi.
2. Müzakirə üçün sualların müəyyənləşdirilməsi.
3. İl ərzində aşağıdakı nailiyyətlərinə görə fərqlənən şagirdlərin rəğbətləndirilməsi:
   – *ən yaxşı ifadəli oxu nümunələri;*
   – *ilin fərqlənən inşa yazıları;*
   – *əsər üzrə ən yaxşı illüstrasiyalar;*
   – *ilin ən yaxşı tədqiqat işləri;*
   – *ilin ən yaxşı təqdimatları.*
4. 6-cı sinifdə ədəbiyyat dərslərinin maraqlı təşkili üçün təkliflərin müzakirəsi.
5. Mütaliə və fərdi yay layihələri üçün tapşırıqların verilməsi.

# İFADƏLİ OXUDA İSTİFADƏ EDİLƏN ŞƏRTİ İŞARƏLƏR

| | | | |
|---|---|---|---|
| 1 | \| | Qısa fasilə (bir sayına bərabər) | sətri |
| 2 | \|\| | Orta fasilə (iki sayına bərabər) | sətri |
| 3 | \|\|\| | Uzun fasilə (üç sayına bərabər) | sətri |
| 4 | — | Məntiqi vurğu | sətiraltı |
| 5 | ↗ | Tonun yüksəlməsi | sətirüstü |
| 6 | ↘ | Tonun alçalması | sətirüstü |
| 7 | ..... | Sözün uzadılması, yaxud cümlənin hissəsinin oxu tempinin aşağı salınması | sətiraltı |
| 8 | → | Tempin artırılması (oxunun sürətləndirilməsi) | sətiraltı |
| 9 | ⌒ | Yanaşı gələn sözlərin birnəfəsə deyilməklə oxunması | sətirüstü |
| 10 | ⏉ | Misrada fikrin tamamlanmayıb, növbəti misraya köçürülməsi. | sətri |

# LÜĞƏT

A

*Ağac* – uzunluq ölçüsü; bir ağac təxminən 6–7 kilometrə bərabərdir
*Ağı* – zəhər
*Ağıl* – qoyun-quzu saxlanılan yer
*Ahıl* – yaşlı, qoca adam
*Aqronom* – kənd təsərrüfatı, əkinçilik üzrə mütəxəssis
*Alaçıq* – yanları açıq yaylaq tikintisi, dəyə
*Azuqə* – yemək, ərzaq

B

*Barı* – hasar, divar
*Başaq* – biçin zamanı yerə tökülən sünbül qırıntıları; sünbül
*Behişt* – cənnət, ən gözəl yer
*Bədbin* – ümidini itirmiş
*Bəhri-Xəzər* – Xəzər dənizi
*Buğa* – hələ işə qoşulmamış heyvan, qaramal
*Büsat* – məclis, təntənə

C

*Cahan* – dünya, aləm
*Cahillik* – avamlıq, bilməzlik, düşüncəsizlik
*Canfəşanlıq* – canından keçmək, canını əsirgəməmək
*Cələ* – ipdən və ya at tükündən düzəldilən tələ
*Cəzana gəlmək* – cana gəlmək, usanmaq, təngə gəlmək
*Cin* – gözə görünməyən əfsanəvi varlıq, şeytan, əcinnə
*Comərdlik* – əliaçıqlıq, gözəlxasiyyətlilik

Ç

*Çar* (ruslarda) – hökmdar, padşah
*Çar divanı* – çar, padşah məhkəməsi
*Çəllək* – içində, əsasən, maye saxlanılan yastıdibli qab
*Çən* – duman
*Çin* (yuxu) – doğru, düzgün, düz
*Çin* – dişli oraq
*Çovustan* – qamış tikili
*Çubuq* – qəlyan
*Çuxa* – kişi üst geyimi

D

*Dam* – kiçik tikili, balaca ev
*Daşnak* – ermənilərin "Daşnaksütyun" partiyasının üzvü; bu terror təşkilatı Azərbaycana və Türkiyəyə qarşı çoxlu sayda terror əməliyyatları həyata keçirmişlər.
*Day* – daha
*Demi* – qəlyan, çubuq
*Dəbilqə* – döyüşçülərin başlarına qoyduqları metaldan tökülmüş papaq
*Dərviş* – müsəlman əqidəli, sufi təriqətinə mənsub olan adam
*Dəryaz* – ot biçmək üçün saplı alət
*Dəva* – dərman, dava, əlac, müalicə
*Dör* – otaqda yuxarı baş, hörmətli yer
*Dünyagörmüş* – təcrübəli, ağıllı adam
*Düyüb* (dağ düyüb alnını) – düyünləmək, bağlamaq; "dağ alnını düyünləyib" ifadəsi məcazi mənadadır.

Ə

*Əbədi* – həmişəlik, daimi, sonsuz
*Əbəsdir* – faydasızdır, nahaqdır, xeyri yoxdur
*Əldən düşmək* – yorulmaq, zəifləmək, halsızlaşmaq
*Ələf* – alaq, yararsız bitki, ot
*Əngin* (ənginlik) – geniş, ucu-bucağı olmayan, genişlik, açıqlıq
*Ərzuman* – böyük, güclü
*Əzazil* – zalım, rəhmsiz
*Əzəmət* – möhtəşəm

G

*Gərdən* – boyun
*Girdə* – dairəvi, yumru, şarşəkilli
*Güdükçü* – qoruyucu, keşikçi
*Güzəran* – yaşayış, həyat, dolanışıq

**H**

*Harın* – yaxşı bəslənməkdən, baxılmaqdan kökəlmiş, azğınlaşmış
*Hikmət* – müdrikcəsinə söz, həkimanə söz
*Hodaq* – xışa qoşulan öküz
*Hövlnak* – qorxunc, dəhşətli
*Hüsn* – gözəllik

**X**

*Xış* – yer şumlamaq üçün keçmişdə istifadə olunan əkinçilik aləti

**İ**

*İtik* – itirilmiş, itki

**K**

*Kamal* – yetkinlik, ağıl, zəka, kamillik
*Karvan* – bir-birinin ardınca sıra ilə hərəkət edən yüklü heyvan (əsasən, dəvə) dəstəsi.
*Kazak* – çar (rus) əsgəri
*Keçə* – yunu döyüb basmaqla hazırlanan sıx, qalın material; yerə döşəmək üçün istifadə olunur
*Kəmənd* – döyüşdə düşməni, eləcə də ov heyvanını tutmaq üçün istifadə edilən ucuilməkli uzun ip
*Kətmən* – alaq vurmaq, torpağı yumşaltmaq üçün kənd təsərrüfatı aləti
*Kirkirə* – əl dəyirmanı
*Kirşə* – paralel xizəklər üzərində düzəldilmiş araba
*Kotan* – yer şumlamaq üçün kənd təsərrüfatı aləti
*Kreml* – Moskvada vaxtilə rus çarlarının, sovetlər dönəmində və hazırda Rusiya hakimiyyətinin yerləşdiyi saray

**Q**

*Qabil* (qabil şəxsiyyət kimi hey özünü öyürdü) – istedadlı, hörmətli, yetkin
*Qamət* – boy, boy-buxun
*Qandal* – buxov, ağır cinayət etmiş məhbusların əlinə (ayağına) keçirilən dəmir halqalı zəncir
*Qarqara* – ağızı, boğazı yaxalama
*Qeybətcil* – başqasının dalınca danışmağı sevən, dedi-qoduçu
*Qeyz* (qeyzlə cavab verdi) – hirs, qəzəb, acıq, hiddət

*Qəflət* – xəbərsizlik, qəflətdə olmaq, etinasız
*Qəhət* (qəhətə çıxmaq) – aztapılan
*Qəlib* – tökmə vasitəsilə müəyyən formalı şeylər hazırlamaq üçün içərisi həmin formaya uyğun düzəldilmiş qab, alət; kərpic qəlibi, papaq qəlibi
*Qərinə* – əsrin üçdə biri, 33 illik bir dövr
*Qəsr* – imarət, padşah sarayı
*Qımışmaq* – dodaqaltı gülmək, gülümsəmək, təbəssüm etmək
*Qopuz* – saza oxşar musiqi aləti
*Quyunun təki* – quyunun dibi

## M

*Mahmız* – at minən adamın çəkməsinin daban hissəsinə bağlanan dəmir həlqə; onunla atı yavaşca vururlar ki, sürəti artırsın.
*Mahud* – parça növü
*Məbəd* – ibadət yeri, dərin hörmət bəslənilən yer
*Məqbərə* – qəbirüstü abidə
*Mərcan* – dənizdən çıxarılan tünd-qırmızı rəngli muncuqvari qadın bəzəyi
*Mərək* – heyvan yemi saxlamaq üçün anbar, samanlıq
*Məsum* – günahsız, təqsirsiz
*Məşəqqət* – əziyyət, zəhmət, çətin iş
*Məşvərət* – məsləhət yığıncağı, məsləhətləşmək
*Minarə* – məscidin yanında və ya üstündə ucalan qüllə
*Minval* – yol, üsul, qayda
*Möhlət* – zaman kəsiyi, vaxtın üzadılması
*Murad* –istək, arzu, məqsəd
*Mücrü* – balaca sandıqca
*Müdam* – həmişə, hər vaxt
*Müdriklik* – böyük ağıl sahibi olma; aqillik
*Müjdə* – muştuluq, xoş xəbər

## N

*Nagəhan* – birdən, qəfildən, gözlənilmədən törəyən
*Nəhs* (nə verdisə nəhs verdi) – uğursuz, tərs
*Nəsim* – yel, külək, meh
*Nəşə* – sevinc, kef, şadlıq, keflilik
*Nikbin* – gələcəyə ümidlə baxan
*Nimçə* – boşqab
*Nişanə* – iz, əlamət, bir şeyi tanımaq üçün qoyulan işarə
*Nübar* (ömrünün nübarı) – ilk məhsul, ilk meyvə

**O**

*Oba* – yurd, kiçik yaşayış məntəqəsi
*Orman* – meşə
*Ortaq* – şərik
*Ovqat* – əhvali-ruhiyyə, hal, kef
*Oylaq* – məskən, yer, meydan
*Oymaq* – kənd, el-oba
*Ozan* – qədim oğuz tayfalarının el şairi, aşıq

**Ö**

Örkən – ağır şeyləri bağlamaq üçün qalın kəndir

**P**

*Patrul* – nizam-intizama nəzarət edən polis və ya əsgərdən ibarət dəstə
*Pərdi* – damın altına, tavanın üstünə qoyulan tir
*Pərqu* – içində qu quşunun tükü olan balış
*Pəyə* – mal-qara saxlamaq üçün tikili
*Porsuq* – dələ cinsindən olan qaba yunlu xəzli heyvan
*Pöhrə* – ağac və kolların dibindən göyərən zoğ
*Pristav* – çar Rusiyasında, ona tabe olan ölkələrdə yerli polis rəisi
*Pud* – qədim çəki vahidi, 1 pud – 16,4 kq

**R**

*Ratsiya* – az güclü səyyar radiostansiya
*Raz* – sirr
*Riyakarlıq* – ikiüzlülük, ikiüzlü adam
*Riza* – xatirinə
*Ruzi* –yeməli-içməli hər şey, qismət, azuqə, yemək
*Rütbə* – vəzifə dərəcəsi

**S**

*Saçmaq* (şəfəq) – yaymaq, günəşin şəfəqlərinin yayılması
*Sandıq* – içərisində paltar və digər qiymətli şeylər qoymaq üçün taxtadan düzəldilib üzəri dəmirlə bəzədilmiş qapaqlı qutu
*Sent* – ABŞ-da xırda pul vahidi
*Səkil at* – ayaqları qismən və ya bütünlüklə ağ rəngdə olan at
*Sərnic* – süd sağmaq, qatıq çalmaq üçün geniş boğazlı, ikiqulplu mis qab
*Sıxcalamaq* – sıxmaq
*Sicim* – keçi qılından əyrilmiş ip

*Simurq* – əfsanəvi quş adı, əbədiyyət simvolu; digər adı – Zümrüd quşu
*Sinmək* – aşağı yatmaq, gizlənmək
*Son bahar* – payız
*Sümürmək* – dodaqlarla sorub çəkmək

## Ş

*Şam* – Suriyanın Dəməşq şəhərinin keçmiş adı
*Şikar* – ov

## T

*Taxça* – qab-qacaq və digər şeylər yığmaq üçün divarda açılan oyuq
*Tapınaq* – səcdə edilən yer
*Tapınan* – səcdə edən
*Təkə* – erkək keçi
*Təqaüd* – tələbələrə kömək məqsədi ilə verilən pul yardımı
*Təvazökar* – özünü sadə tutan (insan)
*Tir* – ağac gövdəsindən düzəldilmiş inşaat materialı

## Ü

*Ümman* – böyük dəniz, dərya

## V

*Vaysınmaq* – heyifsilənmək, təəssüf etmək

## Y

*Yabı* – arıq at
*Yapıncı* – kişilər üçün qalın üst geyimi
*Yedək* – heyvanın boynuna bağlanan ip
*Yuxa* – nazik yayılmış mayasız xəmirdən sacda bişirilən çörək növü; yayma

## Z

*Zəhmli* (adam) – vahimə, qorxu hissi yaradan
*Zindan* – həbsxana, dustaqların saxlanıldığı yer

. . .

# DƏRSLİKDƏKİ BƏZİ TERMİNLƏRİN İZAHI

*Epizod* – bədii əsərin bitkin bir parçası; məsələn, müəllim hekayədən (nağıldan, əfsanədən...) bir epizod danışdı.

*İdeya* – bədii əsərdə yazıçının oxucuya çatdırmaq istədiyi əsas fikir.

*İllüstrasiya* – bədii əsərin mətni ilə əlaqədar olan və bu mətnin izahına kömək edən şəkil. Ədəbi əsərlərdə, xüsusən uşaq ədəbiyyatında, dərsliklərdə illüstrasiyadan geniş istifadə olunur. Bu, mətnin asan qavranılmasına, mənimsənilməsinə kömək edir.

*İncəsənət* – insanları əhatə edən aləmin bədii obrazlarla ifadəsi. Obyektiv varlığın surətlərdə əks etdirilməsi, bədii yaradıcılıq fəaliyyəti, gözəl (nəfis) sənətlər.

*Mövzu* – yazıçının müəyyən ideya baxımından seçib, əsərində işıqlandırdığı həyat hadisəsi. Mövzu ideya ilə bağlıdır.

*Peyzaj* – bədii əsərdə əks etdirilən təbiət təsvirləri. Ona "mənzərə" də deyilir. Mənzərə təsvirlərində yazıçının təbiətə münasibəti öz ifadəsini tapır.

*Problem* – bədii əsərdə mövzu və ideyanın açılmasına kömək edən hadisə, motiv. Bədii əsərdə mövzu bir və ya bir neçə problem üzərində qurulur, bu problemlərin təsviri ideyanın açılmasına xidmət edir.

*Surət* – bədii ədəbiyyatda və incəsənətdə yazıçının, rəssamın və b. yaratdığı obraz, insan xarakteri.

*Süjet* – bir-biri ilə bağlı olub ardıcıl surətdə inkişaf edən və əsərin məzmununu təşkil edən həyat hadisələri.

*Təsvir* – bədii əsərdə əşya, insan, həyat hadisələrinin və s. təqdimi.

...

## OXUMAĞI MƏSLƏHƏT GÖRÜRÜK

Əsərlər müəllimin tövsiyəsi ilə seçilə bilər


1. Azərbaycan nağılları. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2005.
2. Atalar sözü. Bakı, “Öndər” nəşriyyatı, 2004.
3. Andersen Hans Kristian. “Nağıllar”. Bakı, “Öndər” nəşriyyatı, 2004.
4. Aslan Məmməd. “Seçilmiş əsərləri”. Bakı, “Avrasiya Press” nəşriyyatı, 2006.
5. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə – I cild. XX əsrə qədərki uşaq şeiri. Bakı, “Öndər” nəşriyyatı, 2005.
6. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə – II cild. XX əsr uşaq şeiri. Bakı, “Öndər” nəşriyyatı, 2004.
7. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə – III cild. Nəsr. Bakı, “Öndər” nəşriyyatı, 2005.
8. Əfəndiyev Rəşid. “Seçilmiş əsərləri”. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2006.
9. Rzaquluzadə Mikayıl. “Seçilmiş əsərləri”. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2006.
10. Seyidzadə Mir Mehdi. “Seçilmiş əsərləri”. Bakı, “Avrasiya Press” nəşriyyatı, 2006.
11. Tven Mark. “Seçilmiş əsərləri”. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2009.
12. Dünya fantastika antologiyası. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2007.
13. Seton-Tompson Ernest. “Seçilmiş əsərləri”. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2006.
14. www.kitabxana.net
15. www.anl.az

BURAXILIŞ MƏLUMATI

**ƏDƏBİYYAT – 5**
Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Soltan Hüseyn oğlu Əliyev** |
| | **Bilal Ağabala oğlu Həsənov** |
| | **Əminə Əli qızı Səfərova** |
| | **Əsgər Qədir oğlu Quliyev** |
| Redaktor | **Kəmalə Cəfərli** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |


**© Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2024-022**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 9,3. Fiziki həcmi: 13 çap vərəqi.
Formatı: $70\times100^{1}/_{16}$. Kəsimdən sonrakı ölçüsü: 165×240. Səhifə sayı: 208.
Şriftin adı və ölçüsü: School qarnituru 9-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __ . Tiraj 152600. Pulsuz. Bakı – 2024.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 10.01.2024**

Çap məhsulunu hazırlayan:
**"Bakı" nəşriyyatı** (Bakı, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:
**"İndiqo" mətbəəsi** (Şəfayət Mehdiyev, 133)

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin. Sizə təhsildə uğurlar arzulayırıq!

